

***Siracəddin HACI***

# Nizaminin ədalət xütbəsi

***Preaching justice by Nizami***

*Muayyaddin al-Ganjavi, was born in Ganja, one of the centers of political, economic and scientific thought of Azerbaijan, his wife's name is Afag, his son's name is Muhammad, he is related to the Great Seljuk state. is Azerbaijan Turk, a Muslim, devoted to God with all its being, has a deep madrasa education, writes that he studied all sciences, loves to read, says that it is haraam to sleep without reading, learning new things, knows Turkish, Persian, Arabic, studies Greek and Jewish sources.*

*He loves to read and says that it is haraam to sleep without reading and learning new things. He speaks Turkish, Persian and Arabic, studies Greek and Jewish sources, has studied the Quran, the hadiths, and the works of Islamic scholars and philosophers. He has carefully studied Christianity, Judaism, the Bible, the Torah, Zoroastrianism, Turkish, Persian, Arabic, Greek, Indian, Chinese cultures, history, folklore, music, poetry in the world ended with Nizami. Nizami is attached to the school of knowledge, he is a sheikh, a lover, a sage, a scholar, a murshid, he has disciples, he is a man of zuhd, he is prudent, he is humble, he used the method of mathematics to cultivate himself, he sprayed strawberries in the sprinklers.*

*Nizami is a great politician, he knows politics and diplomacy very well, his lyrical poems, "Treasure of Secrets", "Khosrov and Shirin", "Leyli and Majnun", "Seven beauties", "Alexander's letter" are among the masterpieces of world culture.*

*He founded a school, had a significant impact on world literature, its prose writers walked hand in hand, and people saw these works as a source of blessing. There are works by Nizami in important libraries of the world, these works have been translated into world languages.*

## I NİZAMİ GƏNCƏVİNİN KİMLİYİ:
## "NİZAMİ DEYİR Kİ, HƏDƏFİM YER ÜZÜNDƏ RƏHMƏT EVİ TİKMƏKDİR"

- Nizami Gəncəvinin kimliyini hansı ölçülərlə tanıda bilərsiniz?

- Nizaminin əsl adı Cəmaləddin əbu Məhəmməd İlyas bin Yusuf bin Zəkiəddin bin Müəyyəddin əl-Gəncəvidir, Azərbaycanın siyasi, iqtisadi, elmi düşüncə mərkəzlərindən biri olan

Gəncədə doğulmuşdur, xanımının adı Afaq, oğlunun adı Məhəmməddir, Böyük Səlcuqlu dövlətinə bağlıdır, Azərbaycan türküdür, müsəlmandır, bütün varlığı ilə Allaha bağlıdır, dərin mədrəsə təhsili var, bütün elmləri öyrəndiyini yazır, oxumağı çox sevir, deyir ki, oxumadan, yeni şeylər öyrənmədən yatmaq haramdır, türk, fars, ərəb dillərini bilir, yunan və yəhudi qaynaqlarını araşdırır, Qurani-Kərimi, hədisləri, İslam alim və filosoflarının əsərlərini dərindən öyrənmişdir, düşüncəsinin mayası İslam dini və mədəniyyəti olsa da, xristianlığı, musəviliyi, İncili, Tövratı, zərdüştlüyü, türk, fars, ərəb, yunan, hind, Çin mədəniyyətlərini, tarixi, folkloru, musiqini, şeiri, əruzu diqqətlə araşdırmış, elm xəzinəsi ortaya qoymuşdur, şairdir, böyük iddiası var, deyir ki, dünyada şairlik Nizami ilə bitmişdir.

Nizami irfan məktəbinə bağlıdır, şeyxdir, aşiqdir, arifdir, alimdir, mürşiddir, müridləri var, zühd əhlidir, qənaət sahibidir, təvazökardır, özünü yetişdirmək üçün riyazət üsulundan istifadə etmiş, çiləxanalarda çilələr çəkmişdir. Nizami ağıla çox önəm verir, deyir ki, ağıl mayadır, insanı seçən, üstün qılan ilahi nemətdir, insan ağlından doğru istifadə etsə, hər şeyi olar. Nizami böyük siyasət adamıdır, siyasəti, diplomatiyanı gözəl bilir, onun lirik şeirləri, "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" adlı beş məsnəvisi dünya mədəniyyətinin şah əsərləri sırasında yer tutur. O, məktəb yaratmış, dünya ədəbiyyatına ciddi təsir göstərmişdir, onun məsnəviləri əl-əl gəzmiş, insanlar bu əsərlərə bərəkət qaynağı kimi baxmışlar. Dünyanın önəmli kitabxanalarında Nizaminin əsərləri var, bu əsərlər dünya dillərinə tərcümə olunmuşdur.

Hindistanda təkcə "Sirlər xəzinəsi" məsnəvisinin yüz yeddi nüsxəsini olduğunu bilirik...

- Sizcə, Nizami irsi dünya mədəniyyətinə nə qazandırmışdır?

- Bu, çox geniş cavab tələb edən sualdır. İmkanımıza uyğun olaraq bunları deyə bilərəm. Nizami insanlığın şairidir, min ilə yaxın bir vaxt keçsə də, Nizaminin məsnəviləri dəyərini itirmədi. Bunun səbəbləri var: onun məsnəviləri içində həqiqət daşıyır, Nizami insanlara hər zaman doğru yol göstərən dəyərləri təbliğ etmişdir. İçində həqiqət olmayan, dəyər daşımayan heç bir əsər qalıcı olmaz, təsir göstərməz, sevilməz. Nizaminin təbliğ etdiyi dəyərləri - insanı insan edən dəyərləri belə sıralaya bilərəm: tövhid - şair deyir ki, bu, ən böyük dəyərdir, insanlar tövhidi doğru anlasalar, bütün sıxıntılar həll olunar, Nizami tövhidi insan azadlığının əsası kimi tanıtmışdır. Ədalət - Nizami deyir ki, ədalət iki dünyanın sərmayəsidir, ədalət hər varlığı ilahi təyinatına uyğun yerdə tutmaq, hər kəsə, hər varlığa layiq olduğu haqqı verməkdir, tövhid insanla Allah, ədalət insanla insan münasibətlərinin əsasıdır. Mərhəmət - Nizami deyir ki, mərhəmət olmasa, insanlıq ölər, ilahi rizanı qazanmaq mərhəmətlə mümkündür. Elm - Nizami deyir ki, elm güc qaynağıdır, elmi olmayan Allahı tanımaz, inkişaf etməz, həlak olar, dəyərlərini itirər. Barış - bu, insanların bir arada yaşamasını təmin edən dəyərdir, şair deyir ki, fərqlilik ayədir, nemətdir, zənginlikdir, ona sayğı duyun ki, bir arada, hüzur içində yaşaya biləsiniz. Rifah - Nizami deyir ki, yoxsulluq parçalayır, zənginlik birləşdirir. Şair zənginliyin əsasına halallığı qoyur, deyir ki, halal yaşamaq igidlikdir. Sevgi - Nizami sevgini münasibətlərin mayası kimi tanıtmışdır.

Nizami Qurani-Kərimdən çıxış edərək dövlət idarəçiliyinin əsasına altı dəyər qoymuşdur: həqiqət - dövlət doğru dəyərlər üzərində qurulmalı, doğru olan işləri gerçəkləşdirməlidir; ədalət - dövlətin imanı ədalətdir, bir dövlət küfürlə deyil, zülmlə yıxılar; məşvərət - dövlət məsləhətlə idarə olunmalıdır; ləyaqət və əhliyyət - iş işi bilənə verilməlidir; mərhəmət - Nizami deyir ki, dövlət vətəndaşlarına mərhəmətlə yanaşmalı, onların sıxıntılarını həll etməli, bağışlama yolunu tutmalıdır; ümid - dövlət vətəndaşına qorxu deyil, ümid verməlidir, ümidin anası ədalət, meyvəsi sevgidir. Nizaminin dövlət idarəçiliyi ilə bağlı ən gözəl ölçüsü budur: hakimiyyətin şükrü ədalətdir. Dünya dövlətlərinin əsasında Nizaminin təsbit etdiyi dəyərlər olsa, yer üzündə savaş, kin, nifrət, aclıq, yoxsulluq, göz yaşı zülm olarmı?

- Nizaminin İslam dininin dəyərlərinə bağlılığını hansı ölçülərlə qavramaq olar?

- Nizaminin düşüncəsinin mayası İslam dinidir. O, ən çox hansı dəyərləri təbliğ edib desəniz, mən tövhid və ədalət cavabını verərəm. Nizami deyir ki, mənim torpağıma tövhid inancının toxumu səpilmişdir. Şair insan azadlığının əsasına tövhid inancını qoymuşdur, o deyir

ki, Allaha təslim ol ki, azad olasan. Nizami Allahı tanıdır, bu məqsədlə varlıqları iki yerə ayırır: Yaradan və yaradılanlar. Şair deyir ki, Yaradan Allahdır, O, təkdir, tək olmaq ancaq Onun haqqıdır, O, vacibul-vücüddur, yəni var olmaq üçün bir başqa varlığa möhtac deyil, əbədidir, ehtiyacsızdır, hər varlığın ehtiyacını təmin edəndir, bütün mükəmməlliklər Ona aiddir, nöqsan sifətlərdən uzaqdır, bir tək İlahdır, ibadət, itaət, dua ancaq Onadır, heç bir varlığa bənzəməz, varlığın mütləq hakimidir, mərhəmətlidir, mülkün gerçək sahibidir, ölümü və həyatı yaradan Odur, hüzur qaynağıdır, güvən və iman verir, mütləq diridir, hər şeyi bilir, eşidir, görür, qullarına əsla zülm etməz, şərəf və etibar qaynağıdır, axirətin tək sahibidir, hər kəsdən hesab soruşacaq.

Nizami tövhid inancını doğru öyrətmək üçün yaradılanları da tanıdır: onlar çoxdurlar, yaradılmışlar, var olmaq üçün bir yaradıcıya möhtacdırlar, ehtiyacları var, fani-ölümlüdürlər. Nizami Allahı doğru tanımağın yolunu da öyrətmişdir: o deyir ki, insan Allahın zatını qavraya bilməz, belə ki, Allah sınırsız, insan sınırlı varlıqdır, sınırlının sınırsızı qavramaq imkanı yoxdur, Allahı tanımağın iki yolu var: birincisi, Onun yaratdıqlarını tanı, yaradılanlardan yaradana doğru get, ikincisi, Allahın gözəl adlarının anlamını öyrən (əzbərləmə, öyrən). Şair bütün məsnəvilərinin əvvəlində Allahın gözəl adlarını bədii dillə bir-bir tanıtmışdır. Nizami hədəfini belə açıqlamışdır: yer üzündə Rəhmət Evi tikmək istəyirəm, bu, sevgi, barış, xeyir, rəhmət, bərəkət, hüzur evidir, insanlıq üçün tikiləcək bu ev dörd dayaq - dörd dəyər üzərində dayanacaq: tövhid, ədalət, elm, mərhəmət. Nizami Allah Rəsulunu - son Elçini, aləmlərə rəhmət olaraq, gözəl əxlaqı tamamlamaq üçün göndərilmiş hz.Məhəmmədi sevə-sevə tanıtmış, hər məsnəvisinin əvvəlində, tövhid bölməsindən sonra Ona yer vermiş, Onun gözəl örnəkliyini önə çıxarmış, Onu tanıtmaq üçün gözəl məcazlar seçmiş, oğlunun adını da Məhəmməd qoymuşdur. Nizami insana ikidünyalı həyat təklif edir, deyir ki, axirət dünyanın ruhudur, axirət inancı olmasa, insan da, bu dünya da anlamını itirər. Nizami insana şükrü, dini, yaradılışı, savabı, günahı, tövbəni, dünyanı, qəlbi, ümidi, əməyi, anlamlı həyatı, sərvəti tanıdır. Deyir ki, hər insan yer üzünün xəlifəsidir, onu işi yer üzündə tövhid, ədalət, xeyir, mərhəmət, barış, rifah üçün çalışmaqdır. İnsan olmağın şükrü Allaha təslim olmaqdır. Anlamlı həyatın ölçüsü budur: insan ilahi təyinatına uyğun yaşamalı, Allahın buyruqlarını yerinə yetirməlidir.

- Nizami ilə bağlı son araşdırmalarınız haqqında bir az bilgi istəyirik.

- Öncə onu deyim ki, bizim Nizamini anmağa deyil, anlamağa ehtiyacımız var. Kimliyimizi, dəyərlərimizi tanımaq, inkişaf etmək, azad olmaq, ədalətli cəmiyyət qurmaq, dünya mədəniyyətinin öncüllərinin sırasında yer tutmaq istəyiriksə, Nizami irsini dərindən öyrənməli, dəyərlərini günümüzə daşımalıyıq. Bu böyük işi gerçəkləşdirmək üçün də bir sıra şərtlərə ehtiyac var: birincisi, Azərbaycan mədəniyyətinin, o sıradan Nizaminin islami kimliyi qəbul olunmalı, Nizami bağlı olduğu dəyərlər əsasında öyrənilməlidir. İkincisi, Nizami irsi yenidən tərcümə olunmalı, bədii və sətri tərcüməsi hazırlanmalıdır. Üçüncüsü, bu böyük işi gerçəkləşdirmək üçün ayrı-ayrı elm sahələrinin mütəxəssislərindən ibarət elmi heyət formalaşdırılmalıdır. Dördüncüsü, Nizaminin hər misrasına şərhlər yazılmalı, onun irsi ilə bağlı ciddi elmi işlər ortaya qoyulmalıdır. Beşincisi, Nizaminin təbliğ etdiyi dəyərlər həyatımıza daşınmalıdır.

Biz də gücümüz ölçüsündə işlər gördük. Elmi fəaliyyətimizin iki əsas istiqaməti var, biri Qurani-Kərimlə, o birisi Nizami ilə bağlıdır. Nizamini aid olduğu dəyərlər işığında öyrənməyə çalışdıq, onun əsərlərinə on iki cild şərh yazdıq, işlərimiz davam edir, bu il "Yeddi gözəl" məsnəvisi ilə bağlı, min iki yüz səhifəlik, iki cildlik şərhimiz çap olundu. Dünya nizamişünaslığında ilk dəfə olaraq şairin iki məktubuna yüz əlli səhifəlik şərh yazdım, "Nizaminin iki məktubu: dünya siyasət və diplomatiya tarixinin iki şah əsəri" adı ilə çap etdim. İndi "Nizaminin ədalət xütbəsi" adlı elmi işimi tamamlamışam. İşlər davam edir, Allah ömür versə, Nizami irsinin hamısını şərh edəcəyəm. Hərəkət bizdən bərəkət Allahdandır.

NİZAMİ GƏNCƏVİ DEYİR Kİ, HANSI ÖLKƏDƏ ƏDALƏT OLSA, O ÖLKƏDƏ:

- qıfıllı qapılar açılar;
- nəfəs üçün hava yolu qoyular;
- qısır inəklər doğar;

- çaylarda su çoxalar;
- ağacların barı artar;
- pulun dəyəri olar;
- düyünlər çözülər;
- qarışıqlığa son qoyular;
- ölkə sərvətə hamilə olar;
- sərvət aşıb-daşar;
- hər kəsə layiq olduğu verilər;
- kasıblar sevinər;
- qaçqınlar öz yerinə qayıdar;
- qoyunlar canavarların zülmündən qurtarar;
- çalağan göyərçinlə dost olar;
- fitnə ölər;
- əliuzunların (rüşvətxorların) əli qısalar;
- ölkənin düşmənləri qorxuya düşərlər;
- dostlar sevinərlər;
- hakimiyyətin mərkəzinə insana xidmət qoyular;
- cinayətkara belə işgəncə verilməz;
- xalq hakimiyyəti sevər;
- xalq dövlətinə bağlanar;
- kimsə ac qalmaz;
- kədərin yerini sevinc tutar;
- üzlərə təbəssüm qonar;
- hakimiyyət xalqın nazını çəkər;
- ölkənin xəzinəsi dolar;
- qılınc və şallaq (zülm, qorxu, şiddət) ölkədən sürgün edilər;
- ağaclar çiçək açar, yaşıllaşar;
- insanların əli pulla oynayar;
- bolluq, bərəkət bütün evlərin qapısını döyər;
- hakimiyyət ədalətli olanlara dəyər verər, onların önünü açar, zalımlarla savaşar, zülmün qapısını bağlayar;

NİZAMİ GƏNCƏVİNİN UCA ALLAHA DUASI

Ey mənim ürəyimi müalicə edən, ALLAHIM!
Məni kimsəyə möhtac etmə!
Məni möhtac olanlara möhtac etmə!
Məni ancaq Özünə möhtac et!
Mənə nur ver!
İşlərimi asanlaşdır!
Qoyma başım kiminsə qarşısında əyilsin!
Halal ruzi ver!
Qəlbimi uca Allah sevgisi ilə doldur!
Mənə yeni söz xəzinələri bəxş et!
O xəzinələri açmaq gücü ver!
AMİN!

NİZAMİ GƏNCƏVİNİN UCA ALLAHA DUASI

EY UCA ALLAHIM:
- məni Allahdan başqa kimsəyə möhtac etmə!;
- ruzi ver!;
- qocalanda əlimdən tut!;

- məni bu dünyanın köləliyindən azad et!;
- qulluğumu qəbul et!;
- məni qoru!;
- başımı ucalt!;
- bu dünyada başıma qənaət və riza tacı qoy!;
- axirət səadəti nəsib et!;

AMİN!

NİZAMİ GƏNCƏVİ DÖVLƏT BAŞÇISININ ÖZƏLLİKLƏRİNİ AÇIQLAMIŞDIR:

- ağıllıdır;
- güclüdür - iradəlidir;
- səbirlidir;
- ölkəsini qoruyur;
- dövlətinin xəzinəsi insanlara xidmət edir;
- qayğıkeşdir;
- əvəz istəmədən nemətlər verir;
- cəsur sərkərdədir;
- insanları rifah içində yaşadır;
- saleh əməlləri ölkəni yaşıllığa - cənnətə çevirir;
- sıxıntıları həll edir - düyünləri açır;
- ədaləti minlərlə ölmüş qəlbi dirildir;
- xeyir işlərin arxasınca gedir;
- xeyirxahdır;
- uca Allahı unutmur;
- axirətə inanır;
- insanların arzularını yerinə yetirməsi üçün şərait yaradır;
- səxavətlidir;
- mərhəmətlidir;
- bağışlamağı çox sevir;
- verdiyi sözü yerinə yetirir;
- doğru danışır;
- vəfalıdır;
- fatehdir - ədaləti ilə qəlbləri, qılıncı ilə ölkələri fəth edir;
- elmlidir;
- alimləri sevir;
- məsləhətə önəm verir;
- işi iş bilənə tapşırır;

II "YEDDİ GÖZƏL" MƏSNƏVİSİNDƏ BƏHRAM OBRAZININ İNŞA MƏRHƏLƏLƏRİ

Nizami "Yeddi gözəl" - "Bəhramnamə" məsnəvisində Bəhram Gur obrazını addım-addım inşa etmiş, ona bağlı olan hər şeyi hədəfə uyğun biçimdə dəyərləndirmiş, siyasi lider yetişdirməyin yollarını göstərmişdir:

- Bəhram Gurun atasına yer vermiş, aralarındakı fərqləri göstərmişdir: ata daş, oğul gövhərdir, ata zalım, oğul insaflıdır, ata acımasız, oğul mərhəmətlidir;
- münəccimlər Bəhram Gurun taleyindən xəbər verirlər: o, fateh olacaq, ədaləti, əzəməti ilə aləmi nurlandıracaq;
- o, şahın tək övladıdır;
- Bəhram Gurun uşaqlığı Ərəbistanda - Yəməndə keçir;
- Yəmən hakimi ona siyasətin - şahlığın elmini, ədəbini öyrədir;
- O, dörd yaşında cəsur şir olur;
- Bəhram Gurun sağlam böyüməsi üçün havası, təbiəti gözəl olan özəl yer seçilir;

- Bəhram Gur üçün özəl saray - Xəvərnəq qəsri tikilir;
- bu sarayın ustası Rum ölkəsinin məşhur memarı Simnardır;
- Nizami bu sarayın gözəlliyini parlaq məcazlarla təsvir etmişdir;
- Bəhramın özəl dayəsi, özəl müəllimi var;
- Onun elm öyrənmək marağı güclüdür;
- çox ağıllıdır, dərin qavrayışı var, məsələləri tez və düz anlayır;
- ərəb, fars, yunan dillərini öyrənir;
- dil müəllimi bir atəşpərəst muğu idi;
- astronomiyanı dərindən öyrənir;
- həndəsəni, riyaziyyatı çox sevir, çətin məsələləri tez qavrama gücü var;
- irfan bilgi sistemini öyrənir;
- müəllimi ona göylərin, yerin sirrini açır;
- nitq mədəniyyətinə, bəlağət elminə yiyələnir;
- Bəhram Gur bütün elmlərin mahiyyətini öyrənir;
- dinləmə mədəniyyətinə sahib olur;
- savaş elminin sirlərini öyrənməyə çox maraq göstərir;
- silah oynadır, at çapır, ox atır;
- çox cəsurdur, şirlərin pəncəsini, qurdların boynunu sındırır;
- nizə oynatmaqda tayı-bərabəri yoxdur;
- mahir oxatandır, qranit daşları oxla bir-birinə tikir, ox atarkən bütün oxları eyni nöqtəyə vurur;
- daşı qılıncla parçalayır;
- nizəsinin ucu ilə darını deşir;
- oxu ilə tükü yarır;
- ona şir deyirdilər;
- bəbirin üstündə at çapırdı;
- qızmış şirlə oynayırdı;
- elmi güclə hərbi gücü özündə birləşdirmişdi;
- ov etməyi sevir, vəhşi gur ovlayır;
- Nizami Bəhramın atını, oxunu, yayını, ov məharətini incəliklərinədək təsvir edir;
- o, dörd yaşına çatmamış gurları ovlamır, onların qanını haram sayırdı;
- Bəhram Gur bir oxla guru və onu ovlamaqda olan (onun belinə minmiş) şiri öldürür;
- bir dişi gur Bəhramı arxasınca mağaraya aparır, onun balasını yemiş əjdahanı öldürməsini, qisasını almasını istəyir;
- bu hadisə vasitəsi ilə həm Bəhramın cəsarəti, məharəti təsvir olunur, həm də zülm edən hər kəs cəzasını alacaq ölçüsü tanıdılır, ədalətli ol mesajı verilir;
- Nizami Bəhram Gurun qorxunc əjdahanı öldürməsini bütün incəlikləri ilə təsvir edərək bu mesajları da vermişdir: Allah ədalətli, cəsur, mərhəmətli olanlara böyük mükafat hazırlamışdır, məzlumun ahı zalımı həlak edər, zalımın deyil, məzlumun yanında ol, məzlumların bu dünyasını xilas et ki, Allah da sənin axirətini qurtarsın, ananın balasına sevgisi qeyri-adidir, o, balasını qurtarmaq üçün canını verər;
- rəssamlar Bəhram Gurun hər zəfərinin rəsmini qəsrin divarına nəqş edirlər;
- Bəhramın Xəvərnəq qəsri çox gözəldir, şahzadə ona yaraşan sarayda yaşayır;
- Bəhram o sarayda özəl bir otaq görür, orada yeddi ölkəni təmsil edən yeddi gözəl qızın şəkli otağın tavanına çəkilmişdi, Bəhram Gurun rəsmi dairəvi biçimdə sıraya düzülmüş qızların rəsminin ortasında idi, Günəşin ətrafına planetlər düzülmüşdü, ulduzların hökmü də divara yazılmışdı: Bəhram o yeddi gözəl qızı yanıma gətirəcək;
- Bəhramın atası vəfat edir, İran hakimiyyətində təmsil olunanlar Yəzdigürdün zalım olduğunu əsas göstərərək monarxiya idarə üsulunun tələbini pozur, hakimiyyəti haqqı olan Bəhrama deyil, yaşlı, müdrik bir insana verirlər, ərəb tərbiyəsi görmüş Bəhramın İranı idarə etməsini istəmirlər;

- Nizami bu hadisədən yararlanaraq Bəhramın bir sıra özəlliklərini önə çıxarır: a) övladlıq borcunu yerinə yetirir - atasına yas tutur; b) hakimiyyət haqqının əlindən alınması ilə barışmır; c) qərarlı və iradəlidir, deyir ki, indi yas vaxtı deyil, hakimiyyət uğrunda mücadilə vaxtıdır; d) ağıllı və cəsurdur - bilir ki, hərbi gücü olmasa, hərbi güclə diplomatik güc birləşməsə, hakimiyyət haqqını əldə edə bilməyəcək; e) bacarıqlıdır - yüz minlik seçmə ordu hazırlayır, yenilməz sərkərdə kimi Yəməndən İrana doğru hərəkət edir;

- Nizami Bəhramın ordusunun fiziki və mənəvi gücünü göstərmək üçün bütün incəliklərə yer verir, gözəl məcazlardan yararlanır: əsgərlər zireh geyimli, dəmir çeynəyən, düşmən yıxan, div bağlayan, qalalar fəth edən idilər, ordunun nəmi balığa, tozu Aya çatdırdı, bürünc küplərin naləsi ödü parçalayırdı, düşmənə olan kin cəhənnəm odu kimi qızmışdı...;

- Bəhram hərbi gücünü göstərir, ancaq hakimiyyət məsələsini diplomatik yolla, qansız həll etmək istəyir, belə ki, gələcəkdə idarə edəcəyi iranlılarla düşmənliyin artmasının onun ziyanına olduğunu bilir;

- İranı idarə edənlər Bəhramın əzəmətli ordusundan qorxuya düşür, çıxış yolu axtarır, qərara gəlirlər ki, Bəhrama məktub yazsınlar, məktub yazır, onu din xadimlərindən ibarət nümayəndə heyəti ilə Bəhrama göndərirlər. Onlar Bəhramın hərbi hərəkatını dayandırmaq üçün məktubda bu fikirləri önə çıxarırlar: din duyğusunu hərəkətə keçirir, dindaş olduqlarını vurğulayırlar, Bəhramı tərifləyir, onun hakimiyyət haqqını tanıyırlar, dövlət idarəçiliyinin çətinliyini göstərirlər, atasının zülmünü özəlliklə qabardır, iranlıların Yəzdigürdə nifrət etdiklərini söyləyirlər, maddi yardım təklif edirlər, vaxt istəyir, gələcəkdə İranın şahının Bəhram olacağını bildirirlər;

- Bəhram iranlılara cavab məktubu yazır, Nizami bu məktub vasitəsi ilə onun kəskin siyasi zəkasını, diplomatiya bacarığını, liderlik imkanlarını, uzaqgörənliyini, ağlının gücünü ortaya qoyur;

- Bəhram deyir ki, hakimiyyət haqqından əsla əl çəkməyəcək, İranın şahı olmaq onun halal haqqıdır, o, bu halal haqqını ya savaş, ya da barış yolu ilə qazanacaq;

- O, şahı olacağı İran xalqına əziyyət vermək, onların nifrətini qazanmaq istəmir, ona görə də barış yolunu seçir;

- Bəhram cavab məktubunda iranlıların qəlbini qazanmaq, ağıllı, cəsarətli, iradəli, ədalətli olduğunu göstərmək üçün bu anlayışları önə çıxarır: din bağı qurur - Allaha inandığını söyləyir, atası ilə arasına məsafə qoyur, onun zülmünə görə üzr istəyir, vədlər verir, deyir ki, mənim hakimiyyətim zamanı qəddarlıq, özbaşınalıq olmayacaq, ədalət bərpa ediləcək, vergilər azaldılacaq, hər kəsin canı, malı, şərəfi qorunacaq, qərarlar məsləhətlə qəbul olunacaq, vəzifələr ağıllı adamlara veriləcək, yeni fəthlər olacaq, İran xalqı zənginləşəcək, Allahın və insanların rizasını qazandıracaq işlər görəcəyəm, O, İranı idarə etmiş nəslinin böyük şahlarını yada salır, İranın şahı olmaq mənim haqqımdır deyir, güclü, qətiyyətli olduğunu ifadə edən sözlər seçir, deyir ki, kimsənin Bəhramın hakimiyyətə gedən yolunu kəsmək imkanı, gücü, haqqı yoxdur, artıq hər kəs bilsin ki, Bəhram İranın şahıdır;

- Bəhram hakimiyyət uğrunda mübarizənin barış yolu ilə həll olunmasının yolunu açmaq üçün iti zəkasının, sarsılmaz cəsarətinin, uzaqgörənliyinin göstəricisi olan bir təklif irəli sürür, deyir ki, iki vəhşi, itipəncəli, acıqlı, ac, alovlu ağzından tüstü püskürən, nərildəyən şirin ortasına şahlıq tacı qoyulacaq, mərasim insanların gözü qarşında təşkil olunacaq, kim o şirlərin arasından tacı götürsə, İranın şahı sayılacaq;

- İranı idarə edənlər bu təklifi qəbul etmək məcburiyyətində qalırlar, belə ki, rədd etsələr, savaşmalıdırlar, savaşmaq imkanları da yoxdur, düşünürlər ki, tacı ilk olaraq Bəhram götürməlidir, bu zaman o, ölə bilər, hakimiyyət də onlara qalar;

- iyirmi iki yaşı yenicə tamamlanan Bəhram Gur iki azğın şirin başını ayaqları altında tutur, pəncələrini parçalayır, dişlərini qırır, öz başını və tacı xilas edir, şir olan Bəhram taxta oturur, tülkülər taxtdan yıxılırlar;

- İranın şahı olan qoca Bəhramı "bütün iqlimlərin şahı", "dünyanın şəhriyarı" adlandırır;

- din xadimləri ona "cahanın şahı" deyirlər;

- şahlar ona "şahlar şahı" adını qoyurlar;
- İranın siyasi, hərbi, dini elitası Bəhramın şahlığını qəbul edir - könüllü qərar verən də var, məcbur olan da;
- Bəhramın siyasi zəfərinin səbəbləri bunlardır: ağıllı, cəsarətli, iradəlidir, siyasəti, diplomatiyanı gözəl bilir, idarəçiliyi bacarır, hədəfi var, özünə güvənir, çalışqandır;

III "BƏHRAMIN ƏDALƏT XÜTBƏSİ" ADLI BÖLMƏNİN ŞƏRHİ

GİRİŞ

"Yeddi gözəl" məsnəvisinin "Bəhramın ədalət xütbəsi" alı bölməsi orijinalda da, tərcümədə də iyirmi iki beytdir. Bir fərq var ki, orijinal mətndə bu adda ayrıca bölmə yoxdur. "Bəhramın öz atasının yerində taxta əyləşməsi" adlı bölmə var, adını çəkdiyimiz hissə də bu fəslin içindədir.

Tərcümədə başlığa çıxarılmış "nitq" sözü də orijinalda yoxdur, onun yerinə "xütbə" qəlibi var. Bu söz mətnin məzmununa, Bəhramın dövründəki siyasi anlayışa, adət-ənənəyə uyğundur. Belə ki gələnəyə uyğun olaraq yeni şah xütbə oxuyur, hakimiyyətinin yol xəritəsini, idarəçiliyinin əsaslarını açıqlayır, xalqla ünsiyyət qururdu. Onu da bildirək ki, "xütbə" sözü ərəbcədir, "x-t-b" kökündəndir, "danışıq",  "gözəl danışma", "dini məzmunlu söhbət" (imam cümə günü, cümə namazında, namazdan öncə möminlərə xütbə oxuyur, onlara öyüd verir, gözəl danışığı olan da "xətib" adlanır) anlamlarını daşıyır.

Nizami niyə məhz "xütbə" sözünü seçmişdir? Səbəbləri sıralayaq: hər danışıq/nitq xütbə deyil, xütbə çox önəmli mövzuları / məsələləri əhatə edir, İranda çox önəmli, tarixi hadisə baş vermiş, zalım Yəzdigürd ölmüş, dövlət idarəçiliyində söz sahibi olan siyasi, dini, hərbi zümrə (elita) monarxiya idarəçilik sisteminin qanunlarını pozaraq hakimiyyət haqqı olmayan bir qocanı şah elan etmiş, Bəhram da hərbi, siyasi, diplomatiya gücünü birləşdirərək halal haqqı olan şahlığı geri almışdır, vəziyyətin yenidən dəyərləndirilməsinə ehtiyac var, xalq, keçmiş siyasi, dini, hərbi zümrə həyəcan içindədir, hər kəs yeni şahın - Bəhramın nə deyəcəyini, hansı addımları atacağını gözləyir, insanların çoxsaylı sualları var: Yəzdigürdün zülmü davam edəcəkmi? Bəhram verdiyi sözləri tutacaqmı? O, bağışlama, mərhəmət, ədalət, islahat, rifah yolunu seçəcək, yoxsa dar ağacları quracaq, qisas alacaq, zülm edəcək? Yoxsulluq, didişmə, parçalanma, nifrət, soyğunçuluq davam edəcəkmi? İran dövlətinin taleyi necə olacaq, zülm, qarışıqlıq nəticəsində dağılacaq, yoxsa ədalət və milli birliklə güclənəcək? Elə buna görə də Bəhramın proqramını, ölkənin inkişaf yolunu açıqlamasına ehtiyac var. Bu önəmli mesajları əhatə edən çıxışın adı da xütbədir, o, sıradan bir söz deyil, anlayışdır, içində siyasi, dini, hərbi, iqtisadi, mədəni, sosial anlamlar daşıyır. Nizami elə bir söz / anlayış seçmişdir ki, bu qəlib həm tarixi hadisə baş verdiyini, həm də çox önəmli, hər kəsi düşündürən mesajların olacağını ifadə edir.

Nizami "Bəhramın ədalət xütbəsi" deyir. Yeni məqamda Bəhram Gur qəlibindəki "gur" sözünü atır, onu "şah" kimi tanıdır. Bu təqdimat biçiminin seçilməsinin səbəblərini sıralayaq: artıq keçmiş bitmişdir, gur ovlayan, gününü məclislərdə keçirən Bəhram Gur yoxdur, öz siyasi kimliyini, ağıllı, cəsur, iradəli olduğunu, siyasət və diplomatiya bacarığını göstərmiş Bəhram şah var, gur sözünün ixtisarı siyasi anlam yüklənmişdir, bir dövrün bitib yeni bir dövrün başladığını ifadə edir, artıq gurları deyil, xalqın qəlbini ovlamağa ehtiyac var, gurları oxla, yayla, xalqın qəlbini ədalətlə ovlamaq olar, o, artıq İranın şahıdır, İranın siyasi, hərbi, dini təbəqəsi (elita) və xalqı onu şah kimi qəbul etmiş, üstəlik, Bəhramı "bütün iqlimlərin şahı", "dünyanın şəhriyarı", "cahan şahı" adlandırmışdır, o, indi bir dövlətin, xalqın siyasi lideridir, bu siyasi yükün anlamını ifadə edən adlandırma Bəhram Gur deyil, Bəhram şahdır, onun şah titulu sadəcə nəsildən gələn bir miras deyil, öz gücü ilə qazandığı siyasi kimlikdir, halal haqdır, mən şahlığı əməyimlə haqq etmişəm mesajıdır, sən şahlığı əməyinlə, siyasi, hərbi, diplomatiya imkanlarınla, ağıl, elm, iradə, cəsarət və gücünlə qazansan, xalq şahlığını qəbul edər, səni istəməyənlər belə razılaşmağa məcbur qalar, o, gerçək şahdır deyər.

"Bəhramın ədalət xütbəsi" başlığında "ədalət" sözü var. İranın şahı olan Bəhramın iyirmi iki beytlik ilk tanıtma xütbəsinin göbəyində ədalət anlayışı yer tutur, hər beyt, hər söz, hər məcaz, hər obraz bu anlayışın bir yönünü açıqlayır. Bəhramın İran xalqı, siyasi, hərbi, dini

çevrələrlə ilk üzbəüz təmasında ədalət anlayışını önə çıxarmasının, xütbəsini bu ölçüyə uyğun qurmasının səbəbləri var:

- "ədalət" ərəb sözüdür, "ayn-d-l" kökündəndir, ədalət hər kəsin, hər şeyin haqqını vermək, onları layiq olduğu yerdə tutmaq, hər varlıqdan ilahi təyinatına uyğun istifadə etməkdir, ziddi zülmdür, o da bir şeyi yerindən etməkdir;
- ədalət həm də siyasi anlayışdır, idarəçiliyin əsasıdır;
- dövlətin varlıq səbəbi ədaləti təmin etməkdir, bizdən öncəkilərin dediyi kimi, dövlətin imanı ədalətdir, bir dövlət inancsızlıqla deyil, zülmlə çökər;
- Bəhram xütbəsində ədalət anlayışını önə çıxararaq çoxyönlü mesajlar verir;
- ilk mesajı keçmişlə bağlıdır, o, atası Yəzdigürddən hər çeşid zülm görmüş İran xalqına deyir ki, artıq zülmün qaranlığı bitmiş, ədalət günəşi doğmuşdur;
- ey cəfakeş İran xalqı, Bəhram atasından fərqlidir;
- sizin ən çox ədalətə ehtiyacınız olduğunu bilirəm, onu təmin edəcəyəm;
- siyasi, iqtisadi, mədəni, dini zülmün kökünü kəsəcəyəm;
- Bəhram xalqla sağlam siyasi bağ qurmağın ən gözəl yolunun ədalət olduğunu bilir;
- İran xalqının güvənini qazanmaq, Bəhramla bağlı şübhələrini yox etmək, onları birləşdirmək, öz tərəfinə çəkmək istəyir;
- onlara ümid verir, ədalətin ən önəmli özəlliyi ümid, güvən verməsi, cəsarətləndirməsidir;
- deyir ki, ədalət ölkəmizə barış, mərhəmət, sevgi, güvən, bolluq gətirəcək, kini, düşmənliyi, yoxsulluğu, didişməni, nifrəti yox edəcək, hər birinizin haqqını qoruyacaq, milli birliyə yol açacaq, dövlətimizi gücləndirəcək, xalqla dövləti bir-birinə bağlayacaq, dövləti xalqın xidmətçisinə, qoruyucusuna çevirəcək;
- ey İran xalqı, bilin, yüzdə yüz əmin olun ki, Bəhram ədaləti təmin etmək üçün var;

Nizami Bəhramın ədalət xütbəsini "təptəzə dürr" (parlaq, canlı, diri) adlandırır, belə ki, dürrün əmələ gəlməsi çox ağrılı işdir, ədaləti təmin etmək də çox çətindir, ədalət dürr kimi səbir istəyən nemətdir, ədalət mənəvi nur qaynağıdır, dürr kimi parlaqdır, ədalət zülmün qaranlığını yox edir, ədalətin işi toplumu diriltməkdir, ədalət dürr kimi çox dəyərlidir...

"Yeddi gözəl" məsnəvisinin "Bəhramın ədalət xütbəsi" adlı iyirmi iki beytlik bölməsini bir neçə hissəyə ayıra bilərik:

- Bəhram öncə hakimiyyəti qazanmasını Allahın lütfü kimi dəyərləndirir (səbəblərini şərh zamanı sıralayacağıq);
- o, Allahın yardımı ilə əldə etdiyi hakimiyyət nemətinə görə Ona şükür edir;
- deyir ki, bu nemətin şükrü ölkəni ədalətlə idarə etməkdir;
- Allaha söz verir;
- bilir ki, Allahın rizasını qazanmağın yolu insanları razı salmaqdır;
- insanların qəlbini, dəstəyini, güvənini qazanmağın şərti də ədalətli olmaqdır;
- Bəhram ədaləti necə təmin edəcəyinin yollarını açıqlayır;
- deyir ki, məndən ancaq günahkarlar, oğrular, canilər, yolkəsənlər inciyəcək;
- işini bilən insanlarla işləyəcəyəm;
- hər kəsdən düzlük tələb edəcəyəm;
- işini yerinə yetirməyən cəzalanacaq;
- itaətim ancaq Allahadır, Onun buyruqlarını yerinə yetirəcəyəm;
- insanlara gözəl əməllərimlə ümid verəcəyəm;
- hər kəsin təhlükəsizliyi təmin olunacaq;
- işlər məsləhətlə yoluna qoyulacaq;
- ədaləti təmin etməyin nə dərəcədə çətin olduğunu bilirəm, kimsə iradəmi sındıra bilməz, dirənəcək, qalib gələcəyəm;
- Bəhram ədalətin təmin olunmasına qarşı çıxanlara bəddua edir: onlar sevinc görməsinlər;
- o, hər kəsə ədalət, hər kəsə mərhəmət, hər insana xidmət hərəkatına başlayacağına, bu yolla da hakimiyyət nemətinin şükrünü yerinə yetirəcəyinə inanır;

BİRİNCİ BEYTİN ŞƏRHİ:
TANRI VERƏN NEMƏT MÜBARƏK OLSUN!

گ   فت ک اف   سر خدای داد ب ه من
ا داد  شاد ب اد ب ه من ای ن خد

O dedi: "Tacı mənə Tanrı bəxş etdi,
Bu Tanrı verən nemət mənə mübarək olsun!

Bəhram iki vəhşi, itipəncəli, acıqlı, ac, ağzından alov çıxan, nərildəyən şirin arasından tacı götürdü, şahlıq haqqını geri qaytardı, təbrikləri qəbul etdi, heç ara vermədən ədalət xütbəsini söyləməyə başladı, bu hal bir sıra mesajlar verir: Bəhram baş verən hadisənin nə dərəcədə önəmli olduğunu bilir, İranda hakimiyyət dəyişir, hər an dəyərlidir, gecikmək olmaz, İran xalqı, başqa dövlətlər İranda baş verənləri diqqətlə izləyirlər, o dönəmdə İran dünyanın iki imperatorluğundan biridir, bu ölkədə baş verənlərin daxilə - xalqa, xaricə - dövlətlərə təsir gücü var, Bəhram vəziyyətə nəzarət etməlidir, bunun üçün gecikmədən proqramını açıqlamalı, xalqı öz ətrafında birləşdirməli, gücünü, İrana tam hakim olduğunu, dövlət (hakimiyyət) xalq birliyini göstərməlidir.

Nizami Bəhram üçün hər anın nə qədər önəmli olduğunu vurğulamaq məqsədi ilə birbaşa ədalət xütbəsinə keçir, ən qısa ifadə biçimini - "dedi" ("qoft") feilini seçir, "o dedi", "şah dedi", "Bəhram dedi", "ayağa qalxıb dedi", "xalqın hüzuruna çıxıb dedi", "insanlara təşəkkür etdi, sonra dedi" kimi vaxtı uzadan qəliblərdən imtina edir. Bu, həm də Bəhramın nə qədər ağıllı, hazırlıqlı, siyasət ustası olduğunu göstərir. Belə ki, o, ədalət xütbəsini hazırlamaq üçün vaxta, məsləhətçilərə ehtiyac duymur, məsələnin mahiyyətini dəqiq bilir, onu ən gözəl biçimdə ifadə etməyi də bacarır (Bəhram iranlıların məktubuna da vaxt ehtiyacı hiss etmədən birbaşa cavab vermişdi).

O bilir ki, İran tarixinin həlledici dönəmlərindən biridir, hakimiyyəti qazansa da, hələ xalqın qəlbini qazanmamışdır, atasının zülmü İran xalqını ondan uzaqlaşdırmışdır, bu önəmli vaxtda İran xalqının könlünü fəth etməli, onu öz ətrafında birləşdirib gücünü göstərməli, İrana tam hakim olmalı, fürsət gözləyən düşmənlərinin baş qaldırmasına imkan verməməlidir. İran xalqının könlünü fəth etməyin də tək bir yolu var, o da ədalətdir. Elə bu ehtiyaca görə də gecikmədən ədalət xütbəsini xalqa təqdim etməlidir.

"Dedi" feilindən sonra "ke" / "ki" bağlayıcısı var, Nizami hər anın önəmini göstərmək üçün bu bağlayıcının "e" hərfini atmış, onu özündən sonrakı sözə birləşdirmişdir.

Bəhram dedi ki, tacı mənə Tanrı bəxş etdi. Orijinalda "əfsər" sözü var, tac mənasını daşıyır. Hökmdarların maddi hakimiyyət simvollarından biri də tacdır. Tac anlamını ifadə edən bu sözlərdən də istifadə olunmuşdur: "dihim", "əfsər", "külah", "börk", "imamə", "isabə", "dəstərçə" (fərqli məqamlara görə, hala uyğun tac biçimləri seçilmişdir).

Nizami Bəhram dönəmində İran hakimiyyət gələnəyinə uyğun olan "əfsər" sözünü seçmiş, tarixi o tarixə bağlı anlayışlarla tanıtmışdır.

Bəhram ədalət xütbəsini - siyasi proqramını açıqlamazdan öncə, ya da xütbənin başlanğıcında İran xalqına, dövlətin siyasi, dini, hərbi zümrəsinə, öz əsgərlərinə təşəkkür etmək ehtiyacı hiss etmir, belə ki, onların Bəhramın hakimiyyət haqqını geri almasında əməyi yoxdur: İran xalqı onu tələb etməyib, əksinə, atasının zülmünə görə ona qarşı olub, İranın siyasi, dini, hərbi seçkin zümrəsi öncə onun hakimiyyət haqqını əlindən alıb, sonra da Bəhramın hakimiyyətə gəlməməsi üçün bacardığı hər şeyi edib, öz ordusu da onun hakimiyyəti uğrunda savaşmayıb - savaşa ehtiyac olmayıb, məsələ diplomatik yolla həll edilib. Bəhramın anlayışı - inancı budur ki, zəfərin qazanılması iki yolla gerçəkləşib: a) Allah yardım edib; b) Bəhramın ağlı, cəsarəti, iradəsi, siyasət və diplomatiya bacarığı hakimiyyətə gedən yolu açıb; Bəhram monarxiya sisteminə uyğun siyasi liderdir, o, zəfərinə Allahdan başqa kimsəni ortaq etməz, bunu liderlik anlayışına yaraşdırmaz.

Nizami də birinci beyti - ədalət xütbəsinin başlanğıcını Bəhramın zəfərinə yol açan bu iki anlayışa görə qurub, söz seçimini bu ideyaya uyğunlaşdırıb. "Dedi", "ke", "əfsər" / "tac"

qəliblərindən sonra "Xuda" - "Xoda" sözü gəlir, bu söz Allah adının deyil, əl-İlah adının qarşılığıdır. Allah sözünün heç bir dildə qarşılığı yoxdur, türk dilindəki Tanrı sözü də Allah adının deyil, əl-İlah adının qarşılığıdır. Allah əl-İlahdır, ibadətə layiq tək məbuddur. Bəhram deyir ki, əfsəri/tacı mənə Xuda verdi. O, ədalət xütbəsinin başlanğıcında niyə Allahı yada salır, Onun haqqını təslim etmək zərurəti hiss edir. Səbəbləri sıralayaq:

Birincisi, Allaha inanır, iranlılara yazdığı cavab məktubunun başlanğıcında bunu açıqca ifadə edir, bu sözlərə yer verir: "Ata (Yəzdigürd) allahlıq iddia etsə də, Mən Allahı sevirəm, Onun ölçüləri ilə tərbiyələnmişəm".

İkincisi, monarxiya sistemini quranlar inanır, xalqı da inandırırlar ki, onların hakimiyyətinin qaynağı Allahdır, Allah insanlar arasından onları seçib. Onun seçdiyindən başqa kimsənin hakimiyyət haqqı yoxdur, hakimiyyət seçilmiş ailənin ortaq malıdır, atadan oğula keçir, onlara qarşı çıxmaq Allaha qarşı çıxmaqdır.

Üçüncüsü, Bəhram xütbəsinin ilk addımında hakimiyyətinin qaynağı Xudadır fikrini mərkəzə qoymaq, özəl vurğulamaq üçün bir beytdə iki dəfə Xuda sözünə yer verir, hər misraya Xuda sözünü yerləşdirir. Ancaq burada da incə bir məqam var, bu, tərcümədə nəzərə alınmayıb. Belə ki "Xoda" sözü birinci misrada "Xodai", ikinci misrada isə "Xoda" biçimindədir. "Xoda" sözünün sonundakı "yə" hərfi müəyyənlik artiklı rolunu oynayır, "Xoda" sözünə o Allah ki, hakimiyyəti bizim nəslə verən, bizi seçən, mənə də zəfər bəxş edən Allah anlamlarını yükləyir, deyir ki, Onun seçdiyinin qarşısında kimsə dura bilməz, ey İran xalqı, ey dostlar və düşmənlər, bilin ki, bu gün İranın şahı Allahın seçdiyi Bəhramdır.

Dördüncüsü, Bəhram Xuda/Xoda özünə iki dəfə yer verdi, məni Allah seçdi fikrini mərkəzə yerləşdirdi ki, dindar İran xalqı ilə, ciddi təsir gücü olan din xadimləri ilə könül bağı qura bilsin, onları öz tərəfinə çəksin, mən də sizdənəm, eyni dinə mənsubluq (zərdüştlük), eyni Allaha inanırıq.

Beşincisi, Bəhram bu yolla həm də onu deyir ki, mənə qarşı çıxan Allaha qarşı çıxmış olacaq, bunun da cəzası çox ağırdır.

Altıncısı, Allah inancının önə çıxarılması Bəhramın ədalət vədinin təminatıdır. Belə ki, monarxiyada hakimiyyət bir şəxsin əlində cəmlənir, şaha nəzarət imkanı yoxdur. Bir nəzarətçi qalır, O da Allahdır, yəni ey İran xalqı, Allahı şahid tutaraq söz verirəm ki, ədalətli olacağam, mənə inana, güvənə bilərsiniz.

Yeddincisi, Allah inancının önə çıxarılması Ona dillə şükrün ifadə biçimidir, əməli şükrün təsdiqi isə ədaləti təmin etməklə gerçəkləşəcək.

Səkkizincisi, Bəhram deyir ki, əfsəri/tacı mənə Allah verdi. Allah hakimiyyəti necə verir? Bu ölçünü necə anlamalıyıq? Sıralayaq:

- Allahın zəfər qanunu var, bu ilahi zəfər yazılımının ölçüləri dəyişməz;
- Allahın təsadüf adlı qanunu yoxdur;
- O, heç kimə heç nəyi təsadüfən verməz, hər şeyi bir ölçüyə bağlayar;
- qanunları əsla dəyişməz;
- Onun qanunlarına əməl edən uğur qazanar;
- Allahın zəfər qanununun içində bunlar var: ağıl nemətindən doğru istifadə et, çox çalış, peşəkar ordu hazırla, onu maddi, mənəvi dəyərlərlə silahlandır, hərb elmini öyrən, orduya layiq olanı lider seç, düşmənini tanı, cəsur, iradəli ol, siyasət və diplomatiyanı dərindən öyrən, zəfəri Allahdan bil - səndən hərəkət, Ondan bərəkət, Allaha dua et, savaş zamanı və zəfər qazananda həddi aşma, zəfər sərxoşu olma, məğlub tərəfə zülm etmə;
- zəfəri özündən bilsən, onun köləsi olacaqsan, nəticədə, Allahın məğlubiyyət qanunu işə düşəcək, təkəbbür məğlubiyyətə yol açacaq, zəfər əldən gedəcək, həlak olacaqsan;

Deyə bilərik ki, Bəhram Allahın zəfər qanununun bütün şərtlərinə əməl etmiş, Allah da ona hakimiyyət vermişdir. Allah haqq edənə verər. Onun verdiyi hakimiyyət nemətinin davamı ədalətlə mümkündür, bu da ilahi qanundur. Zülm ortaya çıxsa, nemət əldən gedər, bu da Allahın qoyduğu ölçüdür.

Dedik ki, Bəhram ədalət xütbəsinin ilk beytində (başlanğıcında) Allahı və özünü önə çıxarır, deyir ki, hakimiyyəti (zəfəri) verən Allahdır, O, Bəhramı seçdi, onu bu nemətə layiq gördü, siz də Allahın seçdiyini qəbul etməlisiniz. O, seçilmiş Bəhram tezisini vurğulamaq üçün iki yoldan yararlanır: a) mən əvəzliyini "mənə" ("be mən") biçimində iki dəfə işlədir, hər misraya yerləşdirir, birinci misrada Xoda/Xuda, O Xuda ki, seçim Ona aiddir, O, tacı-əfsəri mənə (kimsəyə deyil, məhz mənə) verdi, ikinci misrada isə Xudanın verdiyi (hakimiyyətin gerçək qaynağını yenə vurğulayır) bu nemət mənə (məhz mənə) mübarək olsun mənalarını yüklənir; b) "mənə" ("be mən") qəlibini açıq görünən, yadda qalan, mesaj verən yerə-rədif mövqeyinə yerləşdirir; "Be mən" ("mənə") vurğusunun təkrarı sevinci, gücü, haqq etməyi, qüruru, eləcə də seçilmişliyin, şahlığın verdiyi təkəbbürü ifadə edir.

Bəhram Allahın verdiyi hakimiyyət mənə mübarək olsun deyir, mübarəkdir demir, "mübarək olsun" dua, şükür qəlibidir, gələcəklə bağlı arzudur. "Mübarək" sözü ilə "bərəkət" sözü ərəbcədir, eyni kökdəndir, bir şeyin mübarək/bərəkətli olması içində üç məna daşıyır: a) xeyirlidir (zərərli, haram, şər olan şeylərə mübarək olsun deyilməz), hakimiyyət çox böyük, xeyirli nemətdir, təyinatına uyğun istifadə olunsa, insanlara çox xeyir verər; b) çoxdur - bərəkətli/mübarək olan nemət çox olandır, hamıya aiddir, ondan hamıya pay çatar, hakimiyyət elə deyilmi?; c) davamlıdır - bərəkətli olan davamlı olandır, bir ana, dönəmə bağlı deyil;

Allahın Bəhrama verdiyi hakimiyyət nemətinin mübarək olması (o, mübarək olsun deyir) nəyə bağlıdır? Cavab birmənalıdır, ədalətə. Hakimiyyət neməti ədaləti təmin etsə, ədalətlə mayalansa, mübarək olacaq. Ədalət nemətə bərəkət verir, zülm nemətin bərəkətini yox edir.

İKİNCİ BEYTİN ŞƏRHİ:

ALLAHA ŞÜKÜR OLSUN!

آف ریِ ن و  سِ پاس بِ ر خدا خوانِ م

کِ اف ریِ ن بِ ادِ بِ ر خدای شِ ناس

Tanrıya şükür və alqışlar olsun!
Tanrını tanıyana afərin olsun!

Bəhram hakimiyyət nemətinin sahibi Allahdır (ancaq bir tək Odur), O, bu neməti məhz mənə verdi, məni seçdi ölçüsünü gündəmdə tutur, fərqli biçimlərdə təkrar edir ki, məsələ yaxşıca, doğru anlaşılsın, İran xalqı bu fikri qəbul etsin, nəticədə, Bəhramla xalqın ünsiyyəti qurulsun, xalq ona inansın, arxasınca getsin.

Beytdə hakimiyyəti mənə Allah verdi ölçüsü bu yollarla təqdim olunmuşdur:

Birincisi, Xoda / Xuda sözünə iki dəfə yer verilmiş, bu qəlib hər misraya yerləşdirilmişdir, birincisi Xoda, ikincisi Xodai (tanınan, bilinən, o Xoda ki, hakimiyyətin qaynağıdır və bu neməti mənə verdi) biçimindədir.

İkincisi, beyt Allaha şükür ifadə edən sözlərlə doludur: "afərin" sözünə iki dəfə, "sepas" sözünə bir dəfə yer verilmişdir. "Afərin" sözü "afərin oxuyuram", "afərin olsun", "sepas" sözü isə "sepas oxuyuram" biçimindədir. "Afərin" sözü bu mənaları əhatə edir: şükür, tərif, alqış, sevinc. "Allaha afərin oxuyuram", yəni Ona şükür edirəm, Ona borclu olduğumu bildirirəm, Onun qulu olmaqdan qürur duyuram, bunu özümə şərəf sayıram. Bu, nemətə görə şükrün dillə ifadəsidir, saleh əməllə ifadə biçimi də var, irəlidə görəcəyik. "Sepas" sözü də mətndə Allaha şükrü ifadə edir, içində bu mənaları daşıyır: təşəkkür, razılıq, məmnunluq. "Sepas oxuyuram" (hərfi tərcümə), yəni Allahımdan çox razıyam, hər şeyimi Ona borcluyam, Onu nemətin sahibi kimi tanıyıram.

Üçüncüsü, Bəhram "afərin olsun" qəlibini Tanrını tanıyana aid edir. O, "Tanrını tanıyanlara" demir, "Tanrını tanıyana" deyir, özünü nəzərdə tutur. Yəni ikinci beytdə də Allah və mən vurğusu var. Mənə də afərin olsun, halal olsun. Birinci misradakı "afərin" sözü Allaha bağlıdır, şükür mənasını daşıyır, şükür ancaq Allaha aiddir - nemətin sahibi də, o neməti verən də Allahdır. İkinci afərin sözü Bəhrama aiddir, şükür mənası daşımır, daşımaz, belə ki, insana şükür edilməz, ona görə də ikinci misrada "afərin olsun" ("afərin bad") biçimində olan bu qəlib yaşa, var ol, halal olsun anlamlarını yüklənir.

Dördüncüsü, o, Tanrını tanıyana afərin olsun deyərkən, özünü nəzərdə tutarkən "Xodai" qəlibini seçir, "Xoda" sözünə müəyyənlik əlaməti artırır, yəni O Tanrıya ki, o bildiyim, tanıdığım, inandığım, sevdiyim, itaət etdiyim Tanrıya ki, hakimiyyət nemətinin sahibidir və o neməti mənə verdi.

Beşincisi, iki misra arasında "ke"/"ki" bağlayıcısı var, misraları formaca, məzmunca bir-birinə bağlayır. Bu mənanı ortaya çıxarır: Allahı tanımaq bütün nemətlərin, o sıradan hakimiyyətin sahibinin Allah olduğunu bilməkdir, neməti verən də Odur, Allahı tanımaq Onun buyurduğu kimi yaşamaqdır, Onu tanıyan (elm) Onu sevər, Onu sevən Ona iman edər, Ona iman edən Onun buyurduğu kimi yaşayar. Bəhram niyə özünə afərin olsun deyir? Bu, Allaha kim şükür edər sualının cavabıdır. Allahı haqqı ilə tanıyan Ona şükür edər, Ondan razı olar. Bəhrama ona görə afərin olsun, halal olsun ki, o, Allahı haqqı ilə (doğru) tanımış, ona verilən hakimiyyət nemətinin sahibinin Allah olduğuna ağıl və qəlbinin bütün gücü ilə inanmış, bunu dili ilə ifadə etmiş, ədalət əməli ilə dəstəkləyəcəyinə söz vermişdir. Şükrün anlamı da budur: nemətlərin sahibini tanı, onlardan təyinatına uyğun istifadə et.

Altıncısı, Bəhram mən vurğusunu bu biçimlərdə ifadə edir: a) beytin birinci misrasının tərcüməsi doğru deyil, tərcümə belədir: "Tanrıya şükür və alqışlar olsun!" Burada Allah və Bəhram (mən) ölçüsünə uyğunsuzluq var. Orijinal mətn belədir: "Allaha şükür və alqış edirəm / Allaha afərin deyir, razılıq edirəm". "Xanəm" (oxuyuram) feilinin sonundakı şəxs sonluğu məni önə çıxarır, qeyri-müəyyənlik yoxdur, şükür edən mənəm, belə ki, hakimiyyət nemətinin sahibi onu məhz mənə vermişdir; b) ikinci mən vurğusu da Tanrını tanıyana - Bəhrama afərin olsun cümləsi ilə ifadə olunmuşdur, Tanrını tanıyan da, tanıdığıma görə şükür edən də mənəm.

Yeddincisi, ədalət xütbəsindəki Allah və mən vurğusu dəyişim, dönüşüm, qorxu, qeyri-müəyyənlik halı yaşayan İran xalqına nə deyir? Deyir ki, Allahın seçdiyi Bəhrama inanın, güvənin, onun ətrafında birləşin, o, sizi zülmün qaranlığından ədalətin nuruna çıxaracaq.

ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ:

NEMƏTƏ ARXA ÇEVİRMƏRƏM!

پ  شت بـ ر نـ عمت خدا نـ کـ نم

شـ کر نـ عمت کـ  نم چرا نـ کـ نم

Tanrının nemətinə arxamı çevirmərəm,
Onun nemətinə görə şükür edirəm, niyə etməyim?

Bəhram nemətlərin, o sıradan hakimiyyət nemətinin sahibi Allahdır, O, məni seçdi, neməti məhz mənə verdi fikrini, Allah və mən ölçüsünü tanıtmağa, İran xalqının düşüncəsinə yerləşdirməyə, bu yolla da xalqı öz ətrafında birləşdirmək imkanları formalaşdırmağa davam edir. Bu ölçüdə Allah yaradıcı, hər şeyin sahibi, Bəhram isə Onun qulu statusundadır. Üç beytdə beş "Xoda"/"Xuda", altı "mən" sözü fərqli biçimlərdə (Xoda, Xodai, mən, şəxs sonluğu) işlədilmişdir.

Bəhram hakimiyyəti nemət kimi dəyərləndirir. "Nemət" sözü ərəbcədir, "yumşaq olmaq", "parlaq", "gözəl olmaq", "rifah içində yaşamaq", "sevinmək" kimi anlamlar daşıyan "nam" sözündən törəmişdir, bu mənaları var:

- "lütf edilən şey";
- "nemət";
- "yaxşı vəziyyət";
- "yaxşılıq";
- "gözəl";

Qurani-Kərimdə "nemət" sözünə cəmi ilə birlikdə əlli dəfə yer verilmiş, daha çox "Allahın neməti" biçimində işlədilmişdir. Allah buyurur:

- Onun kitab göndərməsi nemətdir;
- Allahın iki qəbilə arasındakı düşmənliyi dostluğa çevirməsi nemətdir;
- insana lütf edilən hər şey nemətdir;
- Onun nemətləri saysız-hesabsızdır;
- nemətlərin maddi, mənəvi olanları var;

- Allahın açıq, gizli nemətləri var;
- din nemətdir;
- Allahın ehsan etdiyi hər şey nemətdir;
- nemət verilməmiş insan, canlı, cansız varlıq yoxdur;

Bəhram hakimiyyətin nemət olduğunu söylədi, ancaq bu neməti Allahdan ayırmadı, Allahın neməti dedi, bu yolla mesajlar verdi:

- bütün nemətlər, o sıradan hakimiyyət neməti çox dəyərlidir;
- nemətləri yaradan Allahdır;
- nemətlərin sahibi Odur;
- O, nemətləri hər an yaradır, bütün qullarına paylayır;
- bəzi nemətlərini seçdiyi qullarına verir, bu, onları çox sevdiyi, ya da sevmədiyi anlamına gəlmir, O, bir sıra qullarını da hakimiyyətlə sınayır;
- o, "nemət" sözünə iki dəfə yer verir, onun dəyərini önə çıxarır, təkrar önəmi, sevinci ifadə edir - insan sevdiyinin adını dilindən düşürməz;

Bəhram Allahın ona verdiyi nemət qarşısında tutumunu ifadə edir, qətilik bildirən frazeoloji birləşmədən yararlanır, məcaz seçir ki, sözü daha təsirli olsun, Allaha verdiyi vədi yerinə yetirəcəyinə, sədaqətinə hər kəs inansın. Elə buna görə də Allahın nemətinə əsla arxa çevirmərəm deyir, nankor, xain olmayacağını vurğulayır. Bu ölçünü önə çıxarır: hər nemətin şükrü var (şükür istəyir), bu nemətlərin şükrü öz cinsindəndir, məsələn, insan olaraq yaradılmağın şükrü Allaha təslim olmaqdır, ağlın şükrü düşünmək, qəlbin şükrü iman, vicdanın şükrü mərhəmət, iradənin şükrü doğrunu seçməkdir, o halda, Allahın hakimiyyət nemətinin şükrü nədir? Ədalətli, mərhəmətli olmaqdır, insana xidmətdir, hakimiyyətin vəzifəsi ədaləti təmin etməkdir. Hakimiyyət nemətinin şükrü yerinə yetirilsə, nə olacaq? Nemət artacaq, davam edəcək, bərəkəti çoxaldacaq, ədalət ölkəyə ümid, barış, rifah gətirəcək. Allahın hakimiyyət nemətinə arxa çevirsən, nankor, xain olsan, hansı nəticələr ortaya çıxacaq? Öncə onu deyək ki, hakimiyyət nemətinə nankorluq etmək onu zülm vasitəsinə çevirməkdir. Bu halda, ölkədə nizam pozulacaq, yoxsulluq, didişmə, parçalanma, üsyan olacaq, zorakılıq, yalan, qorxu, cəhalət, saxtakarlıq meydan sulayacaq. Nəticədə, hakimiyyət neməti geri alınacaq.

Nizami "Yeddi gözəl" məsnəvisində nemətə şükür etməməyin nəticələrini bu ölçülərlə açıqlamışdır: "...Allahın yaratdığı insanlar nemətə görə Ona şükür etmədikləri zaman bolluq onlar üçün darlığa çevrilər, onlar ruzilərini daşdan, dəmirdən çıxararlar".

Bəhram məsələni ikiyönlü (inkar-təsdiq) izah edir ki, mesajları doğru anlaşılsın. Öncə Allahın hakimiyyət nemətinə arxa çevirmərəm dedi, nankorluğu rədd etdi. İndi də Allahın hakimiyyət nemətinə münasibətdə nə edəcəyini (təsdiq) açıqlayır, yanlışın yerinə doğrunu qoyur, şükrün dəyərini önə çıxarır. Bu vasitələri seçir:

Birincisi, beytdə fərqli biçimlərdə üç "etmək" ("kərdən") feili var, ikisi inkarda, biri təsdiqdədir, bu feillər şükrü borc, vəzifə, Allaha itaət kimi tanıdır. Öncə Allahın nemətinə nankorluq etmərəm deyir, bunun imkansız olduğunu söyləyir, sonra ilahi nemətə şükür edərəm/etməliyəm, mənim işim, borcum, vəzifəm budur ölçüsünü açıqlayır, hakimiyyət nemətinin qarşılığı ancaq şükür olmalıdır, ağıllı insan bunu edər demiş olar, ey İran xalqı, Bəhrama yaraşan budur, o, şükrü seçmişdir.

İkincisi, Bəhramın nitqində "demək" deyil, "etmək" feili var, demək sözdür, etmək hərəkət, iş, əməldir. Öncəki beytdə şükrün dillə ifadəsi var idi (dilin şükrü): "Xudaya şükür olsun!" Bu beytdə isə şükrün əməli yönü açıqlanır: "nemətə şükür edərəm". Öncəki beytdə oxumaq/dillə söyləmək feili var, bu beytdə isə etmək feili seçilmişdir. Yəni nemətə şükrümü işimlə ortaya qoyacağam. Bu belə olacaq: birinci misrada "etmək" feili inkardadır, deyir ki, Allahın nemətini inkar etməyəcəyəm/ arxa çevirməyəcəyəm. Bu inkarın əməli yönü necə olacaq? Bəhram hakimiyyət nemətini zülm vasitəsinə çevirməyəcək. İkinci misradakı "etmək" feili təsdiqdədir: nemətə şükür etməliyəm. Bu təsdiq feilinin əməli yönü necə olacaq? Bəhram şükrünü ədaləti ilə gerçəkləşdirəcək. Bəhramın sözü ilə əməli birləşəcək, nəticədə, xalq ona inanacaq, ətrafında birləşəcək, ölkəyə barış, rifah, hüzur gələcək, onun hakimiyyəti davamlı olacaq.

Üçüncüsü, Bəhram bədii sual seçir niyə/niyə də etməyim deyir, sözünün təsir, inandırma gücünü artırır, nemətə şükrün önəmini vurğulayır, şükürdən başqa çıxış yolu qoymur, hakimiyyət nemətinin şükrünü bir yolla yerinə yetirmək olar: o da ədalətdir. Nemətə şükür etməliyəm, niyə etməməliyəm ki? Mənim borcum, işim, vəzifəm bu deyilmi?

Dördüncüsü, Bəhram şükür anlayışına tərif verir (mənasını açıqlayır): deyir ki, sözlü, əməli şükür var, şükür nemətin Allahdan olduğunu bilmək, ondan ilahi təyinatına uyğun istifadə etməkdir. Şükür düşüncədə başlayır (neməti, onun sahibi Allahı tanı-tanımayan şükür etməz), düşüncədən dilə axır-şükrü dillə söylə, əməldə bitir - hər saleh əməl şükürdür. Nankorluq nemətə, onun sahibinə xəyanətdir, nəticəsi nemətin geri alınmasıdır. Şükür nemətə, onun sahibinə sədaqətdir, nəticəsi nemətin davamlı olması, artması, bərəkətlənməsidir. Zülm Allaha nankorluq, xəyanət, ədalət isə şükür, sədaqətdir.

DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ:
ZƏFƏR ALLAHDANDIR

ﺷ ﻴﺮ ﺩﻭ ﮐ ﺎﻡ ﺯ ﺑ ﺮﺩﺍ ﺷ ﺘﻦ ﺗ ﺎﺝ
ﺷﻤ ﺸ ﻴﺮ ﺍﺯ ﻧ ﻪ ﺁﻥ ﺩﺍﻧ ﻢ ﺧﺪﺍ ﺍﺯ

İki şirin arasından tac götürməyi,
Tanrıdan bilirəm, qılıncımın (gücündən) yox.

Bəhram önсəki üç beytdə şərti desək, zəfərinin nəzəri hissəsini açıqladı, bu anlayışların izahını verdi:

- hər şeyin, o sıradan hakimiyyətin sahibi Allahdır;
- seçilmişlik - O, məni seçdi, haqq edən seçilər;
- nemət - hakimiyyət ilahi nemətdir;
- şükür - hakimiyyət nemətinin şükrü ədalət, mərhəmət, insana xidmətdir;
- Allahı tanımaq - tanıyan şükür edər;
- Allah və qulu - O, yaradan, Bəhram Onun quludur;

Bəhram bu anlayışlarla İran xalqına deyir ki, hakimiyyətin qaynağı olan Allah onu seçdi, hakimiyyəti ona verdi, siz Bəhramı qəbul edin, ona inanın, əmin olun ki, o, sıxıntılarınızı həll edəcək.

Bəhram (o, adını çəkmir, adını Allahın adının yanına qoymağı doğru saymır, layiq bilmir, sadəcə mən deyir) ədalət xütbəsinin bu beytindən başlayaraq ilahi yardımı əyani vasitə ilə izah edir ki, mesaj doğru anlaşılsın. Bu məqsədlə ən önəmli hadisəni seçir, keçmişindən danışmır, belə ki, İran xalqı onun keçmişinə şahid olmayıb, onun keçmişində ilahi yardımı izah edəcək elə bir hadisə də yoxdur, onun keçmişində baş verənlər İran xalqının bu gün və gələcəyinə təsir imkanından məhrumdur. Elə buna görə də Bəhram ilahi yardımı açıq ifadə edən hadisəni seçir. Bu hadisə onun siyasi taleyini həll etmişdir, o, tacı iki azğın şirin arasından götürmüşdür. Mesajları sıralayaq:

- İran xalqı bu qeyri-adi hadisəyə şahid olmuş, inanmışdı ki, Allahın yardımı olmadan əliyalın insan oğlu bu iki vəhşi, itipəncəli, ac, acıqlı, ağzından alov çıxan, tüstü püskürən, nərildəyən şirin arasından tacı götürə bilməz. Yəni bu hadisə Allahın Bəhrama yardımının inandırıcı, açıq dəlilidir;
- Bəhram hakimiyyət simvolu olan "tac" sözünü seçir (öncə "əfsər" sözünə yer vermişdi). O, Allahın yardımını, onu seçməsini vurğulamaq üçün "iki şirin arasından tacı götürməyimi" demir, götürməyi deyir, öz rolunu sıfırlayır, ancaq və ancaq ilahi yardımın bilinməsini istəyir, O, istəməsə idi, bu iş olmazdı;
- o, bu iş ilahi yardımsız olmaz fikrini bildirmək üçün hadisəni böyüdür, məcazi danışır, təsiri artırır, nə dərəcədə çətin bir iş olduğunu göstərir. Bu məqsədlə "kam" sözünə yer verir, bu sözün "ağız" mənası var, bir mənası da arzu, istəkdir. Tərcümədə ciddi yanlışlığa yol verilib, nəticədə, məna çox zəifləyib. Belə ki, Bəhram iki şirin arasından tac götürmək demir, iki şirin ağzından tac götürmək deyir. Bu məcazi ifadə biçimi həm tac götürməyin çətinliyini, həm də

ilahi yardımın böyüklüyünü daha güclü ifadə edir. İran xalqına deyir, onları düşündürür ki, sizcə, Allahın yardımı olmasa idi, Bəhram iki azğın şirin ağzından tacı götürə bilərdimi?;

- Bəhram Allahın yardımını əyani göstərdikdən sonra İran xalqının düşüncəsini yönləndirir, deyir ki, bunu Xudadan bilirəm;

- o, ilahi yardımı mərkəzə qoymaq, onsuz bu iş olmazdı ölçüsünü önə çıxarmaq, İran xalqının məsələləri bu cür qavramasını təmin etmək üçün bir addım da atır, deyir ki, bu işi qılıncımdan bilmirəm/qılıncımdan deyil, Xudadan bilirəm. Beytdə "şəmşir" sözü var, gücün, savaşın, cəsarətin simvoludur. Bəhram bu simvol vasitəsi ilə İran xalqına deyir ki, siz də gördünüz, məsələni qılıncla həll etmədim, əlimdə qılınc yox idi, ya da bu mənanı da çıxara bilərik, hakimiyyət haqqımı ordunun gücü ilə geri almadım, Allahın yardımı olmasa idi, qılıncsız, savaşsız, ordusuz hakimiyyət haqqını geri almaq mümkün olardımı?;

- ikinci misrada "onu" deyir, iki şirin ağzından tacı götürməyə işarə edir, barmağını bir daha o qeyri-adi hadisəyə tuşlayır, bu işin Allahın yardımı ilə olduğunu vurğulayır. Allah Bəhrama necə yardım etdi? O, zəngin ailədə, şah ailəsində doğuldu, Allah ona iti ağıl verdi, seçmə müəllimləri oldu, üç dil öyrəndi, elmləri, o sıradan hakimiyyət, siyasət, diplomatiya, savaş elmini dərindən öyrənmək üçün çox çalışdı, ağlından doğru istifadə imkanlarını, düşünmə qabiliyyətini artırdı, iradəsini gücləndirdi, Allah ona cəsarət bəxş etdi, Allahın zəfər qanunun şərtlərini yerinə yetirdi, güclü ordu hazırladı, diplomatiyasının arxasına hərbi gücü qoydu, ancaq iranlılarla savaşdan imtina etdi, gözəl plan qurdu, planını İranının idarəçilərinə qəbul etdirdi, iki şirin ağzından tacı götürdü, bu yolla İran xalqını heyrətə gətirdi, onu inanmağa, qəbul etməyə məcbur etdi, məsələni qan tökmədən, ölkəni xaraba qoymadan həll etməsi ona rəğbət və hörməti artırdı, bəli, bu işi Allah etdi, dedirtdi;

- Bəhramın zəfər Allahdandır, O, ilahi zəfər qanununa əməl edəni seçər ölçüsünü bu biçimdə, israrla, bədii, təsirli dillə vurğulamasının səbəbi İran xalqı ilə ünsiyyət qurmaq, onları öz ətrafında birləşdirmək, ümid, güvən verməkdir. Bəhramı Allahın seçdiyinə inanan xalq onun ardınca gedər, əmin olar ki, onun sıxıntılarını Allahın seçdiyi həll edəcək. Bəhram lideri olduğu İran xalqını qılıncın, zorun, qorxunun, həbsxananın, ölümün gücü ilə deyil, imanın və ədalətin gücü ilə özünə tabe etmək istəyir. Nizaminin də idealı budur: ey hökmdarlar, xalqla aranıza qılıncı deyil, ədaləti qoyun;

BEŞİNCİ BEYTİN ŞƏRHİ:

ONUN XOŞUNA GƏLƏCƏK İŞLƏR GÖRƏCƏYƏM

بـ لندت اج و ت خت بـ ه ر س يدم چون
پـ سند خدای ک نم ک ارهائ ی

Mən uca taxt və taca yetişərək,
(Yalnız) Tanrının xoşuna gələcək işlər görəcəyəm.

Bəhram ədalət xütbəsinin nəzəri hissəsini bitirdi. Bu bölmədə üç addım atdı: a) Allahı tanıtdı, gerçək hakimiyyət Onundur dedi; b) hakimiyyət, nemət, şükür, ilahi yardım anlayışlarını izah etdi - insan ağlı belə düşünür: təsəvvür anlayışlarla çalışır, anlayışların mənası doğru olanda təsəvvür də doğru olur, təsəvvür bizim hadisələr, əşyalar, varlıqlarla bağlı bilgimizdir, təsəvvür bu bilgiləri ağıla ötürür, təsəvvür doğru olanda ağıl da doğru qərar verir, ağılın qərarı əxlaqa, əxlaq da davranışa yön verir. Sıralama belədir: anlayış-təsəvvür-ağıl-əxlaq-davranış. Davranışı dəyişmək istəyən anlayışı dəyişməyə məcburdur, anlayış dəyişməsə, davranış dəyişməz. İran xalqının Bəhramla bağlı təsəvvürü necədir? O, zalım Yəzdigürdün oğludur, ərəb tərbiyəsi ilə böyüyüb, gəncdir, idarəçiliyi bilmir, o da atası kimi bizə zülm edəcək, hərbi gücü var, siyasətdə təsadüfi adamdır, şübhəmiz, tərəddüdümüz var, qorxuruq, sıxıntıların altında əzilirik, ümidsiz və çarəsizlik. Bəhram hakimiyyət haqqını geri alsa da, daha çətin bir sıxıntı ilə üz-üzədir. Bu sıxıntı mənəvidir, onun hakimiyyətə tam yiyələnməsinə, iqtidarının davamlı olmasına mane olur. Bu ciddi sıxıntının adı İran xalqının onunla bağlı təsəvvürü, anlayışıdır. Bu mənəvi, fikri, ruhi direnişi qırmaq şərtdir, yoxsa İran xalqının qəlbini fəth etmək imkansız olacaq. Elə buna görə də Bəhram işə doğru yerdən başlayır, hakimiyyətlə bağlı təməl anlayışları bir-bir izah edir, İran xalqının yanlış anlayışını silir, yerinə yenisini qoyur: İran xalqının o, hakimiyyəti ələ keçirdi

fikrinin yerinə hakimiyyət Allahındır anlayışını qoyur, məni Allah seçmişdir deyir, Allahın seçdiyi təsadüf olmaz - Onun təsadüf adlı qanunu yoxdur, Onun seçdiyi sizə zülm etməz. Bu iki tezis (anlayış) İran xalqının təsəvvüründəki şübhəni, qorxunu, çarəsizliyi yox edir, əminlik, ümid, güvən verir, onlara deyir ki, ey İran xalqı, Bəhram sənin qədərindir; c) seçilmişlik anlayışını önə çıxarır, İran xalqına mən haqq etdim, Allah da məni seçdi fikrini verir.

Bəhramın İran xalqını ikiyönlü fikri inşası (yanlışı yıx, doğrunu onun yerinə qoy) nəzəri hissədir, dəyişimin əsasıdır, belə ki, hər dəyişim təsəvvürdə başlayır, mayalanır, anlayışlara çevrilir. Ancaq bu fikri mücadilə İran xalqını inandırmaq üçün yetərli deyil, doğru siyasi vədlərə, İran xalqının sıxıntısını həll edəcək işlərə ehtiyac var. Elə buna görə də hədəfi olan, siyasət ustası Bəhram proqramının ikinci hissəsinə keçir: ədaləti təsis edəcək vəd və işlərini bir-bir açıqlamağa başlayır, öncə fikir, sonra iş ölçüsünü qoyur, proqramını iki yerə ayırır: a) təsəvvür inşası; b) ədaləti təmin edəcək işlər; Əmindir ki, bu ikisinin bir arada olması onu hədəfinə qovuşduracaq, bilir ki, İran xalqının güvənini qazanmadan islahatları gerçəkləşdirmək imkansızdır. Sənə inanmayanı tərbiyə edə bilməzsən.

Bəhram proqramının ikinci hissəsinə - ədaləti təmin edəcək işlər bölməsinə keçərkən bu yolları seçir:

- sözə "çon" qəlibi ilə başlayır, bu sözün "o zaman ki", "elə ki", "o halda ki" kimi mənaları var, zaman yüklüdür. Bəhram bu sözə niyə ehtiyac duyur, onu niyə nitqinin başına qoyur? Səbəbləri sıralayaq: a) ədaləti təmin edəcək işlər üçün zamana ehtiyac var, hakimiyyətə gələn kimi sıxıntılarınızı həll edəcəyəm anlayışı yalandır, Allahın verdiyi hakimiyyət nemətinə xəyanət, İran xalqına sayğısızlıqdır; b) Bəhram gerçəkdən İran xalqına yardım etmək istəyir, ona qarşı səmimidir, doğru olanı söyləyir, gerçək işlər üçün İran xalqından zaman istəyir; c) Bəhram gerçəkçidir, bilir ki, ölkədə ədalətin təmin olunması üçün hakimiyyətə tam yiyələnməli, xalqın güvənini qazanmalı, ölkəni atasının zülmünün ağır yükündən qurtarmalı, kadrlar hazırlamalı, islahatlar keçirməlidir - zamana ehtiyac var; d) Bəhram İran xalqına deyir ki, mənim sehrli çubuğum yoxdur, sizin dəstəyinizə və zamana ehtiyacım var, səbirli olun; e) o, xalqın güvənini qazandıracaq önəmli addım atır: doğru və açıq danışır, güvən və zaman istəyir;

- Bəhram zamanı sınırsız tutmur, bəlli vaxt qoyur. Vaxt təyini vicdanlı, səmimi olduğunu göstərir, güvən qazandırmağa xidmət edir. Belə ki, qeyri-müəyyənlik insanlarda şübhəyə, qorxuya, bu ikisi də tərəddüdə, inamsızlığa yol açır. Bu vaxtın müddəti nə qədərdir? Hakimiyyətə tam yiyələnədəkdir. Tam yiyələnmək budur: İrana tam hakim olacağam, bütün sahələri zülmə bulaşmış məmurlardan təmizləyəcəyəm, güvəndiyim məmurlarla işləyəcəyəm, islahat proqramı hazırlayacaq, onun mərkəzinə ədaləti yerləşdirəcək, həyata keçirəcəyəm. Yəni iki işim var: a) öncə ölkəni zülmün pisliklərindən təmizləyəcəyəm - zülmün çürütdüyü İran var, zülmün təmsilçiləri mənə dirənəcəklər; b) ədaləti təsis edəcəyəm; İranda ədalət təmin olunanda mən də ölkəyə tam hakim olacağam. Elə buna görə də zamana, səbrinizə ehtiyacım var;

- Bəhram ədalətin təmin olunacağı ilə bağlı vədini açıqlayarkən hakimiyyətin iki ən önəmli simvolundan istifadə edir: taxt, tac. Bu, öncəki zaman yüklü "çon" qəlibi ilə bağlıdır, hakimiyyətə tam yiyələnməyi ifadə edir. Yəni Bəhramın tacı var, hakimiyyət haqqını geri alıb, ancaq o, hələ İrana tam hakim deyil, bir növ tacı var, ancaq taxtı yoxdur, hakimiyyəti var, ancaq hələ İranda tam söz sahibi deyil, proqramını gerçəkləşdirəcək gücü yoxdur. İran xalqını nə vaxtadək gözləməyə dəvət edir? Həm taca, həm də taxta sahib olanadək, hakimiyyətə tam, şəriksiz yiyələnədək. Düşünün, siz şahsınız, ancaq heç bir məmur sizin deyil. Təsadüfi deyil ki, misrada öncə "taxt", sonra "tac" sözü gəlib. Yəni taxt həm də oturmağı, yerləşməyi, rahat nəfəs almağı ifadə edir. Ey İran xalqı, mənə İrana tam yerləşmək üçün vaxt verin ki, mənə də ədaləti təmin edim. Taxtı olmayan - özünü güvəndə hiss etməyən (güvəndə hiss edən oturar, rahat olar) tac kimə lazımdır, hansı işləri görə bilər ki, özü güvəndə olmayan başqalarına güvən verə bilərmi?;

- Bəhram sadəcə taxt, tac demir, "uca taxt və tac" deyir ("bolənd"). Səbəbləri sıralayaq: a) hakimiyyət böyük nemətdir, uca olandan - Allahdan gəldi; b) hakimiyyət o vaxt ucalığını qoruyur ki, ədaləti təmin edir; c) hakimiyyətin gücü, imkanı çoxdur; d) ey İran xalqı, Allahın

Bəhrama verdiyi hakimiyyətin sizin sıxıntılarınızı həll etmək gücü var, buna əmin olun, ona güvənin; d) Bəhram uca olan hakimiyyətin ucalığını ədaləti ilə qoruyacaq, bu da zülmün qaranlıq quyusunun dibində olan İran xalqını o qorxunc zülm quyusundan çıxaracaq, onu ucaldacaq;

- Bəhram ədalət təmin olunacaq, bu yolla Allahın hakimiyyət nemətinin şükrü yerinə yetiriləcək, nəticədə, Onun və insanların rizası qazanılacaq fikrini ifadə etmək, İran xalqının güvənini qazanmaq üçün bir addım da atır: uca hakimiyyətinin vəzifəsini, hədəfini açıqlayır, bu zaman "iş" demir, "işlər" ("karha") deyir, sözün cəm biçimini seçir. Niyə? İşlər çoxdur, İran xalqını sevindirir, bir zümrənin deyil, hamının sıxıntısı var, onlar yoluna qoyulacaq, zamana, səbrə, iradəyə, cəsarətə, əməyə, yardıma, İran xalqının maddi, mənəvi dəstəyinə ehtiyac var. Bəhram sadəcə "işlər" ("karha") də demir, bu sözün sonuna "yə" hərfi artır, müəyyənlik anlamı yükləyir: "o işlər ki, "o bilinən işlər ki" demiş olur, yəni zülmü sıradan çıxaracaq, ədaləti təmin, sıxıntılarınızı həll edəcək işləri nəzərdə tuturam, çətinlikləriniz çoxdur, bilirəm, səbəbi zülmdür, dərdinizin dərmanı da ədalətdir, mən də zülmü yox edib ədalətə yol açan işləri yerinə yetirəcəyəm;

- Bəhram "konəm" deyir, etməliyəm, edəcəyəm kimi qətilik bildirən söz seçir, yəni ədaləti təmin edəcək addımlar atmaq mənim əsas işim, borcum, vəzifəmdir, bundan başqa işim yoxdur. Bəhram "deməliyəm", "deyəcəyəm" kimi nitq feili seçmir, "etməliyəm", "edəcəyəm" kimi iş feili seçir, yəni ədalət sözlə olmaz, işlə gerçəkləşər, mən söz deyil, iş vəd edirəm, əmin olun ki, İrana ədalət gələcək;

- Bəhram beytdə "Xuda" sözünü də müəyyənlik əlaməti ilə işlədir: "Xodai", yəni O Allah ki, hakimiyyətin sahibidir, məni seçdi, hər şeyimi Ona borcluyam, borcumu ədalətimlə ödəyəcəyim Allah;

- Bəhram bir addım da atır: "o işləri ki" qəlibi ilə hansı işləri nəzərdə tutduğunu açıqlayır: Allahın bəyənəcəyi işləri edəcəyəm/etməliyəm deyir. Bu işlər ədalət, barış, mərhəmət, rifahdır. İnsanları razı salan Allahın da rizasını qazanmış olacaq. Hakimiyyət nemətinin şükrü də budur, söz deyil, işdir, saleh əməllərdir, ədalət hakimiyyətlə xalqı bir-birinə bağlayan ən etibarlı, qalıcı körpüdür;

ALTINCI BEYTİN ŞƏRHİ:

MƏNDƏN İNCİMƏSİN

بـ گذارد خدای گ ر ک نم آن

نـ یازارد هیچ کس زمن ک ه

Allah qoysa, mən elə edəcəyəm ki,
Heç kəs məndən inciməsin.

Bəhram ədalət xütbəsinin nəzəri hissəsini bitirdi. Allah, hakimiyyət, nemət, seçilmişlik, şükür anlayışlarını izah etdi, hər nemətin, o sıradan hakimiyyət nemətinin sahibi Allahdır, O, bu nemətini haqq edənə - Bəhrama verdi dedi. Sonra İran xalqının qəlbini fəth etməyin bir yolu var, o da ədalətdir ölçüsünü qoydu, ədalətin təmin olunması üçün görəcəyi işləri sıralamağa başladı, vurğuladı ki, ancaq Allahın rizasını qazandıracaq işlər görəcəyəm, Onun rizasını qazanmağın şərti də insanları sevindirəcək işlər etmək, onların duasını almaqdır.

Bəhram hər işinin mərkəzinə Allahı qoyur, hərəkət bizdən, bərəkət Ondandır anlayışını tanıdır, "Allah qoysa" deyir. Bu, ərəbcə olan "inşallah" sözünün qarşılığıdır. Allaha xalis imanın daşıyıcısı olan bu anlayışın içindəki nemətləri sayaq:

- dua var - Allah qoysa (inşallah) deyən arzusunu, görəcəyi işləri dilə gətirmiş olur. Ey İran xalqı, sizinlə bağlı gözəl işlərim olacaq, arzum sizin xoşbəxtliyinizi təmin etməkdir, Allahdan güc istəyirəm, O, izn versə, ədaləti təmin edəcəyəm. Gözəl arzusu, planı, işi olmayan Allah qoysa deməz;

- Allaha təvəkkül var - təvəkkül budur: əmək, tədbir, sonra təvəkkül. Təvəkkül Allahı vəkil etmək, Ondan qoruma, xeyir, bərəkət istəməkdir. Yəni Bəhram İran xalqı üçün əlindən gələn hər şeyi edəcək, nəticənin Allahdan olduğunu da biləcək;

- Allaha güvən var - Bəhram inanır ki, Allah xeyir üçün çalışanın yolunu açacaq, ona yardım edəcək. Allah izn verməsə, deməli, xeyirli olan bu imiş, mən Onun təqdirinə razıyam;

- səbir var - səbir oturub gözləmək deyil, dirənişdir, əməkdir, mücadilədir, Bəhram deyir ki, mən ədalətin təmini üçün sonadək dirənəcəyəm, Onun qərarına razı olacağam, əsla üsyan etməyəcəyəm;

- Allah qoysa, izn versə, inşallah qəlibi insanın Allah şüurunu diri/canlı tutur, deyir ki, o, hər şeyi görür, bilir, eşidir, hər an həyata müdaxilə edir; Bəhram İran xalqının qəlbini fəth etmək üçün çox səmimi davranır, edəcəyəm, sıxıntılarınızı ortadan qaldıracağam, hər şey gözəl olacaq, hamınızı xoşbəxtliyə qovuşduracağam kimi içində təkəbbür daşıyan cümlələr qurmur, qəti təminat vermir, Allah izn versə, qoysa, edəcəyəm deyir, Allahla insan arasındakı bağı kəsmir.

Bəhram yenə iş, hərəkət, əmək, çalışma bildirən "etmək" feilini seçir, ilk altı beytdə fərqli biçimlərdə işlənmiş beş "etmək" ("kərdən") feili var. "An konəm" onu, o işləri edəcəyəm, etməliyəm, həm də elə yerinə yetirəcəyəm ki... "Gər" / "əgər" şərt bağlayıcısı gəlir, bu şərtlə ki, Allah izn versin. "Etmək" iş feili deyir ki, Bəhramın ədalət vədi sözdə qalmayacaq, saleh əməllərlə təsdiq olunacaq.

"Ke"/"ki" bağlayıcısı həm iki misranı, həm Allahın iradəsi ilə insanın əməyini bir-birinə bağlayır, deyir ki, əmək səndən, zəfər Allahdandır.

Bəhram "heç kəs", "heç bir kəs" deyir, istisnaya yer qoymur, İran xalqının hər fərdini əhatə edən söz seçir. Yəni ədalətim bəlli bir zümrəyə/kəsimə aid olmayacaq, ədalət anlayışımda imtiyazlı təbəqə yoxdur. Belə ki, imtiyaz varsa, ədalət olmaz. Hər kəsin layiq olduğu haqq ona veriləcək.  Beytdə iki "mən" vurğusu var, Bəhramı nəzərdə tutur, biri şəxs sonluğu, o birisi "mən" biçimindədir. Şəxs sonluğu "etmək" feilinə artırılmışdır, yəni İran xalqının yükü Bəhramın çiynindədir, şah odur, İranda ədaləti təmin edəcək biri var, o da Bəhramdır. İkinci "mən" də deyir ki, məsuliyyət Bəhramın üzərindədir, ölkədə haqqı verilməyən bircə şəxs olacaqsa, buna cavabdeh Bəhramdır.

Güclü siyasi liderin ən önəmli özəlliklərindən biri də odur ki, o, məsuliyyəti öz üzərinə götürür, bəhanələr uydurmur, başqalarını ittiham etmir. Bəhram da bu anlayışa uyğun olaraq deyir ki, İran xalqının hər bir fərdinin məsuliyyətini daşıyıram, Allahın izni ilə ədaləti təmin edəcəyəm, sözüm sözdür, o, saleh əməllərimlə təsdiq olunacaq, cavabdeh də mənəm.

Bəhram "mən" deyir, tərəddüdə, şübhəyə, yanlış anlaşılmağa yol aça biləcək sözlərdən qaçır. Bilir ki, xalq tərəddüd edən, qorxan, məsuliyyətdən qaçan liderə inanmaz, onun arxasınca getməz. Beytdəki mən vurğuları Bəhramın cəsarətini, qətiyyətini, özünə güvənini göstərir, xalqın təsəvvürünə o, dediyini edər fikrini yerləşdirir.

YEDDİNCİ BEYTİN ŞƏRHİ:
İNCİYƏNLƏR DƏ OLACAQ

مگر آن کو گناهکار بود
دزد و خونی و راهدار بود

Yalnız günahkar olan kimsələrdən başqa,
Oğru, cani və yolkəsənlərdən başqa.

Bu, öncəki beytin davamıdır, Bəhramın ədalətin təmin olunması üçün görəcəyi işləri sıralayır. O, öncə dedi ki, Allah qoysa, elə işlər görəcəyəm ki, heç kəs məndən inciməyəcək. Ancaq istisnalar da var, təbii ki, inciyənlər də olacaq, belə  ki, zülm olan yerdə haqqı yeyilənlər olduğu kimi, haqqı yeyənlər də var. Bəhram onları dörd qrupa ayırır:

- günahkar olan - bu, dini anlayışdır, Bəhram ondan inciyəcəklərin birinci sırasına günahkarı "yazır". Bu, səbəbsiz deyil: o, xalqın dini duyğularını oyadır, onunla arasında din bağı qurur, İran dövlət idarəçiliyində və xalqın üzərində din xadimlərinin güclü təsiri olduğunu bilir, onlara mesaj verir, deyir ki, dinimizin (zərdüştlük) hökmlərini pozanlar ağır cəzalandırılacaqlar. Allaha inanıram, dinimi sevirəm, onun hökmlərinin pozulmasına yol verməyəcəyəm. Bu ölçü Bəhramın xalqla, din xadimləri ilə bağını gücləndirir. Təsadüfi deyil ki, birinci misrada cəzalandırılacaqlar sırasında ancaq günahkar var, ikinci misrada isə üç qrupa yer verilmişdir. Bəhram deyilən səbəblərlə günahkarı ayrıca vurğulamaq ehtiyacı hiss etmişdir;

- oğru - bütün sözlər təkdədir (günahkar, oğru...), bu, beytin tələbidir, ancaq cəm mənasını ifadə edir, oğrular deyir. Zülmün əlamətlərindən biri də budur ki, o, hamını oğruya çevirir, elə

şərait yaradılır ki, hamı oğru olsun, belə ki, oğru gözükölgəlidir. Onu idarə etmək asandır, etiraz, üsyan imkanı yoxdur, oğurluq harama yol açır, haram insanın mayasını pozur, mayası xarab olanın əxlaqı sıradan çıxır, davranışı dəyişir, sürüləşir, sürünü idarə etməyə nə var ki? Zülm yoxsulluğa yol açır, yoxsulluq oğurluğa, əxlaqsızlığa səbəb olur. Hər kəs oğurlayır: dövlət adamları xalqın malını, hakim günahkarın, müəllim tələbənin, polis cinayətkarın, həkim xəstənin... malını oğurlayır, insanların can, mal, şərəf güvənliyi yoxdur, dərəbəylik hökm sürür. Əməkçinin min bir əziyyətlə yetişdirdiyi, hər növ məhsulu oğrular talayırlar. Bəhram deyir ki, onlara ağır cəza var, sizin can, şərəf, sərvət güvənliyiniz təmin olunacaq;

- cani ("xuni", qatil) - canilər, Bəhramın atasının zülmü dərəbəyliyə yol açmışdır, güclü olan haqlıdır, zorakılıq, şiddət, qətl var, öldürülənin qanı batır, qatillər dövlət adamları ilə əlbir çalışırlar, ölkənin hüquq-mühafizə sistem çökmüş, terror alətinə çevrilmiş, anarxiya hüzuru yox etmişdir, insanlar qorxu içində yaşayırlar, gücsüzün bir haqqı var, o da ölməkdir. Bəhram deyir ki, qatillərə aman yoxdur, qatillər at oynadan ölkədə ədalət olmaz;

- yolkəsən (quldur) - zülmün ortaya çıxardığı, ədaləti yox edən, haramı çoxaldan bir qrup da yolkəsənlərdir, bu sözə iki məna verə bilərik: a) onlar ölkənin can damarı olan ticarətin, iqtisadi inkişafın önünü kəsirlər, karvan yollarına nəzarət edir, tacirlərin malını yağmalayır, xərac alırlar, siyasi sabitlik, yol güvənliyi olmasa, ticarət olmaz, nəticədə, bahalıq ortaya çıxar, xalq yoxsullaşar, aclıq, dilənçilik, oğurluq, əxlaqsızlıq çoxalar; b) zülm özü yolkəsəndir, rüşvət, qohumbazlıq, cəhalət istedadlı, bacarıqlı, ağıllı, vicdanlı, əməkçi insanların inkişafına imkan verməz, fərdi, milli inkişafın önünü kəsər. Bəhram deyir ki, ədalətimlə yolkəsənlərin yolunu kəsəcəyəm;

SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ:

DÜZGÜN OLUN!

من درگ ه خا صه گان ای من ب ا
من ره چون شوي د خانه را ست

Ey mənim sarayımın xas şəxsiyyətləri,
Mənim (düzgün) yolum kimi düzgün olun!

Bəhramın siyasətinin iki yönü var dedik: a) nəzəri yön; b) praktik yön; O, proqramının ikinci hissəsində ölkədə ədalətin təmin olunması üçün görəcəyi işləri təqdim edir. Qarşısında atası Yəzdigürdün zülmü ilə ölmüş, bərəkəti qaçmış, günahkar, oğru, qatil və yolkəsənlərin əlinə keçmiş İran var. Bəhram deyir ki, işimin iki yönü var: ölkəni öncə pisliklərdən (zülmdən) təmizləyəcək, sonra da zülmün yerinə ədaləti qoyacağam. O, görəcəyi işlərin bir qismini sıraladı: Allahın rizasını qazandıracaq işlər görəcəyəm, kimsəni incitməyəcəm, dörd qrupa qarşı amansız olacağam: günahkarlar, oğrular, qatillər, yolkəsənlər...

Bəhram ədalət xütbəsinin yeni beytində məmurlara üz tutur. Öncə onu qeyd edim ki, beytin tərcüməsi dəqiq deyil. Belə ki, Bəhram məmurların düzgün olmasını tələb etmir, ona qarşı (onunla) düzgün olmalarını tələb edir, "ba mən" ("mənimlə") deyir, tərcümədə bu qəlib ixtisar olunub, nəticədə, məna itib (incəlikləri irəlidə açıqlayacağam).

Bəhram məmurlara niyə özəl yer ayırır, ayrıca müraciət edir? Qeyd edim ki, üç beytin ideyası məmurlara müraciət üzərində qurulmuşdur. Səbəbləri sıralayaq:

- dövlət idarəçiliyini yaxşı bilir;
- bilir ki, dövlətin idarəçilik nizamı məmurlardan asılıdır;
- zülm sistemində məmurlar günahkarlarla, oğrularla, qatillərlə, yolkəsənlərlə əlbir olurlar;
- məmurlar düzəlməsə, idarəçilik düzəlməz;
- balıq başdan iylənər;
- ədalətin təsisi üçün ədalətə inanmış, onun üçün mücadilə edən məmurlara ehtiyac var;
- məmurların seçimində sədaqət deyil, əhliyyət əsasdır, iş işi bilənə verilməlidir;
- məmurların işinə nəzarət şərtdir;

Bəhram məmurlara "seçilmişlər" ("xasqan") deyir, yəni dövlət idarəçiliyində sizin yeriniz ayrıcadır, sizə tapşırılan işə görə məsuliyyət daşıyırsınız, seçilib təyin olunursunuz. O,

məmurlara sadəcə "seçilmişlər" demir, xitabın önünə "ey" çağırış nidası da artırır. Bu nida ilə mənalar yüklənir:

- müraciət dəyəri, önəmi ifadə edir;
- Bəhramın, dövlətin, xalqın sizə ehtiyacı var deyir;
- məmurlara məsuliyyətlərini xatırladır;
- xəbərdar edir - işini yerinə yetirməyənin cəzası ağırdır deyir;
- qorxudur - cəzadan qurtuluş yoxdur;
- gözüm üstünüzdədir mesajı verir;

Bəhram bir addım da atır, ey sarayımın seçilmişləri deyir, yəni Onun müraciəti bütün məmurlara deyil, ayrıca bir qrupa - saray məmurlarınadır. Onları niyə ayırır? Belə ki, onlar həlledici məqamdadırlar, məsələn, onlar rüşvət almasalar, o biri - aşağıdakı məmurlar rüşvət almağa cəsarət etməzlər, rüşvət zənciri qırılar, ötür-ötür oyunu bitər. Saray məmurları Bəhramla birgə, eyni məkanda çalışırlar, ona xəyanət, sui-qəsd etmək imkanları çoxdur, saray məmuru işini yerinə yetirməsə, bu, birbaşa Bəhramın adına yazılar.

"Ey seçilmişlər" xitabından bir də onu anlaya bilərik ki, Bəhram zalım atası ilə işləmiş məmurların yerinə təyin edəcəyi məmurları nəzərdə tutur, məmur seçmək siyasətinin bu əsaslarını açıqlayır:

- əhliyyət və ləyaqət - məmur işinin ustası olacaq, onu ləyaqətlə yerinə yetirəcək;
- həm işini biləcək, həm də əxlaqı gözəl olacaq;
- seçiləcək, seçim üçün imtahan ediləcək (Bəhram onlara "seçilmişlər" deyir);
- ədalətə inanacaq;
- çalışqan olacaq;
- qərarlar məşvərətlə alınacaq;
- davamlı nəzarət - şaha hesabat verəcək;
- məmura ehtiyacı qədər maaş veriləcək ki, gözü başqasının sərvətində olmasın;

Bəhram ədalət xütbəsində üç dəfə "mən" deyir: Birincisi, "ba mən" ("mənimlə") biçimini seçir, bu qəlibi birinci misranı başına yerləşdirir, sözə mənlə başlayır, saray məmurlarına deyir ki, sizin şahınız mənəm, əmr verən mənəm, işinizdə mənə itaət borcunuzdur, tələbim budur: mənimlə düz, düzgün dürüst olmalısınız, sizin vasitənizlə xalqın vəziyyətini öyrənirəm, mənə doğru bilgi verəcək, əmrlərimi olduğu kimi yerinə yetirəcəksiniz, heç bir xəyanəti bağışlamayacağam, davamlı nəzarətdəsiniz. İkincisi, "mənim sarayımın seçilmişləri" deyir, yəni ayrı zamandır, hakimiyyət dəyişdi, zülm getdi, ədalət gəldi, siz mənim sarayımın ("dərge") məmurlarısınız, işiniz ədaləti təmin etməkdir. Üçüncüsü, sadəcə dürüst olmayacaqsınız, "mənim yolum kimi" düzgün olacaqsınız. Düzgünlüyün ölçüsünü mən müəyyən edirəm, mənim yolum var, adı ədalətdir, ədalətə uyğun olacaq işləriniz düz, olmayanlar əyri sayılacaq. Buradakı "yol" sözü ölçü, tərəzi anlamlarını daşıyır, işləriniz ədalət ölçüsü, tərəzisi ilə çəkiləcəyi kimi sizə qarşı da ədalətli olacağam.

Ədalət xütbəsindəki "mən" vurğusunun önəmini ifadə edən bir vasitə də odur ki, üç mən əvəzliyindən ikisi rədif mövqeyindədir. Beyt mənlə başlayır, mənlərlə bitir, bütün sözlər mənə tabedir, mən, mən, Bəhram, Bəhram deyir, ədalətli Bəhramın dövrü başlamışdır, bu dövrün adı ədalətdir, siz də onun sarayının məmurlarısınız, ona qarşı onun ədalət yolu kimi düz olmalısınız mesajını verir, saray məmurluğu anlayışını izah edir, məmurların haqq və vəzifələrini müəyyənləşdirən ölçü qoyur.

Bəhramın ədalət xütbəsinin bu bölməsində onun liderliyini (mən vurğusu) ifadə edən iki vasitə də var: birincisi, o, saray məmurlarına müraciət edərkən tələb, buyruq, əmr, məcburiyyət anlamı daşıyan feili əmr, ya da vaciblik ifadə edən biçimdə işlədir: "şəvid" olun, olmalısınız. Niyə bu üslubu seçir? Şahdır, şah məmurundan xahiş etməz, əmr edər, göstəriş vermək şahlığın tələbidir, iradə, qətiyyət və gücü bildirir, əmr və qərar verə, təhdid və tələb edə bilməyəndən başçı olmaz, deyir ki, ədalət tələbim çox önəmlidir, sizdən çox şey asılıdır, bircə çıxış yolunuz var, Bəhrama qarşı dürüst olun, bu qəlibdə tələb, təhdid, xəbərdarlıq da var, düzgün olmalısınız, yoxsa ağır cəza sizi gözləyir.

İkincisi, Bəhramın ədalət xütbəsində bir önəmli söz də var ki, tərcümədə nəzərə alınmayıb. Bu "xane" ("ev") sözüdür. O, məmurlara deyir ki, dar mənada saray, geniş mənada İran sizin (bizim) evinizdir. Bu evin başçısı Bəhramdır, evdəki hər kəsin işi var, iş vicdanla yerinə yetirilməlidir ki, evdə hüzur, barış, xeyir olsun. "Xane" sözü ailə mənasını yüklənir, şahla xalq arasında körpü olur, Bəhram İran xalqına deyir ki, siz mənim doğmalarım, ailə üzvlərimsiniz, sizi mərhəmətlə bağrıma basacağam. İstəyirəm ki, İran rəhmət evi olsun, bu rəhmət, barış, hüzur, xeyir evini qurmağın da bir yolu var, o da ədalətdir. Ey saray məmurları, İranın rəhmət, ədalət, mərhəmət, barış, xeyir, bolluq evi olması üçün vicdanla çalışmaq sizdən tələbimdir.

- "xane" sözünü "rast" sözünə birləşdirərək oxusaq ("rast xane"), beytin mənasını gözəl ifadə edən məcaz ortaya çıxar. Burada şahmatın xanası nəzərdə tutulur. Bəhram məmurlara şahmat oyunu üzərindən mesajlar verir: a) şahmatın oyun qaydaları var, o qaydaları mən müəyyən edirəm, sizin qayda qoymaq, ya da dəyişdirmək haqqınız yoxdur; b) şahmatda hər fiqurun hərəkət yolu var, onu da (məmurların işini də) mən təyin edirəm; c) hər fiqur öz hərəkət yolu ilə getməlidir, siz də işinizi qoyulan ölçüyə uyğun yerinə yetirəcəksiniz; d) şahmatda şah var, əsas məsələ onu qorumaqdır, şah fiquru istənilən tərəfə hərəkət edə bilir, ancaq düz hərəkət edir, başqa cür (əyri) hərəkət etmək imkanı yoxdur, mən də sizin şahınızam, işimdə düzgün olacağam, şah fiquru kimi ancaq düz hərəkət etmək haqqım var, siz də məni örnək alacaq, ölkədə ədalətin, xeyrin, barışın, mərhəmətin, halallığın, rifahın təsis olunması üçün əlinizdən gələni edəcəksiniz; e) şahmatda oyun qaydaları öncədən bəlli olsa da, oynamaq, qarşı tərəfi məğlub etmək oyunçunun ağıl və bacarığından asılıdır, yəni hər adam məmur olmaz, məmur seçilməli, öz işini bilməli, ağıllı, bacarıqlı olmalıdır ki, qarşı tərəfi - əyriliyi, zülmü məğlub edə bilsin, düzlüyün, ədalətin zəfərinə yol açsın;

DOQQUZUNCU BEYTİN ŞƏRHİ:
İKİ DÜNYANI DÜZLÜKLƏ QAZANIN

ب رت اب ید روی ک ه ب ه ک جی از
ی اب ید را س تی ب ه ر س ت گاری

Yaxşısı budur ki, əyrilikdən üz döndərin,
Nicatı (hər iki dünyada) düzlüklə qazanın.

Bəhramın saray məmurlarına müraciəti davam edir. O, ədalət xütbəsində saray məmurlarına üç beytlik yer ayırmışdır. Səbəbi dövlət idarəçiliyində məmurların önəmli yer tutması, məmurlar düzəlməsə, idarəçilik doğru işləməz, ədalətin təmini imkansız olar anlayışıdır. O, məmurlara xitabında öyüd üslubunu seçir. Öyüdünün içində bunlar var: a) doğru olanı göstərmək; b) yanlışı açıqlamaq; c) doğrunu seçməyə təşviq etmək - mükafatla müjdələmək; d) yanlışın seçilməsi halında ağır cəza ilə xəbərdar etmək - bu cəzanın da iki yönü var: bu dünyada şahın cəzası, axirətdə Allahın cəzası;

Beytdəki öyüd üslubunun təşviq yönü "beh ke" ("daha yaxşı") qəlibinə yüklənmişdir. İnsan seçmək imkanı olan varlıqdır, əyrini də, doğrunu da seçə bilər, daha yaxşı olar, ən yaxşısı budur ki, siz əyrilikdən ("əz kəci") üz döndərəsiniz. Bəhram içində təşviq və təhdid olan öyüdünün təsirini artırmaq üçün məcazi danışır, bu vasitələrə yer verir:

- "əyrilikdən" sözü bir məcazdır, mənəvi əyriliyi, haramı, rüşvəti, yalanı, oğurluğu, bütün pislik növlərini nəzərdə tutur;
- "beh ke" ("daha yaxşı") qəlibi müqayisəyə yol açır, müqayisə məcaz növüdür, burada deyir ki, əyrilik də var, düzlük də, siz düzlüyü seçin;
- "üz döndərmək" frazeoloji birləşməsinə yer verir ("ruy bərtabid"), bu da bir məcazdır, deyir ki, əsla əyriliyə doğru baxmayın, onunla əlaqənizi kəsin, arxanızı ona çevirin, yəni onu aşağılayın, çirkin, təhlükəli bir şey olduğunu bilin, o, elə həyasızdır ki, üz versəniz, üzünüzü ona doğru çevirsəniz, astar da istəyəcək, sizi həlak edəcək;
- beytin mesajını bədii təzadla təqdim edir, bu da güclü məcazdır, məsələnin doğru anlaşılması üçün birinci misraya əyriliyi, ikinci misraya düzlüyü yerləşdirir;

- məcazlar vasitəsi ilə tərbiyə üsulunu öyrədir, deyir ki, öncə pisliyi (əyriliyi) təmizlə, sonra yaxşılığı (düzlüyü) onun yerinə qoy, əyrilikdən üz çevirməyən düzlüyə yönəlməz, hər xəstəlik ziddi ilə sağalar, əyrilik xəstəliyinin ziddi düzlükdür;

- ikinci misrada "rastqari" sözü var, misra bu qəliblə başlayır, birinci misradakı "əz kəci" sözünün düz altında yer tutur, onunla həmqafiyədir, ziddidir, bədii təzadın ikinci tayıdır: əyrilik, düzlük. Şah məmurlara yol göstərir, deyir ki, əyrilikdən üz döndərin, düzlüyə yönəlin;

- "rastqari" sözünün "düzlük", "təmizlik", "saflıq", "alicənablıq" mənaları olsa da, "nicat"/"qurtuluş" anlamı da var, bu da bir məcazdır, biz mətndəki bağlama görə qurtuluş mesajını önə çıxarırıq. Bəhram deyir ki, ən yaxşısı budur ki, əyrilikdən üz çevirin / çevirməlisiniz. Bundan sonra müjdə verir, bunu etsəniz, sizə qurtuluş / nicat var;

- bu qurtuluş da ikiyönlüdür: a) bu dünyada Bəhramın sevgisini qazanacaq, onun cəzasından qurtulacaqsınız, axirətdə də ilahi rizaya nail olub Allahın cəzasından qurtulacaqsınız;

- Bəhram məmurlarını tərbiyə edir, onları düzlüyə, ədalətə, xeyrə yönəltmək üçün ikidünyalı həyat anlayışı verir. Dediyi budur: əməlinizin qarşılığını bu dünyada da, axirətdə də görəcəksiniz, məsələnin hüquqi və əxlaqi yönü var;

- sonra bir addım da atır, qurtuluşun ölçüsünü açıqlayır, yol göstərir: o da düzlükdür, əyrilikdə üz çevirib, imtina edib, onun yerinə düzlüyü qoyacaqsınız. Bu da dünya və axirət səadətinə yol açacaq;

- Bəhramın nitqindəki "düzlük" ("rasti") sözü də məcazi anlam daşıyır: ədaləti, halallığı, xeyri, barışı ifadə edir, deyir ki, əyriliyin - şərin ziddi düzlükdür - xeyirdir, zülm ədalətlə yox olar;

- Bəhramın nitqində bir məcaz da var: "nicat tapmaq" - nicatı (qurtuluşu) əyrilikdən üz çevirib düzlüyə yönəlməklə tapa bilərsən. "Nicat tapmaq" birləşməsindəki "tapmaq" ("yabid" biçimindədir) feili "itirmək" feilinin ziddidir, yəni əyrilik-pislik qurtuluşun itirilməsinə, düzlük - yaxşılıq tapılmasına yol açar. Beyt deyir ki, qurtuluş yox olmayıb, sadəcə itib, itməsinin səbəbi əyrilikdir - zülmdür. İtmək anlayışında ümid var, deyir ki, tapa bilərsən. Səndən asılıdır, istə, iradəli ol, çalış, əmək ver, axtar ki, tapasan. Tapmağın yolu da düzlükdür - ədalətdir. Mesaj: ədalətli olan iki dünyanın səadətinə qovuşar;

- Bəhram güclü şah kimi hərəkət edir, öyüd verir, yol göstərir, eyni zamanda təhdid və xəbərdarlıq dili də seçir. Bu məqsədlə iki əmr, vaciblik bildirən feildən yararlanır, bu feillərin mesajlarını gücləndirmək üçün vasitələri var: a) onları rədif mövqeyinə yerləşdirir; b) təsirini artırmaq üçün başqa bir sözlə bağ qurub məcazi anlam yükləyir; c) onları bədii təzad kimi işlədir, öncə "yox", sonra "hə" deyir, sıralama önəmlidir; d) tərk etməsən, qovuşa bilməzsən mesajı verir - pisliyi tərk et ki, yaxşılığa qovuşasan; e) ikisi də frazeoloji birləşmədir; ə) qurtuluşun ölçüsünü açıqlayır: əyrilikdən, zülmdən üz çevirin ki, nicat tapasınız; g) şahın xəbərdarlığını ifadə edir: əyrilikdən üz çevirməsiniz, bu dünyada Bəhramın, axirətdə Allahın cəzası var;

ONUNCU BEYTİN ŞƏRHİ:

SOL QULAĞINIZ ÇOX AĞRIYACAQ

د ست ب ه ستراگ وش ن گ يري د گ ر
خ ست خواهد ک ه چپ گ وش ب ساای

Əgər dövlətə sağ qulaqla qulluq etməsəniz,
Sizin sol qulağınız çox ağrıyacaq.

Bu, Bəhramın məmurlara müraciətinin üçüncü beytidir, dövlət idarəçiliyində, ədalətin təsis olunmasında məmurların, özəlliklə saray məmurlarının nə dərəcədə önəmli olduğunu bildirir. Göstərmişdik ki, Bəhram məmurlara müraciətində öyüd verir, doğrunu da, yanlışı da göstərir, doğrunu seçməyə təşviq edir, cəza ilə də qorxudur, məcazi mənalı sözlər seçir ki, mesajları təsirli olsun, yadda qalsın, doğru anlaşılsın. O, bu beytdə nəzarəti, təhdidi önə çıxarır, deyir ki, gözüm hər an üzərinizdədir, xəbərdarlığını bu vasitələrlə çatdırır:

- beyt heç bir yanlış (əyrilik) cəzasız qalmayacaq fikri (ölçüsü) üzərində qurulmuşdur;

- Bəhram dərhal cəza ilə qorxutma mesajları vermir. Onun nitqində - tərbiyə üsulunda bir sıralama var: öncə doğrunu da, yanlışı da öyrədir, işin önəmini açıqlayır, ölçülər qoyur, işinizdə düzgün olun əmri verir, sonra cəza ilə xəbərdar edir;

- "gər" ("əgər") deyir, şərt qoyur, işin mənasını dəqiq ifadə edən məcaz seçir, "sağ qulağınızı (sağ) əlinizlə tutmasanız" ifadəsinə yer verir, onun təqdimatında sağ tərəf, sağ qulaq, sağ əl müsbəti, xeyirli olanı təmsil edir. Sağ qulağını sağ əli ilə tutmaq işini ləyaqətlə, vicdanla, haqqını verərək yerinə yetirməkdir;

- misranın başındakı "gər" şərt bağlayıcısının iki mesajı var: a) sizin vəzifəniz işinizi düzgün yerinə yetirməkdir; b) bunu etməsəniz, ağır cəza alacaqsınız;

- cəza ilə qorxutma mesajı "ey" çağırış nidasına yüklənir, beytin şərt hissəsi bitir, ikinci misrası - cəza var bölümü bu nida ilə başlayır. "Ey" nidası çağırır, oyadır, xəbərdar edir, qorxudur, bax ağır cəza var ha deyir;

- cəza ilə əyrilikdən çəkindirmə mesajı "bəsa" qəlibinə yüklənir, bu sözün "bəs deyincə", "çox", "lap çox", "olduqca çox" mənaları var, məmurlara deyir ki, işinizdə əyrilik olsa, sizə sıradan bir cəza verilməyəcək, bu, çox ağır cəza olacaq;

- Bəhram cəzanın ağırlığını, acısını hiss etdirmək üçün birinci misradakı məcazın ziddi olan ifadə seçir, bədii təzada yer verir. "Sol qulağınız çox ağrıyacaq" / "sol qulağınız yorğun olacaq, çəkiləcək". Bəhramın anlayışında sol əl, sol tərəf, sol qulaq mənfi anlam yüklənir, əyriliyi, işini yerinə yetirməməyi ifadə edir. İşinizdə əyrilik olsa, sol qulağınız çox ağrıyacaq. Qulağın çəkilməsi insanın ləyaqətini alçaldan davranışdır. İnsanın yanına vursan, o dərəcədə inciməz, ancaq üzünə, başına vursan, qulağını çəksən, bu, ona çox ağır mənəvi zərbə olar. Bəhramın qulaq obrazını seçməsinin bir anlamı da var: qulaq (eşitmə) öyrənmə vasitələrindən biridir, yəni mən sizi xəbərdar etmədimmi, məni anlamadınızmı, əyriliyin cəzası ağır olacaq demədimmi? Burada "sol qulağın yorğun olmasını" "çox danlamaq" mənasında da oxuya bilərik;

ON BİRİNCİ BEYTİN ŞƏRHİ:
ƏDALƏT QAPISINI AÇACAĞAM

بـ رآ سايـ م چون چـ ند روزک ی
بـ گـ شايـ م عدل و انـ صاف در

Bir neçə gün istirahət edəndən sonra,
Mən ədalət və insaf qapısını açacağam.

Bəhram ədalət xütbəsinin yeni mərhələsinə keçir. Öncə bu addımları atdı: ədalətin təmin olunmasının fikri (ideoloji) əsasını açıqladı, iki ölçü qoydu: hakimiyyət Allahındır, o, nemətdir, Allah hakimiyyət nemətini onu haqq edənə verər, O, məni seçdi. Hakimiyyət nemətinin şükrü ədalətdir. Sonra ölkədə ədalətin təmin olunmasının ikinci şərtini tanıtdı, dedi ki, bu anlayış əsasdır: dövlətin mərkəzində insan olmalıdır, yəni insan dövlət üçün deyil, dövlət insan üçündür, kimsəni incitməyəcəyəm, Allahın rizasını qazandıracaq işlər görəcəyəm. Sonra ədaləti təmin edəcək hüquqi əsaslara yer verdi, ədaləti pozanlara veriləcək cəzaları saydı. Sonra da ədalətin təmin olunmasına imkan verəcək idarəçilik ölçüsünü açıqladı, məmurları ayrıca vurğuladı, öyüd verdi, yol göstərdi, xeyrə təşviq etdi, cəza var dedi. Şərh olunan beytdə də ədalətin təmin olunması üçün görüləcək işlərin zamanını və ilk addımları sıralayır. İslahatların ən qısa zamanda başlayacağını ifadə etmək üçün bu vasitələri seçir:

- zaman çox önəmlidir, atası Yəzdigürddən zülmün hər növünü görmüş İran xalqı Bəhramdan ədalətin təmin olunması üçün gecikmədən addımlar atmasını istəyir. Bəhram da ən qısa zamanda işlər görməlidir ki, ona münasibətdə düşüncəsi qarışıq olan İran xalqına ümid verə bilsin, onları öz ətrafında birləşdirsin, ədalət hakimiyyətlə xalq arasında könül bağı qursun, inam yaratsın, belə ki, xalqın dəstəyi olmadan islahat aparmaq imkansızdır, bu, hakimiyyətin varlığı, davamı üçün ciddi təhlükədir, bir sözlə, gecikmək olmaz;

- Bəhram ən qısa zamanda ədalətin təmin olunması üçün işlər görüləcək mesajının verilməsi üçün "ruz" ("gün") sözünü deyil, "ruzəki" qəlibini seçir. "Ruz" sözünün sonuna kiçiltmə əlaməti artırır. "Güncük" biçimində tərcümə edə biləcəyimiz bu söz qısalığı, sürəti ifadə

edir, ümid, səbir verir, xalqa deyir ki, Bəhram sizin dərdinizi də, dərmanınızı da bilir, ən qısa zamanda xəstəliyinizin müalicəsinə başlayacaq, ağrılarınız azalacaq;

- o, "ruz" sözünün sonuna "ək" kiçiltmə, azaltma, qısaltma əlaməti qoydu, burada da dayanmadı, "ruzək" sözünün sonuna da "yə" hərfi artırdı: "ruzəki", "yə" hərfi sözə müəyyənlik anlamı yükləyir, yəni bir az istirahət etmək, düşünmək, planlaşdırmaq üçün zəruri olan o bəlli ən qısa zaman dilimi;

- Bəhram ən qısa zaman dilimini ifadə etmək üçün üçüncü əlaməti nitqinə yerləşdirir: "çənd" deyir, yəni "bir neçə güncük", bu qədər azca vaxta ehtiyacım var;

- Bəhram ən qısa zamanda ədaləti təmin edəcək addımlar atılacaq fikrinin ifadəsi üçün bir vasitə də seçir, "çon" deyir, "elə ki", "o zaman ki", yəni o ən qısa zaman dilimi bitən kimi başlayacağam (Bəhram gözəl natiqdir, bir misrada ən qısa zaman dilimini ifadə etmək üçün dörd vasitədən istifadə edir);

Bəhram ən qısa zaman diliminə ehtiyacı olduğunun səbəbini açıqlayır: istirahət etməliyəm. Buradakı istirahət anlayışının iki yönü var: a) Bəhram böyük ordusu ilə Yəməndən İrana gəldi, iki şir arasından tacı götürdü, ara vermədən təbrikləri qəbul etdi, ardınca ədalət xütbəsini oxumağa başladı, yoruldu, bir az dincəlməyə ehtiyacı var, bu aralıqsız işlər onun ağıl, iradə, gücünü göstərir; b) ciddi qərarlar qəbul etmək üçün İranın halını öyrənməli, adamları tanımalı, ədalət proqramının icra planını hazırlamalıdır.

O, bu qısa zaman dilimindən sonra nə edəcəyinin ip ucunu da göstərir, maraq yaradır, həyəcanlandırır, ümid verir, oyadır, diqqətləri toplayır, siz bir az səbirli olun, mən gəlirəm deyir. Bəhram İran xalqına iki nemət vəd edir: a) insaf; b) ədl-ədalət; Bunlar bir-birinə yaxın anlayışlardır. Misrada öncə "insaf" sözünə yer verilmişdir. Bu söz "n-sad-f" kökündəndir, anlamları var: "bir şeyin yarısı", "ölçü", "bir şeyin ortası" (bir şeyin ortası onun ən yaxşı yeridir), "verdiyindən çox mənfəət qazanmamaq", "zərər gördüyün qədər zərər vermək", "aldığın fayda qədər faydalı olmaq", "haqqını aramaq". Yəni kimsənin tərəfini tutmayacağam, imtiyazlı təbəqə olmayacaq, uc nöqtələrdən (radikallıq) uzaq duracağam, ədalətli qanunlar olacaq, hər kəs də o qanunların tələblərini yerinə yetirəcək, hər kəs haqqı olanı əldə edəcək, insafın ziddi həddi aşmaq, ölçünü pozmaq, orta yoldan uzaqlaşmaqdır.

Beytdəki ikinci anlayış da ədalətdir, ədalət bir şeyi yerli yerində tutmaq, hər kəsə, hər varlığa haqqını verməkdir. Allah üçün ədalət varlıqları yerli-yerində yaratmaq, insan üçün ədalət o varlıqlardan ilahi təyinatına uyğun istifadə etməkdir. Ədalətin ziddi zülmdür. Zülm bir şeyi yerindən etməkdir.

Bəhram İran xalqına qarşı çox səmimidir. O, dərhal insaf və ədaləti təmin edəcəyəm demir, bilir ki, bu çətin məsələdir, vaxt, güc, ağıl, səbir, iradə tələb edir, mərhələli işdir, zülmün içinə gömülmüş, əxlaqı pozulmuş, can, şərəf, sərvət güvənliyini itirmiş, günahkarların, oğruların, qatillərin, yolkəsənlərin əlinə keçmiş, ölmüş toplumu diriltmək vaxt istəyir. Ona görə də İran xalqına belə deyir: insaf və ədalətin qapısını açacağam. "Qapı açmaq" frazeoloji birləşmədir, məcazdır, sözün təsir gücünü artırır, bu mesajları verir:

- bilirəm ki, zülm hər birinizin qapısını bağlamışdır, heç kim halından razı deyil, kimsə sıxıntılarını həll edə bilmir, ölkədə barış, hüzur, mərhəmət, rifah yoxdur. Zülmlə bağlanmış qapıları ədalətlə açacağam;

- qapı açmaq sıxıntıları həll etmək deyil, ilk addımı atmaqdır, bilin ki, zülmün pisliklərini təmizləmək, ədaləti təmin etmək uzun, çətin işdir, səbirli olun, mənə yardım edin;

- qapı açmaq ümid verir, nuru göstərir, bu, bir duadır: Allah qapını açsın;

- qapı açmaq dardan və zordan qurtarmaqdır;

- qapı açmaq ədalətin, halallığın, barışın, rifahın, mərhəmətin zülmlə tıxanmış yollarını açmaqdır;

- qapı açmaq hərəkətdir, bərəkətdir, ağıl hərəkətlənir - düşünür, iradə hərəkətlənir - doğrunu seçir, qəlb hərəkətlənir - sevməyə başlayır, vicdan hərəkətlənir - mərhəmətli olur, hüquq hərəkətlənir - ədaləti təmin edir, iqtisadiyyat hərəkətlənir - hamı halal pul qazanır, siyasət

hərəkətlənir - siyasətçilər xalqa xidmət edirlər, zülm gedir, ədalət gəlir, savaş ölür, barış dirilir, insanları pərişan edən yoxsulluq sıradan çıxır, zənginlik üzləri güldürür;

Beytin iki mən vurğusu var, ikisi də şəxs sonluğu biçimindədir, qafiyə mövqeyindədir, Bəhramı önə çıxarır, iki mesaj verir: a) azacıq istirahətə, yenidən düşünüb daşınmağa ehtiyacı olan Bəhramam - işimə çox ciddi yanaşıram, insanam, bir azca dincəlmək istəyirəm; b) insaf və ədalətin qapısını açacaq olan Bəhramam - əsas işim budur, hakimiyyət mənə məhz bunun üçün lazımdır;

Qeyd edim ki, tərcümədə "sonra" sözü var, mətnin ideyasına uyğun deyil, belə ki, Bəhram iki iş arasında (azacıq istirahət, insaf və ədalətin qapısını açmaq) fasiləyə yer vermir, öncə bunu, sonra onu edəcəyəm demir, vaxtı uzatmır, tərcümədəki "sonra" sözü vaxt itkisinə səbəb olur, işi ləngidir, Bəhram isə azacıq istirahəti də insaf və ədalətin təmini işinin tərkib hissəsi kimi tanıdır. Ona görə də nitqində birinci misra ilə ikinci iş arasında "sonra" sözü, hətta "və" bağlayıcısı belə yoxdur. O belə deyir:

Bir neçə güncük istirahət edən kimi,
İnsaf və ədalətin qapısını açacağam.

ON İKİNCİ BEYTİN ŞƏRHİ:
ƏDALƏTƏ ƏDALƏTLƏ CAVAB VERƏK!

اف   تاد ست  ضهف  ری را ما آن چه
داد ست را داد و ظ لم را ظ لم

Bizim öhdəmizə düşən vacib iş (odur ki),
Zülmə zülm, ədalətə ədalətlə cavab verək!

Bəhram dövlətinin, hakimiyyətinin ana hədəfini açıqlayır: İran xalqını əzən, haqlarını əlindən alan, onu yoxsulluğa, nifrətə, didişməyə, əxlaqsızlığa məhkum edən, ağlını öldürən, iradəsini sıradan çıxaran, sürüyə çevirib kölələşdirən zülmü ortadan qaldırıb onun yerinə xalqa ümid, inkişaf, barış, mərhəmət, bolluq, zənginlik vəd edən ədaləti qoymaq. O, bu ən önəmli işi tanıtmaq üçün vasitələr seçir:

Birincisi, "ançe" deyir, bu sözə "nə", "hər nə", "o şey ki", "ən önəmli / vacib iş odur ki" mənalarını yükləyir, işarə edir, barmağı ilə göstərir, əsas iş budur demiş olur.

İkincisi, Bəhram ədalət xütbəsində ilk dəfə "biz" ("ma") deyir, məmurları da işin içinə qatır. Biz vurğusu bu mesajları verir:

- zülm İran toplumunda dərin yaralar açmışdır. Zülmün pisliklərini təmizləmək çox çətin işdir. Bu məsələdə sizin yardımınıza ehtiyacım var, birlikdə hərəkət etməliyik, sağlam məmurlar olmasa, zülm bəlasından qurtuluş yoxdur, siz buyruqlarımı olduğu kimi yerinə yetirəcək, xalqla hakimiyyət arasında etibarlı körpü olacaqsınız;

- zülmün yerinə ədaləti qoymaq da çətin işdir, müqavimətlə üzləşəcəyik, ölkənin siyasi, hüquqi, dini, iqtisadi, sosial, mədəni həyatında ciddi islahatlara, minlərlə əxlaqlı məmura ehtiyac var. Sizin dəstəyiniz olmadan İranda ədalətin təsisi imkansızdır. Biz işi, əqidəsi, əməli ədalət hədəfinə yönəlmiş ailə kimi olmalıyıq;

Bəhram zülmün ortadan qaldırılıb yerinə ədalətin qoyulmasının əsas iş olduğunu vurğulamaq üçün "fərize" sözünü seçir. Bu söz ərəbcədir, "f-r-z" kökündəndir, mənaları var: "yerinə yetirmək", "fərz qılmaq", "uyğun görmək", "təyin etmək", "qərarlılıq", "əmr etmək", "müəyyən etmək", "sərt bir şeyi kəsib iz buraxmaq", "qəti hökm", "təqdir etmək", "kəsmək". Cəmi "fəraiz"dir, dini termindir, Allahın qəti bir dəlillə əmr etdiyi şeydir, elə bir şeydir ki, məcburidir, səbəbsiz tərk etməyin cəzası var, işdir, əməldir. Bəhramın məhz "fərize" sözünü seçməsinin səbəbləri də bunlardır: zülmün yerinə ədaləti qoymaq ən önəmli işdir, bu, Allahın əmridir, insanların və Allahın rizasını qazanmağın tək yoludur, bu hədəfin gerçəkləşməsinə mane olanlara dünyada və axirətdə ağır cəza var, saleh əməldir, mənim sizə münasibətimin ölçüsüdür, olmazsa olmazdır, hakimiyyətin ana vəzifəsidir.

Bəhram üzərimizə "fərz oldu, üzərimizə düşdü", "fərz qılındı" deyir, məcaza yer verir, sözünün təsir gücünü artırır, ədalətin təmin olunmasından başqa işimiz yoxdur, hakimiyyətin, dövlətin

varlıq səbəbi ədalətdir mesajını verir. O, görüləcək işin yolunu, metodunu açıqlayır. Məmurlara iki ölçü verir:

a) zülmə zülmlə cavab verəcəyik - bu, zülm edənə zülm tətbiq edəcəyik, məsələn, rüşvət alandan rüşvət alacağıq anlamını daşımır, daşımaz, o halda, ədalət olmaz. Məna budur: xalqa zülm edən hər kim olursa olsun, haqq etdiyi cəzanı alacaq. Cinayətkara layiq olduğu cəza verilməsə, ədalət yerini tutmaz. Yəni ədaləti təmin etməyin birinci yolu ədalətli cəza sisteminin olmasıdır. Cəza sistemi olmasa, zülmün kökü kəsilməz, anarxiya olar, xalqla dövlət arasında uçurum yaranar. Bəhram öncə "zülmə zülm" ölçüsünü qoyur, belə ki, öncə pislik təmizlənməlidir ki, yaxşılığa yer açılsın. Bu da ədalətli məhkəmə və hüquq-mühafizə sisteminin qurulması ilə gerçəkləşər;

b) "ədalətə ədalət ölçüsü" - cəza və mükafat sisteminin qurulması, yəni zülmün qarşılığı cəza, ədalətin qarşılığı mükafatdır. Ədalətin təmin olunması üçün vicdanla çalışan hər kəsə dəyər veriləcək. Bəhram bilir ki, nəyə dəyər versən, o artar, insanlar işlərinə dəyər verildiyini görsələr, o işi təkrar edər, həvəslə çalışar dövlətinə, xalqına sadiq olar, harama, rüşvətə, saxtakarlığa ehtiyac duymaz, əməklə maaş arasında uyğunluq (ədalət) varsa, aldığı maaş ehtiyaclarını təmin edirsə, niyə pisliyə bulaşsın, qorxu içində yaşasın ki!;

Bəhram bilir ki, bu böyük işlərin gerçəkləşməsi üçün ciddi nəzarətə ehtiyac var. Ona görə nitqinin hər bölməsində fərqli biçimlərdə gözüm üstünüzdədir deyir. İdarəçiliyini bu ölçülər üzərində qurur: işini bilən məmurlar seç - ədalətli qanunlar qoy - qanunları tətbiq et - işi iş bilənlərlə məsləhətləş - işə davamlı nəzarətin olsun - zülm edənə cəza, ədalətli olana mükafat ver.

ON ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ:
KİMSƏDƏN QORXUM YOXDUR

هراس مردم یم هیچ از ن یست
شناس خدای مردم از جز به

Heç bir insandan qorxum yoxdur,
Bircə Tanrı tanıyanlardan başqa.

Bəhramın ədalət xütbəsi davam edir. O, məmurlara müraciət edir, dövlət idarəçiliyində məmurların çox önəmli yeri olduğunu bilir, onları tərbiyə etməyə çalışır. Bu beytədək məmurlara ölçülər verdi: siz seçilmisiniz, ədalətin təmin olunmasında çox şey sizdən asılıdır, mənim kimi düz olacaq, yolumdan ayrılmayacaqsınız, bu dünya və axirət qurtuluşunuz işinizi vicdanla yerinə yetirməyinizə bağlıdır, düzgün olmasanız, ağır cəza alacaqsınız, hədəfimiz ölkədə insafı, ədaləti təmin etməkdir, biz bir ailəyik, ölkənin, xalqın, ədalətin sizə ehtiyacı var, zülm edənə cəza, ədalətli olana mükafat veriləcək...

Bəhram doğru bir münasibət biçimi seçir, məmurlarını qorxu və ümid arasında tutur. Bu məqsədlə şərh olunan beytdə özünü, iş üslubunu tanıtmaq ehtiyacı hiss edir. Cəsarət, iradə, qərarlılıq mesajı verir. Bunun səbəbləri var: zülm bataqlığında boğulan, hər tərəfindən pislik axan bir ölkəni zülmün qaranlıq quyusundan çıxarıb ədalətin nuruna qovuşdurmaq çətin, uzun, ağır işdir, ağıla, cəsarətə, iradəyə, səbrə, xalqın dəstəyinə, məmurların yardımına ehtiyacı var, zülmün yerinə ədaləti qoymaq hərəkatının düşmənləri çox olacaq, belə ki, zülm ölkəni, xalqı günahkarlara, oğrulara, qatillərə, yolkəsənlərə təslim edib, onlar mütləq islahatlara qarşı dirənəcəklər.

Bəhram istəyir ki, onunla çalışanlar da, ona qarşı olanlar da onun kimliyini yaxşı tanısınlar, necə cəsur, iradəli, qərarlı olduğunu bilsinlər, bu biçimdə tanınma dostlara ümid, güvən, cəsarət verəcək, onları Bəhramın ədalət hədəfinə inandıracaq, işlərini vicdanla yerinə yetirməyə təşviq edəcək, Bəhramın yardımçısına çevirəcək, düşmənləri də qorxuya salacaq, direniş gücünü qıracaq, məğlub edəcək, dəstəyini əlindən alacaq. Bəhramın cəsarət, iradə, qətiyyət mesajı deyir ki, kimsənin göz yaşına baxmayacağam, ədalətin təmin olunmasına qarşı çıxanları əzib keçəcəyəm, heç kim məni yolumdan döndərə bilməz, İran xalqının səadəti üçün mümkün olan hər şeyi edəcəyəm. Bu qərarlılıq mesajı xalqı Bəhrama bağlayır, belə ki, xalq cəsur liderləri sevir, onun arxasınca gedir, bu da, təbii ki, düşmənləri dəhşətə salır.

Bəhramın dostların güvənini, ümidini, cəsarətini artıran, düşmənlərə qorxu verən, dirənişini qıran, dəstəkdən məhrum edən qərarlılıq mesajı bu yollarla verilmişdir:

- o, sözə "nist" qəlibi ilə başlayır, bəri başdan "yoxdur" deyir, qəti hökm verir, heç bir tərəddüdə yer qalmır (tərəddüd iradə zəifliyindən, məsələni bilməməkdən, cəsarət azlığından doğulur, şübhəyə yol açır, xalqın lider ətrafında birləşməsinə imkan vermir);

- nə yoxdur? Qorxu yoxdur. Bəhram hökmü ilə qorxu ("həras", qorxu, dəhşət) anlayışı arasına məsafə qoymuşdur, "yoxdur" sözü misranın başında, "qorxu" qəlibi misranın sonundadır. İnsan qorxduğunu tez dilə gətirər, yardım istəyər, nədən qorxduğunu o dəqiqə deyər, Bəhram isə tələsmir, belə ki qorxmur. Bəhram "qorxmuram" demir, "qorxu yoxdur" deyir, qorxunun varlığını inkar edəcək dərəcədə cəsurdur, olmayan bir şeydən niyə qorxum ki? Bəhram "qorxu" sözünün sonuna mənsubiyyət şəkilçisi artırmır (tərcümədə Bəhramın qərarlılıq mesajını pozacaq biçimdə "qorxum" sözünə yer verilmişdir), "qorxum" demir, deməz, qorxu yoxdur deyir, yəni mən qorxunun nə olduğunu bilmirəm;

- orijinalda mənsubluq bildirən əlamət (şəkilçi) "insan" sözünün sonundadır, o, belə deyir: heç bir insandan / insanımdan - təbəəmdən qorxu yoxdur;

- Bəhram qərarlılıq mesajını ifadə etmək üçün istisnaya yer vermir, "hiç" / "heç" qəlibini seçir, yəni heç bir insandan qorxu yoxdur, məni yolumdan çəkindirəcək kimsə tanımıram;

- Bəhram ikinci misrada bir istisnaya yer verir, bir təbəqəni seçir, fərqləndirir, onların bilinməsini istəyir, onlara ayrıca misra ayırır, bu məqsədlə "coz" (başqa, savayı, qeyri) qəlibinə yer verir. Deyir ki, tək bir istisnanın olduğunu bilməyinizi istəyirəm (məhz bilinməsini istəyir): Xudanı / Tanrını tanıyandan qorxu var;

- Bəhramın nitqində iki "qorxu" sözü yoxdur, yəni beyt belə deyil, heç bir insandan qorxu yoxdur, bircə / yalnız Tanrını tanıyandan qorxu var. Beyt belədir: heç bir insandan qorxu yoxdur, bir istisna var, o da Tanrını tanıyan insandır /insanlardır;

- Bəhram Tanrını tanıyanlar təbəqəsini ayrıca vurğulayır, ehtiramını bu yollarla ifadə edir: onları bütün insanlardan ayırır, siz fərqlisiniz deyir, birinci misrada bütün insanlara, ikinci misrada ancaq Tanrını tanıyanlara yer verir, istisna qəlibini ("coz") bütün insanlarla din alimlərinin arasına yerləşdirir, ikinci misranın başına qoyur, iki təbəqənin bir-birinə qarışmasına imkan vermir, siz özəlsiniz demiş olur;

- Bəhram Tanrını tanıyanlardan qorxuram / qorxu var demir, onlar istisnadır deyir, daha yumşaq, saygı ifadə edən biçim seçir;

- o, möminlərdən, inananlardan, dindarlardan, din adamlarından demir, Tanrı tanıyan deyir. Məhz "şenaxtən" feilinin kökü olan "şenas" sözünü seçir. Tanımaq /bilmək anlayışını önə çıxarır, mesajları var: hər dindar Tanrını tanımaz, cahil və alim dindarlar var, imanın əsası tanımaq / bilməkdir, bu, elmlə mümkündür, mən din alimlərini, Allahı tanıyaraq Ona inananları nəzərdə tuturam;

- Bəhram "Xuda" da demir, bu sözün sonuna müəyyənlik əlaməti bildirən "yə" hərfini də artırır: "Xodai", o Tanrı ki, hər şeyin, o sıradan gerçək hakimiyyətin sahibidir, O Bəhramı seçən, hakimiyyət nemətini məhz ona verən Tanrı, iki azğın şir arasından tacı götürməyi Bəhrama nəsib edən Tanrı, hər şeyimi borclu olduğum Tanrı, İranda ədalətin təsis olunması üçün mənə ağıl, iradə, cəsarət, güc verən, ədalətin təmini vəzifəsini üzərimə yükləyən, məni zəfərə qovuşduracaq olan Tanrı, məni sizə din bağı ilə bağlayan Tanrı...;

Bəhram niyə Tanrını tanıyanlara - din alimlərinə ayrıca yer verir? Səbəbləri sıralayaq:

- onu dinləyənlərin yaddaşını təzələyir, Tanrını yada salır, güc qaynağını xatırladır, çox güclüyəm deyir, məni seçən məni zəfərə də qovuşduracaq mesajı verir, qarşımda deyil, yanımda yer tutun;

- Allaha inandığını, Onu çox sevdiyini bildirir, İran xalqı ilə, din alimləri ilə din vasitəsi ilə könül bağı qurur, onları öz tərəfinə çəkir;

- İran dövlət idarəçiliyində, xalqın üzərində din alimlərinin güclü təsiri olduğunu bilir, onlara sevgisini, ehtiramını ifadə edir, mənim ədaləti təsis missiyama yardım edin deyir;

- Allah ədaləti, ədalətli olanları sevir, buyurur ki, vəzifəniz ədaləti təmin etməkdir. Allahı tanıyanlar Onun istəyini də bilirlər, təbii ki, ədalət uğrunda çarpışan Bəhrama yardım edəcəklər mesajını verir;
- din alimlərinə mesajını din / Xuda üzərindən verir ki, onları inandırsın, yardıma sövq etsin;
- bu mesaj dindar Bəhramın verdiyi sözləri yerinə yetirəcəyinin təminatıdır, Allaha inanan ədalət sözündən dönməz;
- bir vaxtlar İran şahının məktubunu gətirən din alimləri Bəhramın tərəfinə keçmişdilər, onlara hakimiyyətin dinc yolla əl dəyişdirməsinə yardım etdikləri üçün təşəkkür edir;
- din alimlərinin iştirakı, dəstəyi olmadan ədalətin təminin imkansızlığını bilir;
- bircə Tanrını tanıyanlardan qorxu var ölçüsünün mesajı budur: qorxu Tanrıya, Onu tanıyanlara sevgini ifadə edir: sevən sevdiklərinin sevgisini itirməkdən qorxar;

ON DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ:
BİRCƏ TANRIYA ETİMADIM VAR

ک س ﺑ ر ک نمذمی اع تمادی
ﺑ س و ک ردم اع تماد خدای ﺑ ر

Heç kəsə etimadım yoxdur,
Bircə Tanrıya etimadını var.

Bəhram bu sözləri məmurlara deyir, onları tərbiyə edir, iş üslubunu açıqlayır, cəsarət, iradə, qətiyyətini ortaya qoyur, ədalət xütbəsində etimad anlayışını önə çıxarır. Niyə buna ehtiyac hiss edir? Onun zülm bataqlığında can verən İran xalqını ədalətin nuruna çıxarmaq kimi böyük bir hədəfi var, bu hədəfi ağıllı, iradəli, cəsur, siyasət və diplomatiya ustası bir başçı ilə ona bağlı məmurlar ordusu gerçəkləşdirə bilər. Elə buna görə də Bəhram ədalət xütbəsinin bir yerində "biz" deyir. Etimad anlayışının içində də güvən, sədaqət, qarşılıqlı inam var. Yəni böyük hədəfləri gerçəkləşdirmək istəyənlər güvən duyğusu ilə bir-birinə bağlı olmalıdırlar. Bu təsbitlər doğrudur, o halda, Bəhram məmurlarına niyə kimsəyə etimad etmirəm deyir? Sırası ilə izah etməyə çalışaq:

- tərcümədə mətn belədir: heç kəsə etimadım yoxdur, ancaq orijinalda Bəhram belə demir, deyir ki, heç kəsə (kimsəyə) etimad etmirəm, yəni sizə vəzifələr verdim, ancaq bu o demək deyil ki, sizin işinizi yüzdə yüz yerinə yetirəcəyinizə əminəm;
- bu, bir idarəçilik metodudur, Bəhram məmurlarını ümidlə qorxu arasında tutur, kimsənin belə düşünməsini istəmir: Bəhram məni tanıyır, mənə inanır, mənə vəzifə verdi, dostumdur, mənə bir şey etməz;
- bu anlayış məmurları işinə məsuliyyətlə yanaşmağa yönəldir;
- Bəhram gözüm hər zaman üzərinizdədir demiş olur;
- vəzifəniz ömürlük deyil;
- işini yerinə yetirməyənin cəzası var;
- sizə münasibətimin ölçüsü tanışlıq, dostluq, deyil, işinizi vicdanla yerinə yetirməkdir;
- xəbərdar edir, hər kəsdən işinin hesabını soruşacağam;
- Bəhram etimad anlayışına tərif verir, onu tanıdır: etimad etmək işçini başlı başına buraxmaq deyil, güvənmək, nəzarət etmək, məsuliyyət yükləmək, hesab soruşmaqdır;

Bəhram məmurları ümid və qorxu arasında tutmaq, etimad anlayışını inşa etmək, tanıtmaq, məmurlarına qəbul etdirmək üçün bu vasitələri seçir:

- "etimad" sözünə iki dəfə yer verir, biri birinci, o birisi ikinci misradadır;
- birincisi məmurlara, ikincisi Allaha aiddir;
- birinci "etimad" sözü misranın ilk qəlibidir, ey məmurlar, etimad anlayışını doğru qavramaq çox önəmlidir mesajı verir, deyir ki, etimadı yanlış anlayan peşman olar, Bəhramın cəzasına tuş gələr;
- birinci "etimad" sözünün sonunda müəyyənlik əlaməti var, o etimad ki, idarəçilikdə çox önəmlidir;

- Bəhram məmurları ilə bağlı danışarkən istisnaya yer qoymur, "kimsəyə", "heç kimə" deyir, heç bir məmura etimad etmirəm hökmünü verir, imtiyaz yoxdur, fərq qoymayacağam, hər kəsə nəzarət edəcəyəm, işini yerinə yetirməyən hər kəs cəzalanacaq, ölçünü pozanı əlimdən alacaq biri yoxdur;

- Bəhram ikinci "etimad" sözünü ancaq Allaha aid edir, "Xoda" sözünü müəyyənlik əlaməti ilə işlədir: "Xodai", o Tanrı ki, ancaq O, qeydsiz-şərtsiz etimada, güvənə layiqdir, belə ki, O, qüsursuzdur, hər şeyi bilir, səhv etmək ehtimalı yoxdur, Bəhramın gücünə, mərhəmətinə, yardımına şahid olduğu, onu seçən, hakimiyyət nemətini ona verən Tanrıya etimadım tamdır;

- Bəhram nitqini bədii təzad üzərində qurmuşdur, birinci misra "yox", ikinci misra "hə" deyir;

- Bəhram deyir ki, insana (məmura) etimadla Allaha etimad arasında insanla Allah arasındakı fərq qədər fərq var;

- insana etimad qeydli-şərtlidir - etimad et, ancaq əmin olma, nəzarətdə saxla, Allaha etimad isə qeydsiz-şərtsizdir, Allahla münasibət şübhəli, qeydli-şərtli ola bilməz, olsa, adı güvənsizlik olar, Allaha tam etimad etməyənə Allah da etimad etməz. Niyə? Belə ki, insan sınırlı, qüsurlu, aciz varlıqdır, xəta payı çoxdur, hər şeyi bilmir, hər şeyə gücü çatmır, ona görə də insana etimad tam ola bilməz, tam etimad edən peşman olar, ölçü budur: insana etimad et, ancaq yoxla. Allah isə hər şeyi bilən, hər şeyə gücü çatan, mükəmməl olan tək varlıqdır, Onun xəta ehtimalı yoxdur. Ona görə də Allaha etimad tamdır;

- Bəhram "etimad" sözünü insana aid edəndə insan qəlibini "kəs" biçimində vermiş, qeyri-müəyyənlik ifadə etmiş, hər kəsi, hər insanı (məmuru) nəzərdə tutmuş, ölçü hamıya aiddir demişdir, üstəlik, insan anlayışı daşıyan sözü misranın sonuna yerləşdirmişdir;

- o, "etimad" sözünü Allaha aid edəndə isə Allah sözünü ikinci misranın başına yerləşdirmiş, etimad fərqlərini məkan seçimi ilə (baş-ayaq) gözəl ifadə etmişdir: insana etimada hara, Allaha etimad hara?;

- "kəs" ("insan") sözündə müəyyənlik əlaməti (artikl) yoxdur, "Xoda" sözündə isə var: "Xodai", yəni insana etimad qeyri-müəyyən (şübhəli, şərtli), Allaha etimad isə müəyyəndir, şübhəsizdir, qətidir;

- insana aid edilən "etimad" sözündə müəyyənlik artiklı var, Allaha aid edilən "etimad" sözündə isə yoxdur, yəni insana etimadın (o etimad ki) izaha, şərhə ehtiyacı var, Allah etimad isə Ona tam güvənmək, tam təslim olmaqdır, burada istisna yoxdur/olmaz;

- Bəhram insana etimad etmirəm deyərkən "etmək" ("kərdən") feilini indiki zamanda, inkarda işlədir: "nə konəm", "etmirəm", "etmərəm", "etməməliyəm", yəni insana (məmura) tam etimad etsəm, yanılaram;

- o, "etmək" feilini (etimad etmək) Allaha aid edəndə isə bu feili şühudi keçmiş zamanda işlədir, bu zaman qətilik, şahidlik bildirir (şahidlikdə qətilik var): "kərdəm", etdim, Allaha etimad etdim, iş bitmişdir, Ona tam inandım, güvəndim, qərarımı çoxdan verdim, heç bir şübhəm, tərəddüdüm yoxdur;

- Bəhram Allahdan başqa kimsəyə tam etimad olmaz ölçüsünü bir qəlibə də yerləşdirmiş, misranın sonuna, rədif mövqeyinə "bəs" sözü qoymuşdur: ancaq, təkcə, bircə, yalnız Allaha etimad etdim (bu, hər zaman belə olacaq), vəssəlam, bitdi, yetər, başqa belə bir varlıq yoxdur, olması imkansızdır, heç bir insan / məmur məndən tam etimad gözləməsin, hər an nəzarətdə olduğunu bilsin, hesab soruşulacağını ağlından çıxartmasın, işini vicdanla yerinə yetirsin;

Bəhram ağıllıdır, çox gözəl bilir ki, məmuruna bu biçimdə hakim olmayan lider böyük işlər gerçəkləşdirə, zülmdən ədalətə keçişi təmin edə bilməz. Ona görə də məmurlarına birmənalı, qəti, dəqiq mesajlar verir, onları tikan üstündə, ümid və qorxu arasında ayıq tutur: ölçülər qoyur, məmur seçir, hədəfi, işi açıqlayır, öyrədir, tərbiyə verir, nəzarət var deyir, xəbərdar edir.

ON BEŞİNCİ BEYTİN ŞƏRHİ:
ALLAHA İTAƏTİ SEVİRƏM

دو ست ن دارم ه یچ کس طاعت
او ست طاعت ک ه طاع تی از جز ب ه

Heç kəsə itaəti sevmirəm,
Bircə itaəti sevirəm, o da Tanrıya itaətdir.

Bəhram öncəki beytdə məmurlarına etimad anlayışını izah etdi. O, ədalət xütbəsinin bu beytində itaət anlayışını açıqlayır. Bilir ki, dövlət idarəçiliyində məmurlar önəmli yer tuturlar. Məmurluq hakimiyyətin ayrılmaz bir parçasıdır, hakimiyyətdə də üç şey var: şöhrət, sərvət, güc. Belə demək olar ki, hakimiyyət şeytanların ən çox olduğu yerlərdən biridir, hər məmurun şöhrət, sərvət, güc qarşısında durması çətindir, azmaq, yoldan çıxmaq, pisliyə bulaşmaq ehtimalları çoxdur. Məmurlar azsa, dövlət idarəçiliyi çökər, İran xalqını zülmün qaranlığından ədalətin nuruna çıxarmaq imkansız olar, Bəhramın ədalət vədi gerçəkləşməz, o, Allahın hakimiyyət nemətinin şükrünü yerinə yetirməmiş sayılar. Bu təhlükənin qarşısını almağın bir yolu var, o da məmurları tərbiyə etmək, onlarda gözəl əxlaq formalaşdırmaqdır. Bəhram bu işi gerçəkləşdirmək üçün öncə məmurların idarəçilik, məmurluq təsəvvürünü inşa edir, bilir ki, təsəvvür doğru olsa, ağıl da doğru çalışar, ağıl doğru çalışsa, əxlaq gözəl olar. Bəhram məmurların təsəvvürünü inşa məsələsinə anlayışların mənasını doğru izah etməklə başladı: onlara Allah təsəvvürü verdi, dedi ki, məmurlar pis əməlləri ilə Allahın sevgisini itirərlər, bunun cəzası ağırdır, özünü tanıtdı, Allah məni seçdi dedi, hakimiyyət, nemət, şükür, zülm, ədalət, ilahi riza, düzlük, əyrilik, mükafat, cəza, etimad anlayışlarını izah etdi, hədəfini açıqladı, nə istədiyini açıq bildirdi, ölçülər qoydu, biz anlayışı verdi, məmurların önəmini vurğuladı, sizə nəzarətim davamlıdır, işini yerinə yetirməyənlərin cəzadan qurtuluşu yoxdur mesajı verdi. Bəhram məmurlarını ümid və qorxu arasında tutur, cəsarətini, iradəsini, qətiyyətini fərqli biçimlərdə ifadə edir...

Sıra dövlət idarəçiliyinin önəmli əsaslarından biri olan itaət anlayışına çatdı. Bəhram bu anlayışı izah edəndə də məmurlarını ümid və qorxu arasında tutur, qətiyyətini açıq, hər kəsin anlaya biləcəyi biçimdə göstərir, bu ölçülərin inşası üçün vasitələr seçir:

- beytin misralarını iki yerə ayırır, biri "yox", biri "hə" deyir;
- bədii təzada yer verir, itaət anlayışını bu yolla öyrədir;
- itaət təslim olmaq, itaət etdiyinə bağlanmaq, güvənmək, onun buyurduğu kimi yaşamaqdır, məcburi deyil, şüurlu seçimdir;
- deyir ki, Allahdan başqasına itaət yoxdur;
- "itaət" ("taət") sözünə üç dəfə yer verir, biri insana, ikisi Allaha aiddir;
- birinci "itaət" sözündə müəyyənlik əlaməti yoxdur, ikincisində var, müəyyənlik artiklı deyir ki, o itaət var ha, o, ancaq və ancaq Allaha aiddir,

Ondan başqasına itaət haramdır;

- idarəçiliyi iki yerə ayırır, idarə edən və idarə olunanlar;
- idarə edən Bəhramdır, idarə olunanlar məmurlardır;
- idarəçilikdə çoxbaşlılıq olmaz, Bəhramın əmrləri yerinə yetirilməlidir;
- Bəhram imtiyaza, istisnaya yer qoymur, "hər kəs" deyir, heç kəsə itaət etməyi sevmirəm, bu, əzm, iradə, qətiyyət, liderlik bəyanıdır, kimsə mənə əmr verə, təzyiq göstərə, yolumdan döndərə bilməz, siz məni deyil, mən sizi idarə edəcəyəm;
- Bəhram ikinci misraya istisna qəlibi ilə başlayır, "coz" (başqa, savayı, qeyri...) deyir, tək bir istisna var, o da Allahdır, Allaha itaətdir;
- Allaha itaətin ayrıcalığını ifadə etmək üçün bu vasitələri seçir:

a) "coz" qəlibini iki misranın ortasına qoyur, istəyir ki, insana itaətlə Allaha itaət bir-birinə qarışmasın, məna fərqi görünsün, yoxla varın sınırı dəqiq cızılsın;

b) Allaha aid itaəti müəyyənlik əlaməti ilə işlədərək o itaət var ha, o ancaq Allahadır vurğusunu gücləndirir;

c) "ke" ("ki") gücləndirici ədatına yer verir, o itaət ki var, o ancaq bir tək Allahadır;

d) birinci itaətə idarəçilikdə tabeçilik anlamını yükləyir, məmurlar Bəhrama itaət edəcəklər, yəni onun əmrlərini yerinə yetirəcəklər. İkinci itaət anlayışına isə Allaha təslimiyyət mənasını verir, mən ancaq Allaha itaət etdiyim kimi, siz də yalnız Ona itaət edəcəksiniz;

e) itaəti Allaha aid edəndə bu sözə iki dəfə yer verir: o itaət ki var, o itaət ancaq Allahadır, yəni insan olaraq yaradılmağın şükrü Allahdan başqa heç bir varlığa itaət etməməkdir;

f) Allah demir, O deyir, Ona itaət var, işarə edir, əlini qaldırır, itaətin bir ünvanı var, Odur;

g) O qəlibini (Allah anlamında) rədif mövqeyinə, görünən, bilinən, yadda qalan yerə qoyur, sayğını ifadə edir;

h) beytdə sevmək feili bir dəfə işlənib, inkardadır, heç kəsə itaəti sevmirəm, ancaq bu feilin təsdiqi də nəzərdə tutulub, yəni bircə itaəti sevirəm, o da Allaha itaətdir. Bəhram Allahı sevirəm demir, Allaha itaəti sevirəm deyir, vurğunu itaətin üzərinə qoyur, mesaj verir, Allaha itaət mənə şərəfdir, Ona sevgim yalnız sözdə deyil, əməldədir, belə ki itaət söz deyil, işdir, onun buyurduğu kimi yaşamaqdır, yəni Allah sevgimi saleh əməlimlə ortaya qoyuram. Bəhram bu ölçü ilə məmurlara deyir ki, sizin də mənə itaətiniz sözdə deyil, işdə olsun, gerçək sevginin ölçüsü söz deyil, işdir, sevən sevdiyinə itaət edər;

ON ALTINCI BEYTİN ŞƏRHİ:
SALAM OLSUN!

ک   بود چرخ جای ب ه ب ماند ت ا
درود دهو خ  ف ت گان ب ر ب اد

Mavi çərx öz yerində nə qədər varsa,
Zəmanənin yatmışlarına salam olsun!

Bəhram ədalət xütbəsində yeni mərhələyə keçir, bu bölmədə üç beyt var. O, üç qrup insan seçir: ölmüşlər, yaşayanlar, onun ədaləti təmin etmək hərəkatına qarşı çıxanlar. Bəhram ölmüşlərə salam göndərir, yaşayanlara ədalət, hüzur, güvənlik, ümid vəd edir, ona qarşı çıxanlara isə təhdid və bədduası var.

Bəhram üçmesajlı (salam, ümid, təhdid) yeni mərhələdə öncə ölmüşlərə yer ayırır, onlara salam göndərmək üçün bu vasitələri seçir:

- Bəhram ədalət xütbəsində - məhz İranda ədalətin təmin olunması proqramını açıqlayarkən niyə ölmüşlərə salam göndərmək ehtiyacı hiss edir? Səbəbləri sıralayaq: onlara dəyər verir, davamçılarının könlünü alır, İran xalqını ətrafında birləşdirir, vəfa borcunu ödəyir, demiş olur ki, İranda minlərlə insan zülmün qurbanı oldu, bu dünyada bir xoş gün görmədi, qarın dolusu yemədi, zalım rejimin zülmündə boğuldu, həbsxanalarda günahsız olaraq yatdı, işgəncəyə məruz qaldı, qətl edildi, bütün haqları əlindən alındı. Bəhram zülmün qurbanı olmuş insanlardan halallıq istəyir, o, ustalıqla, dolayı yolla ata Yəzdigürdün zülmünə görə üzr istəmə ehtiyacı hiss edir, insanlığını, mərhəmətini ortaya qoyur, bu addım məzlum insanların davamçılarının qəlbində Bəhrama rəğbət duyğuları oyadır;

- insanları dəyişimə inandırmağın yolu keçmişdə olanları doğru dəyərləndirmək, yanlışları tənqid etmək, doğruları göstərmək, halallıq almaq, haqqı əlindən alınmışların haqqını verməkdir, bunun adı tövbədir, yəni dəyişim tövbə ilə başlayır;

- Bəhram demiş olur ki, ey zülmün qurbanı olmuş insanlar, sizin haqqınızı ödəmək imkanım yoxdursa da, davamçılarınızın xoşbəxt yaşaması üçün ədalətli İran quraraq ruhunuzu şad edəcək, sizdən halallıq alacağam, yəni haqqınızı ödəməyin bircə yolu var, o da ədalətdir;

- bu, Bəhramın duasıdır, dua dəyər verməkdir, o, ölmüşlərə "dorud bad" - salam olsun deyir, dua üslubu (dili) seçir, ancaq Bəhramın salamı olsun demir, daha / çox böyük, önəmli bir şey istəyir, Allahın salamı olsun deyir (beytdə Allah sözü yoxdur, nəzərdə tutulur);

- "Allahın salamı olsun" duasının içində bunlar var: Bəhram Allaha, axirətə, duanın gücünə inanır, dua salam, hüzur, barış, rahatlıq, rəhmət, sevgi anlamlarını daşıyır, yəni Allah sizə hüzur versin, rəhmət yağışı yağdırsın;

- Bəhram duasını bəlli bir zaman diliminə bağlayır: mavi çərx öz yerində nə qədər / nə zamanadək varsa, salam olsun. Duanın bu biçimdə olmasının da səbəbləri var: mavi çərx göy üzüdür, ona göy, səma, fələk, hər planetə aid göy təbəqəsi adları da qoyulmuşdur, bu anlayışda hərəkət var, göy üzündəki hər varlıq hərəkətdədir (qeyd edim ki, Bəhram astronomiyanı dərindən bilir), hərəkət bitəndə çöküş olur, son saat da budur, kainatın ölüm halıdır, Bəhram Allahın ölçülərinə inanır, o ölçülərdən biri də budur ki, kainatın sonu var, yaradılan hər şey fanidir -

ölümlüdür, yəni çərxin / fələyin hərəkəti bir gün dayanacaq, Bəhram ölümdən sonra dirilişə, hesaba - axirətə inanır, elə buna görə də duasının zamanını sınırlı tutur, yəni son saatadək (qiyamət yox oluş deyil, yenidən dirilişdir) Allah sizə hüzur versin deyir, yenidən dirilişdən sonra Allahın onların haqqını verəcəyinə ümid edir;

- beytdəki "mavi çərx öz yerində nə qədər / nə zamanadək varsa" ölçüsü çoxluğu, genişliyi, sevgini də ifadə edir, hüzur genişlikdir, qəlbin, ruhun darlıqdan, sıxıntıdan qurtarmasıdır, yəni Allah sizə göy üzünün genişliyi qədər hüzur versin (göy üzü obrazının seçilməsinin səbəbi də budur), bu hüzur son saatadək - kosmik çöküşədək davam etsin, sonrası axirətdir, oranı bilmirəm, son qərar Allahındır, Onun sizi əbədi hüzura qovuşdurması üçün dua edirəm, Bəhram Allahı doğru tanıdığına görə həddini bilir, deyir ki, dua bizim, qərar Allahındır;

- Bəhram ölmüşlərə verdiyi dəyəri ifadə etmək üçün bir vasitə də seçir, onlara "ölmüşlər demir", "yatmışlar", "zamanın yatmışları" ("xofteqane dəhr") deyir, yəni indi, hal-hazırda "yatmışlar". Bu sözün seçilməsinin mesajları var: incə üsluba uyğun sözdür, içində sayğı, sevgi, dəyər daşıyır, həyat və ölüm anlayışlarını izah edir: həyat, ölüm qaçılmazdır, indi sağıq, biz də yatacağıq, ölüm əbədi yox oluş deyil, həm son, həm də başlanğıcdır, axirət inancına işarə edir, yatan bir gün oyanacaq, yenidən diriliş, hesab, cənnət, cəhənnəm var, ey insan. Bəhramın bir mesajı da məmurlaradır, onları əyri işlərdən çəkindirmək istəyir, ölümü, axirəti yada salır, deyir ki, işinizi vicdanla yerinə yetirin, Allahın hüzuruna günahlarla getməyin;

ON YEDDİNCİ BEYTİN ŞƏRHİ:

ÜMİD BƏXŞ OLUNACAQ

سـ پـ یـد و سـ یاه انـ دازه از بـ یش
امـ یـد و امان ما ز را زنـ دگـ ان

Ağ və qaranın sayından da çox,
(Bütün) yaşayanlara bizdən (həm sənin - amanlıq, həm də ümid (bəxş olunacaq).

Bəhram ədalət xütbəsində insanları üç yerə ayırdı: yatmışlar (ölmüşlər), yaşayanlar, İranda ədalətin təmin olunmasına sevinməyənlər (qarşı çıxanlar). O, yatmışlara dəyər verdi, dua etdi, Allahdan hüzur, rəhmət istədi. Sıra yaşayanlara çatdı. Zülm içində boğulan, çarəsiz İran xalqı qorxu içindədir, gələcəyinin necə olacağını bilmir. Bəhram ağıllı liderdir, xalqı qorxudan qurtarmağın, sevgisini qazanmağın, ətrafında birləşdirməyin yolunu bilir, inancı budur ki, dövlətin və liderin vəzifələrindən biri də insanlara ümid verməkdir. Ancaq bu ümid sadəcə sözdə deyil, əməldə olmalıdır, yoxsa qısa təsəllidən sonra xalq ətrafınızdan dağılar, sizə qarşı çevrilər. Elə buna görə də Bəhram gerçək ümidin qaynağını göstərir, o da ədalətdir, ədalət təminatlı ümid vəd edir. Bəhram ədalətlə ümidin bağını bu yollarla qurur:

- ümid gələcəklə bağlıdır, gələcəkdə arzu edilən bir şeylə əlaqə qurmaqdır;
- "ümid" sözünün kök mənası "dayaq"dır, elə bir dayaq ki, insan ondan tutub ayağa durur, yaşayır;
- insan ümidsiz yaşaya bilməz, zülm ümidsizliyə, ümidsizlik də intihara yol açır;
- zülm qorxu verir, qorxu insanı yorur, bezdirir, gücünü əlindən alır;
- ədalət ümid verir, ümid insanı dincəldir, ruhunu hüzura qovuşdurur;
- qorxu xəstəliklərə yol açır, ümid sağaldır;
- qeyri-müəyyənlik (bilinməzlik) qayğıya yol açır, qayğı qorxuya çevrilir, nəzarətsiz qorxu öldürür;
- ümid qeyri-müəyyənlikdən qurtarır, qaranlıq tuneldə işıq yandırır;
- qorxu yasa batırır, ümid sevinc verir;
- qorxu əsir edir, ümid azadlığa qovuşdurur;
- ümid olmasa, inkişaf olmaz;
- insanlar ümid verməyən liderin arxasınca getməzlər;
- haqq etdiyini qazanmaq ümid verir;
- dəyərli olduğunu hiss etmək ümid verir;
- anlamaq ümid verir;
- cəhalət qorxunun, elm ümidin qaynağıdır;

- qorxu qaranlıq, ümid nurdur;
- ümid etmək güvənməkdir;
- ümid güc qaynağıdır;
- ümid imanın meyvəsidir;
- qorxu küfrün (küfür həqiqətin üstünü örtməkdir, həqiqətin üstünü örtən hər kəs kafirdir) övladıdır;
- həqiqət ümid, yalan qorxu verir;
- qorxu nifrətə, ümid sevgiyə yol açır;
- ümid çalışmaq istəyini artırır;
- doğru yol göstərmək ümid verir;

Bəhram ümidin qaynağının ədalət olduğunu söyləyir, ədalət hər kəsi, hər varlığı ilahi təyinatına uyğun yerdə tutmaq, onlara haqq etdiyini verməkdir. Bunun yolu da insanların bütün haqlarını qoruyacaq dövlət sistemi qurmaqdır: ədalətli qanunlar qoyulsa, o qanunların hökmləri yerinə yetirilsə, məhkəmələr insanların haqlarını qoruyan orqan kimi fəaliyyət göstərsə, insanların canı, şərəfi, malı qorunsa, ədalət olmazmı, bu ədalət ümidə yol açmazmı, ümid, sevgi, sayğı, mərhəmətlə insanları bir-birinə bağlamazmı?

Bəhram İran xalqına bir vəd də verir: əmin-amanlıq (təhlükəsizlik, güvənlik). Dövlətin iki vəzifəsini önə çıxarır: ümid, təhlükəsizlik. Bu iki önəmli dəyəri topluma hakim qılmağın yolu da ədalətdir. O, İran xalqına deyir ki, canınız, şərəfiniz, sərvətiniz toxunulmazdır, ədalətli qanunlar, bu qanunların hökmlərini yerinə yetirən dövlət orqanları sizə xidmət edəcək, siz dövlət üçün deyilsiniz, dövlət sizin üçündür. Bəhramın bu iki önəmli, ədalət təminatlı vədi İran xalqına ümid, güvən verir, onu Bəhrama bağlayır, düşmənlərin müqavimət gücünü qırır, güc qaynağını yox edir (zülm, cəhalət, qorxu, yoxsulluq düşmənlərin güc qaynağıdır, onların əməllərini gerçəkləşdirməsinin yolunu açır).

Bəhram ümidi, güvəni artıracaq bir addım da atır: "yaşayanlar" sözünü seçir, cəmdə işlədir, istisnaya yer qoymur, İran xalqının bütün fərdlərini nəzərdə tutur, deyir ki, ədalət təminatlı ümid və təhlükəsizlik hər kəsin haqqıdır.

Bəhram bir addım da atır, ədalət təminatlı ümid və təhlükəsizliyi gerçəkləşdirəcək güc qaynağını göstərir: "bizdən" deyir, ədalət xütbəsində ikinci dəfə "biz" qəlibini seçir, yəni ey İran xalqı, vədlər gözəldir, ancaq bunu kim və necə gerçəkləşdirəcək deyirsənsə, içində şübhə varsa, bil ki, bu işin lideri mənəm, ağıl, iradə, güc sahibiyəm, məmurlar da əmrlərimi yerinə yetirəcəklər, vasitəmiz də həyatın hər sahəsində ədaləti təmin etməkdir. Bəhram vədini belə çatdırır: bizdən yaşayanlara ümid və təhlükəsizlik olsun, o, hədəfini şüarlaşdırır, hamının anlaya biləcəyi, yadda saxlayacağı biçimə salır. Bilir ki, hər hərəkatın şüarı olur, bu şüar hədəfi açıqlayır, xalqı birləşdirir.

Bəhram ədalət təminatlı ümid və təhlükəsizlik vədini gücləndirəcək bir addım da atır, bu iki dəyəri çoxaldır, çoxluğa iki məna yükləyir, miqdar və zaman çoxluğu. Sözümün təsir (inandırma) gücünü artırmaq üçün bu məcazı seçir: qara və ağın sayından (ölçüsündən) daha çox ümid və təhlükəsizlik olsun / olacaq. Qara və ağ gecə və gündüzdür, yəni ədalətim sizə gecə və gündüzün sayından daha çox ümid, təhlükəsizlik verəcək, hamınıza yetəcək qədər, davamlı ədalət olacaq. Çoxluq ümidi də çoxaldır, ümid güvənə yol açır, güvən xalqı Bəhramın ətrafında birləşdirir.

Bəhram xalqı ümid və təhlükəsizlik vədinə inandıracaq bir addım da atır, beytə qafiyə olaraq içində işıq daşıyan sözlər seçir: ağ, ümid ("sepid", "omid"), mesaj budur: ədalət işıqdır, zülmün qaranlığını yox edəcək, zülmün yaratdığı qorxu gedəcək, yerinə ədalətin meyvəsi olan ümid, güvən gələcək.

ON SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ:

SEVİNC GÖRMƏSİN!

م باد داد و درود جز من ک ار

م باد شاد ن یست شاد ازی ن هوک

Mənim əməlim alqış və ədalətdən
başqa bir şey olmayacaq,
Bu (əmələ) sevinməyən qoy heç sevinc görməsin!

Bu, Bəhramın ədalət xütbəsinin sonuncu beytidir, öncəki iki beytin davamıdır. O, yatmışlara - ölmüşlərə salam olsun, yaşayanlara ümid, təhlükəsizlik olsun dedi. Salamı (rəhməti, bağışlamağı) Allaha, ümid və təhlükəsizliyi təmin etməyi bizə aid etdi. Sıra üçüncü qrupa - İranda ədalətin təmin olunmasına qarşı çıxanlara / çıxacaq olanlara gəldi. Bəhram bu vasitələri seçir:

- bilir ki, heç bir böyük iş müqavimətsiz gerçəkləşməz. İran xalqı zülm içində yaşayır, dövlət günahkarlara, oğrulara, qatillərə, yolkəsənlərə təslim edilmişdir, ölkə rüşvətin, yalanın, haramın, haqsızlığın pəncəsində can verir, ədalətin təmin olunması çıxar qruplarını narahat edir, haqsız qazancın yolunu kəsir. Elə buna görə də Bəhramı onlarla ciddi savaş gözləyir. O, bu qrupları ədalət xütbəsinin öncəki bölmələrində bir-bir saydı;
- Bəhram yatmışlara (ölmüşlərə) da, yaşayanlara da ayrıca bir beyt, ədalətə qarşı çıxanlara isə bir misra ayırır, onlardan qorxmadığını bildirir, onları dəyərsizləşdirir, kiçiltmir, düşmənini kiçik görmür, görməz, ancaq onların güclü olduqlarını hiss etmələrinə, Bəhramın onlardan qorxduğunu düşünmələrinə də izn vermir, müdafiədə deyil, hücumda oynayır, düşmənləri ilə uzlaşma deyil, savaş yolunu seçir, bilir ki, zəfərin yolu budur;
- ədalətin təmin olunmasına qarşı çıxanlara iki yol göstərir: a) bağışlanma; b) savaş;
- bağışlanma mesajını vermək üçün birinci misrada bu vasitələri seçir: "iş" deyir, həm də "mənim işim" biçimində deyir, ədalət sadəcə siz, vəd deyil, işdir, Bəhramın dövlət proqramının birinci maddəsidir, kimsə bu ədalət işinə qarşı çıxa bilməz, çıxmamalıdır. İstisna qəlibinə yer verir: "coz" (başqa, özgə, ayrı), qəlib deyir ki, Bəhramın ədalət və bağışlamadan başqa işi yoxdur. Misrada "dorud" sözü var, bu mənaları daşıyır: "salam", "barış", "bağışlama", "töhfə", "bəxşiş", "mehribanlıq". Biz bu mənaların ortaq nöqtəsi olan bağışlamanı önə çıxarırıq. Bəhram deyir ki, keçmiş dönəmdə zülmə bulaşmış olanlar peşman olsalar, tövbə etsələr, ədalət işinə qoşulsalar, onlara da ədalətlə yanaşacaq, bağışlama yolunu tutacağam. Bağışlama mesajı Bəhramın əlini gücləndirir, xalqı ona bağlayır, böyüklük edir, güclü olduğunu göstərir (güclü olan bağışlayar), barış təklif edir, qarşı tərəfi zəiflədir, onları dəstəkdən məhrum edir, ən azı onları parçalayır, bilir ki, bu bağışlama mesajını qəbul edənlər o olacaq. O, ədalət və bağışlama mesajının təsir gücünü artırmaq üçün dua üslubunu seçir, ona qətilik anlamı yükləyir, sözümdən, vədimdən dönməyəcəyəm demiş olur: mənim işim bağışlama və ədalətdən başqa bir şey olmasın, olmaz, olmayacaq;
- ədalətə qarşı çıxanların onun addımını Bəhram bizdən qorxur biçimində anlamamaları üçün, onların cəsarətini qırmaq məqsədi ilə ikinci misrada bu vasitələri seçir: öncə vəd verir, ölçü qoyur, açıqlayır, sonra xəbərdar edir, şərtimizi qəbul edənə bağışlama, etməyənə cəza var deyir. "Hər ke" qəlibini seçir, istisnaya yer qoymur, hər kim ki mənim ədalət işimə qarşı çıxır, bu işdən şad deyil, qoy o heç şad olmasın / sevinməsin. Bu, bir bədduadır, içində xəbərdarlıq, təhdid, cəza, ədalətə qarşı çıxanlar məğlub olacaqlar, Allahın və xalqın lənəti onların üzərinə olsun mənalarını daşıyır, deyir ki, kimsə Bəhramı məğlub edə bilməz, o, doğru yoldadır, Allah da, xalq da ədalət uğrunda cihad edəni dəstəkləyər;

Beytin rədifi var "olmasın" feilidir, əmr biçimindədir, iki mesajı gücləndirir, qətilik anlamı yükləyir: a) Bəhramın ədalət və bağışlanmadan başqa işi olmasın; b) ədalət və barışa qarşı çıxanlar şad olmasını - zəfər qazanmasın;

ON DOQQUZUNCU BEYTİN ŞƏRHİ: SƏCDƏ ETDİLƏR

پ دیِ د ک رد خویِ ش اذ صاف شه چون
شذ يد ک ه هو ک رد ش کر سجده

Şah öz ədalətini bəyan edəndən sonra,
Bütün eşidənlər şükür üçün səcdə etdilər.

Bəhramın dili ilə təqdim olunan on səkkiz beytlik ədalət xütbəsi bitdi. Nizaminin təhkiyəsi başladı. Şair bu beytdə Bəhramın ədalət xütbəsinin onu eşidənlər üzərindəki təsirini ifadə edir, uyğun vasitələr seçir:

- "çon", "elə ki", "o zaman ki" qəlibinə yer verir, zamanı, onun vasitəsi ilə də Bəhramın ədalət xütbəsinin təsir gücünü göstərir, yəni Bəhramın xütbəsi onu eşidənlərə o dərəcədə təsir etdi ki, o qədər xoşlarına gəldi ki, vaxt itirmədən, dərhal ona ehtiramlarını bildirdilər;
- Nizami mətndə ilk dəfə Bəhrama şah deyir, sevinci, qüruru, fəxr etmək duyğusunu dilə gətirir, yəni Bəhramın ədalət xütbəsi o dərəcədə təsirli idi ki, eşidənlər qürur duydular ki, onların şahı Bəhramdır, əsl şah belə olar, onun şahlığını ürəkdən qəbul etdilər;
- mətndə "şahın öz insaf xütbəsi" ifadəsi var, bu elə bir xütbə idi ki, Bəhramı başqa şahlardan seçirdi, o xütbə İranı zülmdən çıxarıb ədalətə qovuşdurma proqramı idi, xalqa ümid verdi;
- birinci misranın sonunda, qafiyə mövqeyində "pədid" sözü var, "açıq-aşkar", "görünən" mənalarını daşıyır, bu mesajı yüklənir: şah öz ədalət / insaf xütbəsini o qədər açıq, sadə bir dillə izah etdi ki, onun nə istədiyi, niyə istədiyi, istədiyini necə gerçəkləşdirəcəyi hər kəsə aydın oldu. Sistemli danışdı, məcazi dil seçdi, hakimiyyətlə Allah arasında bağ qurdu, hakimiyyəti nemət kimi dəyərləndirdi, Allahın onu seçdiyini bildirdi, dedi ki, hakimiyyətin şükrü ədalətdir, ədalət xütbəsinin bəndlərini bir-bir açıqladı, ağıl, cəsarət, iradəsini ortaya qoydu;
- mətndə "hər ke" qəlibi var ("hər kim"), istisnaya yer qoymur, Bəhramın xütbəsinin təsir gücünü ifadə edir, yəni hər kim ki onun xütbəsini eşitdi...;
- "şükür səcdəsi etdi", sadəcə səcdə etmədi, şükür səcdəsi etdi, yəni Bəhramın ədalət xütbəsi o qədər gözəl, təsirli idi ki, eşidənlər Bəhramı onlara şah seçdiyinə görə Allaha şükür etdilər;
- şahın qarşısında səcdə etmək İranın dövlətçilik rituallarından biridir, şaha ehtiram əlaməti olaraq onun qarşısında yeri öpürdülər;
- şükür səcdəsi etmək bu mənaları daşıyır: Bəhramın ədalət xütbəsi çox təsirli idi, onu ürəkdən bəyəndilər, çox sevindilər, Bəhrama inandılar, bu xütbənin zülmdən çıxış yolu olduğunu qəbul etdilər, şahla qürur duydular, ona ürəkdən bağlandılar, ağıl, cəsarət və iradəsinə heyran oldular, Bəhrama yardım edəcəklərinə söz verdilər, bizim gerçək şahımız Bəhramdır dedilər, nəticədə, Bəhram xalq birliyi təmin olundu, düşmənlərə göz dağı verildi;

İYİRMİNCİ BEYTİN ŞƏRHİ:
GUŞƏSİNƏ ÇƏKİLDİ

ﺗ ﺨﺖ ﺳﺮ ﺑ ﺮ ﻧ ﺸ ﺴﺖ ﺳﺎﻋﺖ ﺩﻭ ﻳ ﮏ
ﺭﺧﺖ ﺁﻧ ﺠﺎ ﺍﺯ ﮐ ﺸ ﻴﺪ ﺧ ﻠﻮﺕ ﺑ ﻪ ﭘ ﺲ

O, bir-iki saat taxtda oturdu,
Sonra isə xəlvət guşəsinə çəkildi.

Bəhramın dili ilə təqdim olunan ədalət xütbəsi bitdi, Nizaminin təhkiyəsi başladı, o, xütbəni eşidənlərin şaha münasibətini açıqladı: ədalət xütbəsini dinləyən hər kəs şükür səcdəsi etdi. Nizami Bəhram obrazının inşası üçün yeni vasitələr seçir:

- Bəhram çox iradəli, ağıllı siyasətçi, diplomatdır. Ağıllı, iradəli olduğunun göstəricilərindən biri də budur: böyük ordu ilə Yəməndən İrana gəldi, iki şir arasından tacı götürdü, taxta oturdu, ədalət xütbəsini açıqladı - bunların hamısı ard-arda baş verdi, Bəhram bu yolla İrandakı vəziyyətə hakim oldu, hər hansı qarışıqlığın çıxmasına izn vermədi. O bilir ki, siyasi gücün arxasında xalqın dəstəyi, hərbi, diplomatik güc olmasa, uğuru qorumaq imkansızdır, elə buna görə də ədalət xütbəsini gecikmədən açıqladı ki, atasının zülmü altında əzilmiş İran xalqını öz tərəfinə çəksin, ədaləti, ədalətin təmin olunması üçün zəruri olan işləri o qədər gözəl anlatdı ki, İran xalqının təmsilçiləri ona inandılar;
- Bəhram usta siyasətçidir, usta siyasətçilərin özəlliklərindən biri də budur ki, onların güclü müşahidə qabiliyyətləri olur, insanların jest və mimikalarını doğru oxuyur, nəticələr çıxarırlar. Bəhramın bu dərəcədə ağır işlərdən sonra bir-iki saat taxtda oturmasının səbəbi də budur. O,

ədalət xütbəsini dinləyənlərin davranışlarını müşahidə edir, sözünün təsir gücünü ölçür, məlumat toplayır, vəziyyəti dəyərləndirir;

- sonra olduğu məkandan uzaqlaşır, xəlvət guşəsinə - kimsənin olmadığı yerə çəkilir, bunun da səbəbləri var: a) dincəlmək istəyir; b) istirahət sadəcə yatmaq deyil, təfəkkür vaxtıdır, düşünmək üçün səssizliyə ehtiyac var; c) Bəhram özü ilə baş-başa qalır, özünə dönür, özünü hesaba çəkir, indiyədək atdığı addımları təhlil edir, xütbəsini eşidənlərin davranışlarını dəyərləndirir, gələcək işlərinin planını qurur;

- Nizami Bəhramın səssizlik və düşünmə ehtiyacını iki qəlibə yükləmişdir: a) "xəlvətə çəkilmək" ifadəsinə yer vermişdir (qeyd edim ki, xəlvət irfani anlayışdır, insanın ətraf aləmlə əlaqəsini kəsib bütün varlığı ilə Allaha yönəlməsidir, ağılı, qəlbi, iradəni səfərbər etməkdir, dərin düşünmə fürsətidir); b) "oradan paltarını çəkmək" məcazını seçmişdir, bu, Azərbaycan türkcəsindəki "əl-ətəyini çəkmək" ifadəsinə uyğundur, yəni kimsənin olmadığı bir yerə getmək, əlaqəni kəsmək, Bəhram taxtını tərk etdi, xəlvətə çəkildi ki, özünü sorğu-suala çəksin, yeni işlərini planlaşdırsın, dincəlsin;

İYİRMİ BİRİNCİ BEYTİN ŞƏRHİ:

ALLAH RAZI İDİ

ف رمودمی داد و ک ردمی عدل

خ شنود خدا و را ضی ازو خ لق

O, ədalətlə (hökm) edib, ədalət buyururdu,

Xalq ondan razı, Tanrı isə xoşnud idi.

Nizami hadisələri sürətləndirir, Bəhramın İran xalqını zülmün qaranlığından ədalətin nuruna çıxarmaq üçün görəcəyi işləri ədalət xütbəsinin içində bir-bir saydığından təkrara ehtiyac qalmır, şair diqqəti ədalət proqramına deyil, onun icrasına, nəticələrinə yönəldir, bu vasitələri seçir:

- beytin mətninə sırası ilə üç anlayış yerləşdirir: ədalət, xalq, Allah, mesajı bu anlayışlar üzərindən verir;

- beytin hər sözü ədalət deyir;

- ədalət xalqla hökmdar (dövlət), hökmdarla Allah arasındakı ən etibarlı körpüdür;

- birinci misra "ədl" (ədalət) sözü ilə başlayır, şair bir misrada ədalət mənasını daşıyan iki söz seçir: "ədl", "dad";

- bir misrada iki icra, iş feilinə yer verir, ədalət mənalı sözləri bu feillərə bağlayır: "ədalət edirdi", "dad buyururdu", yəni artıq ədalət söz deyil, iş / əməl idi, Bəhram ölkə həyatının bütün sahələrində ədalətin təmin olunması üçün işlər görür, addımlar atırdı;

- "buyurmaq" feili hədəfli olaraq seçilir: Bəhramın bütün buyruqları ədalətlə bağlı idi, ədalətlə bağlı məsələlər buyruq, əmr, olmazsa olmaz statusunda idi, mütləq yerinə yetirilməli idi, o, işlərə birbaşa özü nəzarət edir, hesab sorur, göstərişlər verirdi, onun ədalətdən başqa işi yox idi;

- şair "buyurmaq" feilinin ("ədalət buyurmaq" biçimində) önəmini göstərmək üçün onu qafiyə mövqeyinə keçirir;

Nizami ikinci misrada Bəhramın İrandakı ədalət hərəkatının nəticələrini açıqlayır, iki önəmli nəticə var:

Birincisi, xalq ondan razı idi, Nizami məhz "xalq" sözünü seçir, istisnaya yer qoymur, yəni Bəhramın ədalət hərəkatı bütün xalqı əhatə etmişdi: ölkədə zülmə son qoyulmuş, ədalətin, inkişafın, rifahın, bolluğun yolu açılmışdı, xalqın canı, şərəfi, sərvəti güvəncə altında idi, İranda qorxu yox olmuş, ümid günəşi doğulmuşdu. Mesaj budur: hakimiyyətlə xalq arasındakı körpü ədalətdir, xalqın sevgisini qazanmağın, onu razı etməyin yolu ədalətdir.

İkincisi, Allah da ondan - Bəhramdan xoşnud / məmnun idi. Mesaj budur: Allahın rizasını qazanmağın yolu xalqın rizasını qazanmaqdır. Allahı və xalqı razı etməyin tək bir yolu var, o da ədalətdir, zülm hakimiyyəti xalqdan və Allahdan uzaqlaşdırır, ədalət hakimiyyəti xalqa, Allaha yaxınlaşdırır. Hakimiyyət nemətinin davamı, təhlükəsizliyi ədalətə bağlıdır.

Nizami Bəhramı önə çıxarır, onu verdiyi sözü yerinə yetirən siyasi lider kimi tanıdır. O, Bəhram ədaləti təmin edən şahdır mesajını vermək, Bəhramın aydın görünməsinin yolunu açmaq üçün vasitələr seçir: beytdə üç Bəhram vurğusu var, biri "əz u" ("ondan"), ikisi şəxs sonluğu biçimindədir: "edirdi", "buyururdu", Bəhramın işi ədalət idi, Bəhramın hər buyruğu ədalətlə bağlı idi, xalq Bəhramdan razı idi, Allah Bəhramdan məmnun idi, Bəhramın xarakteri, əməli ədalət idi, ədalət Bəhramı həm xalqa, həm də Allaha bağlamışdı.

İYİRMİ İKİNCİ BEYTİN ŞƏRHİ:
MÜŞAVİRƏ EDİRDİ

ک ردبِ زرگ واران بِ ا انجمن
ک ردا س تواران بِ ه ا س تواری

O, böyüklərlə müşavirə edirdi,
Möhtəşəmlərlə möhtəşəmlik edirdi.

Bu, sonuncu beytdir, təhkiyəçi Nizamidir, o, Bəhramın İranda zülmün yerinə ədaləti qoyma hərəkatının uğur qazanmasının səbəblərini izah etmək üçün onun dövlət idarəçiliyinin əsaslarından birini açıqlayır. Məşvərəti önə çıxarır. Məsələnin bütün yönləri ilə anlaşılması üçün qeyd edim ki, Nizami hər hansı bir dövlət modeli təklif etməmiş, ancaq dövlət idarəçiliyinin altı əsasını açıqlamışdır:

- həqiqət - dövlət doğru əsaslar üzərində qurulmalı, doğru işlər görməli, doğru danışmalı, insana xidmət etməlidir, onun canını, şərəfini, malını qorumalıdır;
- ədalət - dövlətin əsas işi ədaləti təmin etməkdir, dövlətin imanı ədalətdir, bir dövlət inancsızlıqla deyil, zülmlə yıxılar;
- əhliyyət və ləyaqət - iş işi bilənə verilməlidir;
- məşvərət (şura) - qərarlar ayrı-ayrı sahələrin mütəxəssisləri ilə müzakirə olunandan sonra verilməlidir;
- şəfqət və mərhəmət - dövlət vətəndaşını qorumalı, onun sıxıntılarını həll etməli, əlindən tutmalıdır;
- ümid - dövlət vətəndaşına ümid verməlidir, ümid verməyin yolu bunlardır: ədalət, mərhəmət, bolluq, rifah, təhlükəsizlik;

Nizami beytdə dövlət idarəçiliyinin əsaslarından olan məşvərəti önə çıxarır, onu Bəhramın uğurlarının ən önəmli səbəblərindən biri kimi tanıdır, bu vasitələri seçir:

- "əncümən" sözünə yer verir, bu sözün "cəmiyyət", "yığıncaq", "müşavirə" mənaları var. Bəhram İranda ədalətin təmin olunması proqramını gerçəkləşdirmək üçün bir yol seçir, qərar verir ki, toplumun hər kəsimini bu hərəkata daxil etsin, bunun yolu da məsləhət qapısını açıq tutmaqdır. Məsələnin bu biçimdə həlli nəticələr ortaya çıxarır: a) ədaləti gerçəkləşdirmək çətin işdir, uğur qazanmaq üçün xalq bu işə qoşulmalıdır; b) Bəhram müzakirələr nəticəsində qərar verərək məsuliyyəti bölüşür; c) səhvləri azaldır; d) xalqı hakimiyyətə bağlayır - məsləhətləşmək dəyər verməkdir, dəyər verdiyin səni sevər; e) işə nəzarət imkanı qazanır - məsləhətləşdiyi adamlar xalqın vəziyyətini, nə düşündüyünü bilir, Bəhramı xəbərdar edirlər, ciddi nəzarətin əsası doğru məlumatdır; ə) qorxunu azaldır, həqiqəti öyrənmək istəyir, bunun yolu da insanlara düşünmək, düşündüyünü danışmaq imkanı verməkdir; i) Bəhram təvazökar olduğunu göstərir, hər şeyi bilirəm havasına girmir, sizə ehtiyacım var demiş olur, ağıl ağıldan üstündür ölçüsü ilə hərəkət edir, məsləhətli donun gen olacağına inanır;
- Bəhram kimlərlə məsləhətləşir? Nizami bu sualın cavabı olaraq "böyüklərlə" sözünü mətnə yerləşdirir. "Böyüklər" sözü ölkə həyatının bütün sahələri ilə bağlı mütəxəssisləri, ağsaqqalları, alimləri, qənaət liderlərini, irfan əhlini, arifləri, aşiqləri nəzərdə tutur;
- Nizami "etmək" feilini keçmiş zamanda ("kərd", "etdi") rədif mövqeyinə yerləşdirir, mesajı budur: Bəhramın məsləhətləşərək qərar ver ölçüsü arada-sırada olan, xala xətrin qalmasın qaydası ilə, gözdən pərdə asmaq üçün deyildi, bu, ardıcıl davam edən bir iş idi, məsləhət şurası dövlət idarəçiliyinin davamlı çalışan qurumu kimi fəaliyyət göstərirdi, yəni Bəhram ədaləti təmin etmək üçün böyüklərlə məsləhətləşməyi əsas işlərdən biri saydı, idarəçiliyinin mərkəzinə qoydu;

- ikinci misrada "ostovari" sözü var, iki dəfə işlənib, biri "ostovar" biçimindədir, "möhkəm", "davamlı", "qüdrətli", "möhkəmlik", "sabitlik", "davamlılıq" mənaları var, tərcümədə "möhtəşəm" və "möhtəşəmlik" kimi tərcümə olunub. Bu söz özəlliklə arifləri, aşiqləri, irfan əhlini nəzərdə tutur, belə ki, Nizami sıradakı bölmədə Bəhramla irfan əhlinin bağını açıqlamışdır. Yəni Bəhram sözü olanlarla, fikir sahibləri ilə, mütəxəssislərlə, sözündə, işində möhkəm, davamlı, sabit olanlarla, ariflərlə böyüklük, möhtəşəmlik etdi, böyük ədalət proqramını onların iştirakı ilə gerçəkləşdirdi, məşvərət qurumu xalqla Bəhramı bir-birinə bağladı, doğru qərarlar verildi, nəticədə, zəfərin yolu açıldı, zülm getdi, ədalət gəldi. Mesaj budur: ədaləti təmin etmək istəyən məşvərətə, ağıllı adamlara möhtacdır;

NƏTİCƏ

Nizami Gəncəvinin "Yeddi gözəl" məsnəvisinin "Bəhramın ədalət xütbəsi" adlı bölməsi iyirmi iki beytdir, bu mesajları verir:

- "Yeddi gözəl" məsnəvisi, o sıradan "Bəhramın ədalət xütbəsi" adlı bölmə bu suallara cavab vermək üçün yazılmışdır: Allah hakimiyyəti kimə verər? Hakimiyyətin davamlı olması nəyə bağlıdır? Hakimiyyət nemətinin geri alınmasının səbəbi nədir? Hakimiyyət nemətinin şükrü necə yerinə yetirilər? Dövlət idarəçiliyinin əsasları hansılardır? Dövlət başçısının hansı özəllikləri olmalıdır?;

- hakimiyyət ilahi nemətdir;
- gerçək hakimiyyətin sahibi Allahdır;
- O, hər şeyin sahibidir;
- Allah mükəmməl idarəçidir;
- O, hakimiyyəti seçdiyinə verər;
- Allah hakimiyyətə gəliş qanununun tələblərini yerinə yetirəni seçər;
- hakimiyyət nemətinin davamlı olması ədalətə bağlıdır;
- hakimiyyət nemətinin şükrü hər kəsə ədalət, hər kəsə mərhəmət, hər insana xidmətdir;
- hakimiyyət zülm vasitəsinə çevrilsə, geri alınacaq;
- zəfəri özündən bilsən, bu, təkəbbürə, təkəbbür mənəvi korluğa, mənəvi korluq həqiqətdən məhrum qalmağa, həqiqətdən məhrumluq nemətin gerçək sahibini, ilahi təyinatını unutmağa, o da nemətin itirilməsinə səbəb olacaq;
- hakimiyyəti verən də, alan da Allahdır;
- hakimiyyət imtahan vasitələrindən biridir;
- ədalət neməti bərəkətləndirir, zülm bərəkəti yox edir;
- bərəkət sözü üç anlamı əhatə edir: xeyirli, çox, davamlı olsun;
- Allahı tanıyan ona şükür edər;
- şükür nemətin sahibinin Allah olduğunu bilmək, ondan ilahi təyinatına uyğun istifadə etməkdir;
- şükür dillə, qəlblə, əməllə olar;
- şükür neməti artırar;
- hər nemətin şükrü öz cinsindəndir;
- insan olmağın şükrü Allaha təslimiyyət, övladın şükrü gözəl tərbiyə, ağlın şükrü düşünmək, qəlbin şükrü iman, vicdanın şükrü mərhəmət, sərvətin şükrü paylaşmaq, sözün şükrü həqiqəti söyləmək, yazmaq, insanlığın şükrü xeyri, ədaləti, barışı, mərhəməti, əxlaqı çoxaltmaqdır;
- hökmdar xalqla arasına qılıncı deyil, ədaləti qoymalıdır;
- xalqı zorla, zülmlə, qorxu ilə deyil, ədalətlə özünə bağla;
- hakimiyyətlə xalqı bir-birinə bağlayan ən etibarlı körpü ədalətdir;
- zülmdən qorxulu - düşmən, ədalətdən xeyirli dost yoxdur;
- ədalət hər şeyi ilahi təyinatına uyğun yerdə tutmaq, zülm hər şeyi ilahi təyinatından uzaqlaşdırmaqdır;
- zülm günahkarları və günahları, oğruları və oğurluğu, qatilləri və qətlləri, yolkəsənləri və yol kəsməyi çoxaldar;

- zülm ağılın, iradənin, istedadın, elmin, inkişafın düşmənidir;
- zülmün varlıq səbəbi cəhalət, qorxu, yoxsulluqdur;
- zülm haramı, ədalət halalı çoxaldır;
- siyasətin əsası idarəçilikdir - siyasət idarəetmə sənətidir;
- harada nizam varsa, orada ədalət, harada qarışıqlıq varsa, orada zülm hakimdir;
- məmurlar pozulsa, dövlət idarəçiliyi pozular;
- məmurlar doğru seçilməli, iş işi bilənə verilməlidir;
- balıq başdan iylənər;
- məmurlara nəzarət şərtdir;
- əmr, qərar verə, nəzarət və tələb edə bilməyəndən başçı olmaz;
- başçı ölkəyə ailəsi kimi baxmalıdır;
- rəhmətin, barışın, hüzurun, sevginin, bolluğun, inkişafın əsası ədalətdir;
- düzlük iki dünyanın sərmayəsidir;
- hər xəstəlik ziddi ilə sağalar: cəhalətin ziddi elm, zülmün ziddi ədalət, nifrətin ziddi sevgidir...;
- ədalət iki dünyanın səadətinə yol açır;
- dövlətin mərkəzində insan olmalıdır, insan dövlət üçün deyil, dövlət insan üçündür;
- nəzarət və cəza olmasa, ədalət təmin olunmaz;
- əxlaqdan qopmuş siyasət fəlakət qaynağıdır;
- öncə siyasət əxlaqını öyrən, sonra siyasətlə məşğul ol;
- siyasi liderlik üçün gözəl nitq də şərtdir;
- zalımın ən güclü müxalifəti zülmdür, onu devirəcək;
- Bəhramın idarəçilik üsulu budur: ədalətli qanunlar qoy, işini bilən məmurlar seç, onları qorxu və ümid arasında tut, qəbul etdiyin qanunları tətbiq et, icraya nəzarət sistemi qur, hesabat tələb et, mütəxəssislərlə məsləhətləş, cəza, mükafat qurumunu çalışdır, işçilərinə örnək ol, sözünlə işin üst-üstə düşsün;
- ciddi islahatlar müqavimətlə qarşılaşacaq;
- böyük ağlı, elmi, insan sevgisi, siyasəti, cəsarəti, iradəsi olmayan ciddi islahatlar gerçəkləşdirə bilməz;
- cəsarət dosta ümid, düşmənə qorxu verir;
- ədalət dostları sevindirər, düşmənləri yasa batırar;
- diplomatiyanın arxasında siyasi, hərbi, iqtisadi güc, xalqın güvəni dayanmalıdır;
- Allahın rizasını qazanmağın yolu insanları razı salmaqdır, insanları məmnun etməyin yolu da ədalət və mərhəmətdir;
- lider ümid verən insandır;
- ümidin anası ədalət, meyvəsi sevgidir;
- dövlət idarəçiliyinin altı əsası var: həqiqət, ədalət, əhliyyət və ləyaqət, məşvərət, mərhəmət, ümid;
- lider bağışlama qapısını açıq tutmalıdır;
- ədaləti təmin etmək üçün ağıllı, elmli, arif, əxlaqlı, cəsur, iradəli, mərhəmətli insanlarla işləmək zərurətdir;

Nizami bu anlayışların mənasını izah etmişdir: Allah, hakimiyyət, nemət, seçilmişlik, şükür, ədalət, zülm, məmurluq, mərhəmət, məşvərət.

Mətndə ən çox işlənən sözlərin sıralaması belədir: Bəhram, onun adı mətndə yoxdur, "mən", "o", "şah", şəxs sonluqları vasitəsi ilə tanıdılmışdır (21 dəfə), Allah - Xuda, Xodai, O biçimlərində (12 dəfə), ədalət - ədl, dad, insaf biçimlərində (8 dəfə).

Məsnəvidə hakimiyyət simvolu olan bu sözlər var: əfsər (tac), tac, taxt, saray (dərge).

Mətndə İran dövlətçilik ənənəsinin bir əlamətinə (ritualına) yer verilmişdir: iranlılar şaha ehtiram əlaməti olaraq qarşısında əyilərək yeri öpürdülər.

Mətndə üç rəng adı var: mavi, ağ (gündüz anlamında), qara (gecə mənasında). Bəhram sözünün təsir gücünü artırmaq üçün məcazlar seçmişdir, məsnəvidə bu frazeoloji birləşmələr var:

- "arxa çevirmək";
- "iki şirin ağzından tac götürmək";
- "üz döndərmək";
- "şahmat fiquru kimi öz yolu ilə hərəkət etmək" (düz olmaq);
- "nicat tapmaq";
- "sağ qulağını sağ əli ilə tutmaq" (düzgün olmaq);
- "sol qulağı ağrımaq" (cəzalanmaq);
- "ədalət və insaf qapısını açmaq";
- "üzərinə düşmək";

Nizami sağ ələ, sağ tərəfə, sağ qulağa düzlük, xeyir, bərəkət, sol ələ, sol tərəfə, sol qulağa əyrilik anlamı yükləmişdir.

Mətnin açar anlayış və sözləri bunlardır: ədalət (ədl), xütbə, Xuda, əfsər (tac), mübarək, afərin, razılıq, nemət, şükür, tac, şir, şəmşir, Allah qoysa, günahkar, oğru, qatil, yolkəsən, dərge (saray), ev, yol, seçilmişlər, əyrilik, düzlük, sağ qulaq, əl, sol qulaq, insaf, zülm, dad (ədalət), fərize (fərz olan), qorxu, Allah tanıyan, etimad, itaət, çərx, yatanlar (ölülər), dəhr (zaman), mavi, ağ, qara, yaşayanlar, əman, ümid, şükür səcdəsi, şah, saat, taxt, xəlvət, xalq, əncümən, böyüklər, möhkəm, möhkəmlik.

***"525-ci qəzet"in özəl buraxılışı - 2***
***Buraxılışın elmi redaktorları:Professor Almaz Ülvi Binnətova? Dosent Aygün Bağırlı***

https://525.az/news/178935-nizaminin-edalet-xutbesi-siraceddin-haci-yazir